# DUA EDƏN ARVADIN GÜCÜ



STORMİ OMARTİAN

# MÜQƏDDİMƏ

Bizim Stormi ilə olan uzunmüddətli nigahımız haqqında danışanda, hərdən mən zarafat edirəm: «Bu 25 il mənim üçün ən xoşbəxt və onun üçün ən bədbəxt illər olub». Bizim, əsrin dörddə bir hissəsi qədər olan ailə həyatımızdan sonra çətin ki, Stormi üçün mənim mürəkkəb şəxsiyyətimin hansısa bir hissəsi sirli qalsın. O, hər şey görüb: mənim zəfərlərimi, mənim məğlubiyyətlərimi, mənim mübarizəmi, qorxu və ümidsizliyimi. Onun bütün əsasları var idi ki, mənim ər kimi, ata kimi və musiqiçi kimi tutarlı olmağıma şübhə etsin. Mənim birinci tələbimdə, Allah mənim xahişlərimi yerinə yetirmədiyinə görə, Ondan necə inciməyimi o, görürdü; o, Allahın möcüzələrini görürdü, nə vaxt ki, O, nəyisə küldən qaldırıb və onu qızıla çevirirdi. Bu yolda hər bir addım onun nəticəsində baş verirdi. Bu kitab, Storminin bütün bu illər ərzində yığılmış təcrübəsi əsasında yazılmışdır. Onun mənə görə duaları olmasaydı, mənim həyatımın necə olmasını mən özümə təsəvvür edə bilmirəm. Onun duaları mənə təsəlli gətirir və təhlükəsizlik hissi bəxş edir, həmçinin Allahın — bir birinə görə dua etmək, əmrinə riayət etməyə kömək edir. Mən, ərimə olan həqiqi məhəbbəti dərk etmək üçün, ona görə dua etməkdən başqa, digər yolu tə-

səvvür edə bilmirəm. Bu qiymətli hədiyyə ona Allahın xeyir-dualarının və Onun lütfünün sevincini dərk etməyə kömək edir.

Stormi, mən səni sevirəm.

*Sənin duanın gücünü və lütfünü dərk*
*etmiş ərin Maykl*

*Bu kitabı mən, dua etdiyimdən çox-çox artıq mənə verən, ərim Maykla məhəbbətlə həsr edirəm. Biz hər ikimiz duanın gücünü dərk etdik.*

# MİNNƏTDARLIQ

Mənim xüsusi təşəkkürüm:

- Bu kitabın üzərindəki işin çox hissəsini öz üzərinə götürmüş, mənim katibəm və əvəzolunmaz köməkçim Syüzan Martinesə. Sənin bacılıq məhəbbətinin, dostluq sədaqətinin və dua dəstəkləmənin iş bacarığınla həmahəngliyi və özünü bizim ümumi işə tam həsr etməyin, mənim üçün qiymətsiz hədiyyə oldu.
- Bizim ərlərimizə görə Allaha bu gözü yaşlı duada, özündən imtina etmək üçün nə qədər gücün tələb olunduğunu dərk edən, mənimlə birlikdə dua edən rəfiqələrimə. Sizin Rəbbə səmimi dualarınız olmasaydı, bu kitab ola bilsin ki, heç olmazdı. Mən sizi həmişəlik öz ürəyimdə qiymətli bir xəzinə kimi saxlayacağam.
- Qızım Mendiyə və oğlum Krisə bizə, sizin valideynlərinizə olan məhəbbətinizə görə, baxmayaraq ki, bizim münasibətlərimiz idealdan uzaq idi. Bizim problemlərimizin müstəqil həllinin axtarışı, qabağı dua etməyin üstünlüyünü Maykl ilə başa düşənə qədər, sizin gözlərinizin önündə baş verən mübahisələrə görə təəssüf edirəm. Mən dua edirəm ki, bizim öyrəndiyimiz

bütün yaxşı şeyləri siz öz ər-arvad münasibətlərinizə köçürəsiniz.

- Mənim yeni oğlum Con Deyvid Kendrikə, sənin valideynlərin artıq göylərdə olarkən məni öz doğma anan kimi qəbul etdiyinə görə. Sən bizim üçün o kəs oldun ki, kimə bizim əvvəlki illərdə ehtiyacımız var idi, lakin sən həyatımıza daxil olana qədər biz bunu bilmirdik.
- Mənə dua etməyi öyrədib və əsl nigahın sirrini açdıqlarına görə, pastor Cek Xeyforda və onun həyat yoldaşına, Annaya, pastor Deyl Evristə və onun həyat yoldaşına, Coana.
- «Xarvest Xaus» nəşriyyatının bütün kollektivinə: Bob Xokins böyüyə, Bob Xokins kiçiyə, Bill Censenə, Culi Makkinniyə, Tereza Evensona, Betti Fletçerə və Larey Ueykertə bu kitabın üzərindəki işdə aktiv fəaliyyətə və onun buraxılması üçün verdiyiniz böyük vəsaitlərə görə. Siz hamınız, mənim ürəyimin sevincisiniz, lakin nəşriyyatın rəhbəri Kerolin Makkridiyə köməyi və dəstəkləməsinə görə xüsusi minnətdaram.
- Peşəkar baxışı və iti ağlına görə qiymətləndirdiyim, mənim nəşriyyatçım Xolli Xelversona.
- Dua edən arvadın gücünün dəyərini praktikada mənə göstərən və öz həyat təcrübələri ilə bölüşdüklərinə görə, Tom və Petti Brussoya, Maykl və Terri Xerritona, Yan və Deyv Uilliamsona, həmçinin Deyv və Pristsilla Navaroya.

*Xeyirxah arvad tapan kimdir? O, yaqutlardan daha qiymətlidir. Ərinin qəlbi ondan arxayındır, Dayanmadan bərəkət qazanır. Ömrü boyu ərinə pislik deyil, Yaxşılıq gətirir.*

Süleymanın Məsəlləri 31:10–12

# DUANIN GÜCÜ

Ən əvvəl ərz etmək istəyirəm ki, dua edən arvadın gücünə, ərin üzərinə nəzarət qoymaq vasitəsi kimi baxmaq olmaz və səni xəbərdar etmək istəyirəm ki, özünü yalançı ümidlə aldatmayasan! Əslində hər şey tərsinədir. Duanın gücü, özündən, öz qüvvələrinə olan iddialardan imtina etməkdən və səni, sənin ərini, sizin bütün həyatınızı və əlbəttə ki, sizin ər–arvad münasibətlərinizi dəyişdirməyə qadir olan Allahın qüdrətinə tam etibar etməkdən ibarətdir. Bu güc ona görə verilmir ki, sən nəticədə itaətsiz heyvanı cilovlamaq üçün qamçıya çevriləsən. O, ona görə verilir ki, almaqdansa verməyə iti olan və sadəcə haqlı olan yox, lakin düzgün hərəkət etməyə səy göstərən, arvadın duaları nəticəsində nigahın yenidən doğulması üçün bir vəsait olsun. Nəticədə sənə də bəxş ediləcək xeyir dualara görə, Allahdan ərinin həyatına daxil olmasını, ancaq belə diləmək olar.

Biz, Maykl ilə evləndikdən sonra bizim aramızda ziddiyyət yaranada, mən ən az dua haqqında düşünürdüm. Bundan əlavə, bunda mən özümün son ümidimi görürdüm. Mən, bütün müxtəlif üsullardan istifadə etdim: mən küsürdüm, mübahisə edirdim, yalvarırdım, özümə qapanırdım və əlbəttə ki, məhşur üsul olan, susmaq

oyunundan da istifadə edirdim. Bu xoşagəlməz üsullardan, duanın nəticəsi ilə yan keçməyin mümkün olduğunu dərk etmək üçün vaxt tələb olundu.

Bu gün sən bu kitabı oxuyanda, biz Maykl ilə artıq iyirmi beş ildən artıq evliyik. Bu möcüzədən başqa bir şey deyil və bu işdə bizim zərrə qədər də olsun əməyimiz yoxdur — bütün məsələ, dualara cavab verən Allahın mərhəmətindədir. Etiraf edə bilərəm ki, hətta uzun illərdən sonra da mən bunu öyrənməkdə davam edirəm və bu heç də asan deyil. Əvvəlki vaxtlarda olduğu kimi, bu gün də səhv etsəm belə, ancaq əminliklə deyə bilərəm ki, dua öz işini görür.

Təəssüflər olsun ki, mən öz uşaqlarıma görə duaya başlamayana qədər, ərim üçün necə düzgün dua etmək lazım olduğunu bilmirdim. Uşaqlarıma görə olan dualarıma Allahdan ciddi və dərin cavablar alanda, ərimə görə də səylə və alovlu dua etmək qərarına gəldim. Amma, mən bir şeyi müəyyən etdim ki, uşaqlara görə dua etmək çox asandır. Onların doğulduğu gündən, bütün ürəyimizlə onlar üçün ən yaxşısını əldə etmək arzusu ilə, onların həyatında iştirak edirik. Lakin, ər üçün dua etmək elə də asan deyil, xüsusən əgər sən ər-arvad həyatının acısını dadmısan. Ər, öz laqeydliyi, diqqətsizliyi ilə təhqir edə bilər, o, kobud olub və son dərəcə əsəbləşdirə bilər. O, sənin ürəyini iynə kimi deşən sözlər deyə bilər və sən hər dəfə ona görə dua etməyə başlayanda, bu irinli yaranın necə ağrıdığını hiss edirsən. Yəqin ki, sən ürəyindəki bu «iynə»dən azad olmayınca, öz ürəyini Allaha, Onun istədiyi kimi aça bilmirsən.

Ərə görə edilən dua, uşaqlara görə edilən dua ilə qətiyyən eyni deyildir (onlar sənin üçün nə qədər də eyni gəlsələr də), çünki sən öz ərinin anası deyilsən. Bizim, uşaqlarımızın üzərində, Rəbb tərəfindən verilmiş səlahiyyətimiz vardır, lakin ərlərimizin üzərində bizə səlahiyyət verilməyib. Amma bizə «…düşmənin bütün qüvvətini ayaq altında əzmək üçün səlahiyyət...» (Lk. 10:19, bax) və öz duanla düşmənin planlarını dağıtmaq verilib. Ər-arvad münasibət-

lərində meydana çıxan bir çox problemlər, bu münasibətləri sona qədər dağıtmaq üçün, düşmənin faktiki planının bir hissəsidir. Ancaq biz deyə bilərik:

- Mən heç kimə və heç nəyə icazə vermirəm ki, mənim nigahımı dağıtsın.
- Mən ərimin həqiqət yolundan azdırılıb çıxarılmasına dayanıb baxmayacağam.
- Mən aramızda görünməz divarın tikilməsinə laqeydliklə baxmayacağam.
- Mən soyuqluq və qarşılıqlı anlaşılmamazlıq və ya düzgün edilməmiş seçim pasına bizim qarşılıqlı münasibətlərimizi yeməsinə və bizim birlikdə qurmaq istədiyimizi, dağıtmasına icazə verməyəcəyəm.
- Mən bizi boşanmaya itələyən, ağrı və bağışlamamaq arzusu ilə barışmayacağam.

Biz nigahımıza əks olan istənilən neqativ təsirə qarşı dura bilərik və əmin ola bilərik ki, Allah, Öz Adı naminə, nigahımızın qorunmasına bizə güc verəcək.

Sənin öz nigahının ətrafında mühafizə divarı qoymağa imkanın var, çünki İsa deyib: «...Yer üzündə bağlayacağınız hər şey göydə bağlanmış olur; və yer üzündə açacağınız hər şey göydə açılmış olur» (Mt.18:18). Səndə İsanın adı ilə pisliyi dayandırmaq və yaxşılığa yol açmaq səlahiyyəti var. Duada sən Allaha sənin ərinin dəyərli həyatla yaşamasına mane olan hər şey barəsində danışa bilərsən: alkoholizm, həddindən artıq işgüzarlıq, tənbəllik, depressiya, zəifxasiyyətlilik, yolagetməməzlik, daimi həyəcan hissi, qorxu və ya daimi bəxtigətirməməzlik — və bütün bunlardan onun azad olması üçün dua edə bilərsən.

## Öz nigahın haqqında ölüm hökmü verməyə tələsmə...

İndi mən səmimi etiraf edə bilərəm ki, vaxtilə mən ərimdən ayrı yaşamaq və hətta onun ilə boşanmaq haqqında ciddi düşünürdüm. Bu gün mənim üçün belə qərar qəbuledilməzdir, çünki mən nə birinci, nə də ikinci variantları, bədbəxt nigahın problemlərinin həlli üçün yaxşı üsul saymıram. Allahın boşanma haqqında nə dediyini mən bilirəm; mən bilirəm ki, bu yol Ona məqbul deyil və Onu çox kədərləndirir, mən isə həyatımda ən az Rəbbi kədərləndirmək istəyirəm. Amma mənə həmçinin, düzgün qərarlar qəbul etməyin hər bir bacarığını öldürə bilən, ümidsizlik hissi yaxşı tanışdır. Mən, insanın düzgün hərəkət etmək cəhdlərinin tərk edildiyi, ümidsizlik səviyyəsini dərk etdim. Mənə tənhalığın elə halları tanışdır ki, nə vaxt qəlbim, ona baxıb və orada səni görə bilən hər bir kəsin yanına qaçmağa hazırdır. Mən elə dözülməz ağrı çəkmişəm ki, bu ağrıdan ölə bilmək qorxusu məni məcbur edirdi ki, mənim sağ qala bilməyim üçün yeganə vasitə olan — bu ağrının mənbəyindən azad olmanı axtarım. Ümidsizlik tərəfindən diktə edilən hərəkətlərin edilməsinin nə olduğunu mən bilirəm, çünki sənin gələcəyin yoxdur. Mən gündən günə, elə neqativ emosiyalar axınına məruz qalmışdım ki, boşanmadan başqa mənə arzu edilən yüngüllüyü heç nə vəd vermirdi.

Bizim nigahımızın böyük problemi, mənim ərimin özündən tez çıxmaq xasiyyəti idi. Onun qəzəbinin yeganə hədəfləri mən və bizim uşaqlarımız idi. Onun sözlərindən mənim daxilimdə hər şey büzüşürdü və soyuyurdu. Mən deyə bilmərəm ki, mən günahsız idim — tamamilə əksinə. Mən əmin idim ki, ondan heç də az təqsirkar deyiləm, lakin vəziyyəti necə düzəltməyi bilmirdim. Mən həmişə Allahdan diləyirdim ki, ərimin xasiyyətini yumşaltsın, onu gec hirslənən, daha çox yumşaq və sakit etsin, ancaq dəyişiklik hiss etmirdim. Yəni Allah məni eşitmirdi? Məndə hətta belə bir şübhə də yaranmışdı: bəlkə O, ərə arvaddan çox xeyirxah iradəlidir?

Bir neçə il belə həyat yaşayışından sonra, bir dəfə mən göz yaşları ilə Rəbbə müraciət etdim: «Ata, mən daha belə yaşaya bilmirəm. Mən bilirəm ki, Sənin boşanmaya münasibətin necədir, ancaq, mən artıq bu adamla bir evdə yaşaya bilmirəm. Kömək et mənə, ya Rəbb!». Mən saatlarla əlimdə Müqəddəs Kitab ilə çarpayının üstündə oturub, uşaqları götürüb getmək üçün, olan güclü arzum ilə mübarizə aparırdım. Bilirəm ki, Allah qəlbimin çığırtısını eşidərək, boşanmadan sonra həyatımın necə olacağını mənə dəqiq və aydın görməyə və yaranacaq problemlərim haqqında düşünməyə imkan verdi: mən necə yaşamaq üçün pul qazanıb və eyni zamanda uşaqların tərbiyəsi ilə məşğul olacağam, mənim dostlarımdan kim mənimlə qalacaq və ən dəhşətlisi — boşanma mənim oğlum və qızımın psixikasına necə təsir göstərəcək. Mənzərə son dərəcə dəhşətli idi. Əgər mən getsəm ola bilsin ki, mənim üçün yüngül olsun, ancaq mənə əziz olan şeyin itkisi qiymətinə. Mən bilirdim ki, Allah, Maykl ilə bizim üçün belə çıxış hazırlamayıb.

Mən öz gələcəyim haqqında düşünəndə, Allah mənə açıqladı ki, əgər mən könüllü olaraq öz həyatımı Onun taxtının önünə qoysam, ərimi qoyub getmək fikrindən etiraz etsəm və bütün ehtiyaclarımı Ona etibar etsəm, O, mənə, Maykla görə dua etməyə, öz həyatını necə həsr etməyi öyrədəcək. O, ərimə görə necə dua etməyi mənə göstərəcək və mən dua etdiyim müddət ərzində, O, bizim nigahımızı bərpa edib Öz xeyir dualarını hər ikimizin üzərinə axıdacaq. Əgər ikimiz də bundan ayrı yox, birlikdə keçsək, hər ikimiz yaxşı olacağıq. Rəbb mənə göstərdi ki, Maykl, ona başqa cür olmağa imkan verməyən öz keçmişinin hörümçək torları ilə bağlıdır. Lakin O, mənim razılığım ilə, məni ərimin azad olması üçün bir silah kimi istifadə etmək fikrində idi. Razılığa gəlmək ağrıdıcı və ağır idi və mən çox ağladım, amma qərara gələndə, uzun illərin ərzində ilk dəfə idi ki, məndə ümid yarandı.

Mən hər gün Maykla görə dua etməyə başladım — əvvəllər heç vaxt dua etmədiyim kimi dua etməyə başladım. Ancəq, hər dəfə

mənə öz ürəyimin qüsurlarını iqrar etmək lazım gəlirdi. Mənim ağrımın və incikliyimin nə dərəcədə dərin olduğunu mən gördüm. Mən ona görə dua etmək istəmirəm. Mən Allahdan onun üçün xeyir dua diləmək istəmirəm. Mən istəyirəm ki, Allah onun ürəyini ildırımla vurub və onu qəddarlığında ifşa etsin, — mən belə düşünürdüm. Mən təkrar edirdim: «Ya Rəbb, mən ərimi bağışlaya bilmədiyimi etiraf edirəm. Mənə mərhəmətli olmağı öyrət».

Tədricən mən hər ikimizdə dəyişikliklərin baş verdiyini hiss etməyə başladım. Maykl qəzəbdən alovlananda, mən adəti üzrə əsəbləşmək əvəzinə, ona görə dua edirdim. Mən Allahdan diləyirdim ki, onun qəzəbinin səbəbini mənə göstərsin. Və O, göstərdi. Mən vəziyyəti dəyişmək üçün nə edə biləcəyimi soruşdum. Və O, məni öyrətdi. Qəzəb partlayışları getdikcə azaldı və onların vaxt müddəti də qısaldı. Hər gün duaların sayəsində nə isə müsbət bir şey yaranırdı. Biz bu gün də hələ kamillikdən uzaqdayıq, amma biz uzun yol keçmişik. O çətin idi, lakin mən əminəm ki, Allahın yolu ilə getmək üçün güc tətbiq etməyinə dəyər, çünki bu, ər-arvad ittifaqını xilas edən vahid yoldur.

Arvadın ərinə görə olan duasının gücü, ananın öz oğluna görə olan duasının gücündən müqayisə edilməz dərəcədə çoxdur (ana, məni bağışlayın). Aydındır ki, öz oğluna görə diləyən ananın duasından alovlu dua yoxdur, ancaq kişi evləndikdən sonra, öz ata-anasını qoyub öz arvadı ilə bir bədən olur (Mt. 19:5). İndi onlar ruhani birliklə birləşmiş bir komandadırlar. Allahın gözündə, ər-arvad ittifaqının gücü, onların nigahsız, birlikdə olan güclərini qat-qat üstələyir. Bunun səbəbi ondadır ki, ər-arvadı, onların dualarına güc Verən Müqəddəs Ruh birləşdirir.

Ona görə də dua etməmək olmaz: çünki ortaya çox şey qoyulub. Siz özünüzə, bədəninizin ancaq sağ tərəfinə görə dua etməyi təsəvvür edə bilərsinizmi? Əgər bir tərəf kömək və müdafiədən məhrum olub və dağılırsa, onda bədənin o biri tərəfini də həmin aqibət gözləyir. Həmin halı sənin və sənin ərin haqqında demək olar. Əgər

sən özünə görə dua edib, ona görə dua etmirsənsə, onda sən heç vaxt arzu edilən bərəkəti almayıb və həyatın tamlığını duymayacaqsan. Onunla nə baş verirsə, bu səninlə də baş verir və bundan yan qaçmaq mümkün deyil.

Bizim ər və arvad kimi ruhani birliyimiz bizə, bizim nigahımızı dağıtmaq üçün yeni üsullar kəşf edən düşmənimizin xoşuna gəlməyən gücü verir. O, bizi müxtəlif üsullarla sınamağa cəhd göstərir, bu istər özünü aşağı qiymətləndirmə olsun, qürur, həmişə birinci olmaq səyi, istəmədiyin tanışlıqlar və ya istərsə də öz zəifliklərinə yol vermək olsun. O, sənə yalan danışaraq deyəcək: «Heç nə dəyişilməyəcək», «Səndə onsuz da heç nə alınmayacaq», «Barışığa heç bir ümid yoxdur», «Sən başqası ilə xoşbəxt ola bilərdin». O, səni özünə inandırmaq üçün çox təkidli olacaq, çünki o bilir: sən ona etibar edən kimi — sənin nigahının məhvi labüddür. Əgər sən bu yalanın çox hissəsinə inansan, sənin ürəyin Allahın həqiqətinə qarşı qəddarlaşacaq.

Dağılan nigah ittifaqlarının istənilən hər hansı birində, ən azı bir tərəf, Allaha qarşı əksdir. Ürəyini qəddarlaşdıraraq sən vəziyyəti Allahın gözü ilə görmək imkanını itirirsən. Nigahda bədbəxt olarkən, vəziyyətdən çıxış axtararkən hər hansı bir saman çöpündən yapışırıq, lakin bütün mənzərəni görə bilmirik. Biz ancaq üzdə olanı qəbul edirik, amma Allahın iradəsi bizdən gizli qalır. Lakin, hər halda biz dua edəndə, ürəklərimiz Allaha müraciət edərək yumşalır, gözlərimiz isə açılır. Biz ümid əldə edirik, çünki bizim nigahımızda sınmış və dağılmışı, Rəbbin bərpa edə biləcəyinə inanmağa başlayırıq: «…Kəsici çəyirtkənin, qaynaşan çəyirtkənin, tullanan çəyirtkənin və dağıdıcı çəyirtkənin yeyib-qurtardığı illərin əvəzini verəcəyəm» (Yoel 2:25). Biz Ona etibar edib, bizi ağrıdan və tam ümidsizlik hisslərindən azad etməsini, ürəklərimizin qəddarlıqdan şəfalanmasını və bizə başqasını bağışlamağı öyrətməsini, Ondan xahiş edə bilərik. Biz Allahın, küldən məhəbbət yaratmağa bacarığı olan gücünə etibar edə bilərik.

Yadınızdadır, Məcdəlli Məryəm İsanın çarmıxa çəkilməsindən üç gün sonra qəbrin yanına gəlib, Onun Allahın gücü ilə dirilməsini görəndə, onun ürəyi necə sevinclə doldu? Ölünün dirilməsini görəndə, qəlbin sevinclə dolmasından güclü nə ola bilər? İsanı diriltmiş güc, bu gün sizin nigah ittifaqınızı dirildib və onu yeni həyat ilə doldurmağa qadirdir. «Allah Öz qüdrəti ilə Rəbbi diriltdi, bizi də diriIdəcək» (1 Kor. 6:14). Bunu etməyə qadir olan başqa qüdrət yoxdur. Lakin belə şey, ancaq ürəyinin Allaha tam səyli olduğu zaman, ancaq məhəbbətinin dirilməsini gözləyərkən, sən ağır yolu şərtsiz keçməyə hazır olarkən mümkündür. Çünki sevincə yol ağrıdan keçir.

Sən öz nigahının taleyini özün həll edib və onun dirilməsi üçün həqiqətən də lazım olan hər şeyi etməyə hazır olduğunu deməlisən. Sən inanmalısan: sənin nigahında ağrı, etinasızlıq və eqoizm (özünüsevərlik) ilə dağılmış məhz o şeylər, bərpa oluna bilər. Sən inanmalısan: sənin həyatında səni udmuş olan istənilən faciə — zorakılıq, övladın ölümü, ər-arvad vəfasızlığı, kasıbçılıq, yaxın adamın itkisi, ağır xəstəlik və ya bədbəxt hadisə — öz ölümcül neştərindən məhrum ola bilər. Sən inanmalısan:səni ərinlə nə ayırsa belə — həddindən artıq işgüzarlıq, sərxoşluq, narkotikdən asılılıq və ya depressiya — bütün bunlara qalib gəlmək olar. Sən bilməlisən: sənin ərinlə olan qarşılıqlı münasibətinə, hər hansı bədbəxtçilik, necə sakit və xaincəsinə sürünüb girsə də, siz nəyə istər mübtəla olsanız da — vəzifə, öz arzularınız, uşaqlar və ya eqoistik arzularınızın qayğısı, — bütün bunların öhdəsindən gəlmək olar. Sən inanmalısan: Allah kifayət qədər qüdrətlidir ki, bunları və hətta bunlardan artığını edə bilsin.

Əgər sən bir səhər oyanıb və yanında uzanan ərinin sənə yad adam olduğunu anlasan; əgər sən sizin aranızda olan bütün ruhani telləri qıran, susan nifrəti hiss edirsənsə; əgər sən məhəbbət və ümidin, damla-damla, dayanmadan getdiyini görürsənsə; əgər sizin qarşılıqlı münasibətləriniz ağrı və qəzəblə dolub və gələn yeni gün

ancaq ümidsizlik əlavə edir; əgər deyilən hər bir söz sizin aranıza, sizi ayıran, aradan qaldırıla bilməyən maneəyə çevrilən, dərin çüy vurursa, — əgər bütün bu şeylər sizin həyatınızda baş verirsə, onda əmin ola bilərsən: buna Allahın iradəsi yoxdur. Rəbb, sənin ərinlə aranızda olan bütün maneələri dağıdıb və sizin nigahınızı yenidən doğrultmaq arzusundadır. O, yaraları şəfalandırıb və sənin ürəyinə məhəbbət qoya bilər. Ondan başqa, heç nə və heç kəs, bunu etməyə qadir deyil.

Ancaq sən qətiyyətlə deməlisən: «Ya Rəbb, mən bu konfliktin sonunun gəlməsi üçün dua edirəm ki, mənimlə ərimin arasında olan düşmənçilik divarı dağılsın. Sən bizi, qorunmaq istədiyimiz ağrı və nifrətdən azad et. Bizə bağışlamağı öyrət. Bizim dillərimizlə danış ki, sözlərimizdə Sənin məhəbbətin, Sənin sülhün olsun. Bu divarı dağıt və bizə Sənin yolunla getməyi öyrət. Bizi olduğumuz biliksizlikdən çıxart; bizə öz həqiqətini aç ki, biz Sənin istədiyin kimi, yeni həyat üçün şəfalanıb və yenidən doğulaq».

Öz nigahını ümidsiz elan etməyə tələsib Allahdan başqa ər istəmə. O, sənin indiki ərindən Məsihdə yeni bəşər etməyə güclüdür. Ərlər və arvadlar, düşmənçilik etmək, bir-birinə yad olmaq, ayrı və ya ölü nigahda yaşamaq, alçalmalara dözmək və boşanmaq üçün yaradılmayıblar. Allahın gücü bizim tərəfimizdədir. Biz öz nigahımızı başlı-başına buraxa bilmərik. Bizim ümidimiz olduğuna görə, biz mübarizə aparmalıyıq. Əgər Allah səninlə yanaşıdırsa, sənin həyatında, küldən yenidən doğula bilmyəcək heç bir şey ola bilməz. Hətta sənin şəxsi hisslərin də.

## Bəs mən necə? Mənim də duaya ehtiyacım var?

Əlbəttə, duaya başlayanda fikirləşirsən, görəsən ərim də mənə görə, mən onun üçün dua etdiyim kimi dua edirmi? Bu sənə necə heyranedici təsəvvür edilsə də, aldanma. Ərinə görə edilən dua, sənin tərəfindən edilən, qurbanverən və mənfəət güdməyən məhəbbət

hərəkətidir. Sən gərək bu qurbanı gətirməyə hazır olub və ona görə, ola bilsin və hətta yəqin ki, o, sənə görə, sən ona görə dua etdiyin kimi, dua etmədiyini dərk edərək tam fədakarlıqla dua etməlisən. Çox güman ki, o, sənə görə heç dua etməyəcək. Sən ondan xahiş edə bilərsən və bu haqda dua edə bilərsən, amma sən ərindən bu şeyi tələb edə bilməzsən. Hər halda bu, sənin yox, Allahın qayğısıdır. Belə ki, onu bu vəzifədən azad et. Əgər o, sənə görə dua etmirsə, bu sənin yox, onun itkisidir. Sənin uğurlu olmağın onun dualarından asılı deyil — uğur, sənin Rəbblə münasibətindən asılıdır. Həqiqətən, arvadların da duaya ehtiyacları var. Ancaq mən əminəm ki, biz ərlərimizin köməyinə güvənməməliyik. Doğrudan da, ərinin duada sənin əməkdaşın olacağına ümid etmək, özünü boş ümidlə sakitləşdirmək kimi olardı.

Mən anladım ki, bizim nigahımızın xilasının effektli vasitəsi, mənim hər həftə birlikdə dua etdiyim, başqa qadınların dua dəstəkləmələri idi. Mən əminəm ki, bu, hər bir nigah üçün xoş və xeyirlidir. Əgər sən öz ürəyinin sirlərini açıb və hədsiz etibar edə biləcək bir neçə dərin imanlı qadın tapsan, hər həftə dua etmək üçün vaxt təyin et. Bu sənin həyatını dəyişdirər. Bu, o demək deyildir ki, sən öz ərinin şəxsi həyatını təfsilatı ilə hamıya danışmalısan — yox sənin tapşırığın ondan ibarətdir ki, Allahdan sənin ürəyini düzəltməsini, səni yaxşı həyat yoldaşı olmağı öyrətməsini xahiş edəsən, kiminləsə qəlbinin ağır yükünü bölüşrəsən və ərin üçün Allahdan xeyir-dua diləyəsən.

Təbii ki, əgər sənin problemin çox ciddidirsə və səninlə dua edən öz rəfiqələrinə bütün ürəyinlə etibar edə bilərsənsə, düşünmədən onlarla bölüş. Mən bir çox nigahların boşanma ilə bitdiklərinin səbəbini, onlara görə dua edə biləcək adamlara öz problemlərini danışmağa, insanlara qürurun və ya qorxunun mane olduğunu görmüşəm. Onlar zahiri gözəl mənzərə canlandırırlar və bir dəfə hər şey faciəyə çevrilir. Burada, sənin rəfiqələrinə etibar etdiyin problemin konfidensial xüsusiyyətini yadda saxlamaq vacibdir, lakin öz

qətiyyətsizliyin və şübhələrin səbəbindən öz nigahını hesaba almamaq, qəti surətdə olmaz. Əgər sənin dua əməkdaşın sirr saxlaya bilmirsə, daha çox müdrikliyə, həssaslığa və ruhani yetkinliyə malik olan, başqa birisini tap.

Hətta, kənardan başqa insanların və ya ərinin köməyi olmasa da, sənin səmimi duan xeyirli bəhrələr gətirəcək. Sən öz dualarına cavab almazdan qabaq, Allahın xeyir-duaları sənin həyatına axacaq, çünki sən dua edirsən, sən Allahın hüzurunda olursan, bunlardan isə gələcək dəyişikliklər öz başlanğıcını götürür.

## Duanı başlamağa tələsmə

Öz ərinə görə vəsadət dualarının müxtəlif yollarının axtarışına atılma. Bunu bir günə, bir həftəyə və ya bir aya etmək mümkün deyil. Bu kitabda verilən tövsiyələrə qulaq asandan sonra Müqəddəs Ruh səni necə vadar etsə o cür dua et. Xüsusi mürəkkəb hallarda, özünə qətiyyətli yol yarıb açmaq lazım olduqda, sənin dualarını daha qətedici etmək üçün, oruc tutmaq da köməyə gələ bilər. Müqəddəs Kəlama əsaslanan dualar böyük gücə malikdirlər. Hər fəslin sonunda, sən Müqəddəs Kəlamdan vacib olan sitatları tapacaqsan.

Ən başlıcası — səbirli olmaqdır. Dualara cavab almaq vaxt tələb edəcək və nə qədər çox tələb edilsə, sənin nigahına dəyilən ziyan da, bir o qədər güclüdür. Allahdan şəfanı gözləməkdə inadlı və səbirli ol. Yadda saxla ki, siz ərinizlə ikiniz də qeyri-kamil adamlarsınız, kamil olan təkcə Rəbbdir. Allaha, sənin nigahının bütün ehtiyaclarını ödəyən mənbə kimi bax və sizin şəfanızın necə baş verəcəyi barədə baş sındırma. Sənin vəzifən — dua etmək; dualarasa Rəbb cavab verəcək. Hər şeyi Onun əllərinə ver.

# 1 FƏSİL

# SƏN ƏRƏ GETDİN

Ərinə görə dua edən arvad üçün, müntəzəm dua etməyə vaxt ayırmaqdan vacib, təmiz ürəyi olmaqdır. Dualarının xeyirli bəhrə gətirməyini istəyirsənsə, sənin ürəyin Allahın qarşısında təmiz olmalıdır. Bu səbəbdən, ərə görə olan dua, arvada görə olan duadan başlamalıdır. Əgər səni əsəb, qəzəb, günah, düşüncələr üstələyirsə, sən öz ərini bağışlaya bilmirsənsə — hətta bütün bunlara səbəb olsa da — sənə öz dualarına cavab gözləmək çətin olacaq. Ancaq əgər sən açıq ürəklə Allahın qarşısında bütün öz qüsurlarını iqrar edib və dua etməkdə davam edirsənsə, sən öz nigahında kökündən dəyişilmələr görəcəksən. Bəzən arvadlar öz dualarının fəaliyyətini özləri zəiflədirlər, çünki təmiz ürəklə dua etmirlər. Bunu başa düşmək üçün mənə vaxt tələb olundu.

## Üç sözdən ibarət mənim sevimli duam

Mən çox təəssüflənirəm ki, bizim ailə həyatımızın ilk günlərindən mən ərimə görə daima dua etməmişəm. Hər halda bunu, bu kitabda tövsiyə etdiyim kimi etməmişəm. Bəli, mən dua edirdim.

Mənim dualarım qısa idi: «Ya Rəbb onu qoru». Onlar tam qəti idilər: «Bizim nigahı xilas et», ancaq, çox vaxt onlar, mənim ən çox sevdiyim üç sözdən ibarət olurdu: «Rəbb, onu dəyişdir».

Biz yenicə evləndiyimiz vaxtda, mən keçmiş günahlı həyatın dolaşıqlarından çıxmış və Allahın azad edən və yenidən yaradan gücü haqında heç bir şey bilməyən, yeni imana gəlmiş idim. Mən kamil insan səviyyəsinə yaxın bir adama ərə getdiyimi düşünürdüm, amma onun hansısa çatışmamazlıqları isə, mənim gözümdə onun məftunediciliyi ilə kompensasiya edilirdi. Vaxt keçdikcə mənim məftunedici gördüyüm məni əsəbiləşdirməyə başladı, kamillik mənzərəsi isə adi xam xəyala çevrildi. Mən qərara gəlmişdim ki, Maykldа məni əsəbləşdirən xasiyyətlərin yoxa çıxması kifayət edər və onda hər şey o saat dəyişəcək.

Mənə bir neçə il vaxt lazım oldu ki, başa düşüm: ərim təsəvvür etdiyim ideal kişi səviyyəsinə çatmağa heç hazırlaşmır da. Yenə bir neçə il vaxt lazım oldu ki, anlayım: mən, heç onu dəyişdirmək bacarığında deyiləm. Mən, ancaq Allaha öz haraylarımla müraciət etməyə başlayanda, nə isə başa düşməyə başladım. Lakin, hər şey təsəvvür etdiyim kimi baş vermirdi. Aşkar oldu ki, Allahın hüzurunu əvvəldən mən hiss etdim və dəyişilməyə də mən birinci başladım. Allah mənim ərimi dəyişməzdən qabaq, gərək mənim ürəyim yumşalıb, mütiləşib və dəyişilməli idi. Mən, baş verən dəyişiklikləri, onları Rəbbin gördüyü kimi görməyi öyrənməli idim.

Tədricən anladım ki, əgər mən öz qəlbimi dürüst araşdırmasam, onda öz ərimə görə tam ürəkdən dua edə bilmərəm. Mənim ürəyimdə sülh və məhəbbət olmadığı bir halda, Allahın yanına gəlib Ondan öz dualarıma cavab gözləyə bilməzdim. Qəlbimin dərinliyində Allahın məndən Ona məqbul olan, üç sözdən ibarət başqa: «Dəyiş məni, Rəbb» duasını gözlədiyi bir halda, mən öz sevimli duamla dua edə bilməzdim.

## Kimə dəyişilmək lazımdır? ...Mənə?!

Mən istəyirəm ki, sən başa düşəsən: xüsusən ərinin dəyişilməsinə ümidlə, sən ona görə dua edəndə, əlbəttə ki, onda müəyyən dəyişikliklər gözləyirsən, amma gözləmə ki, o birinci dəyişilməyə başlayacaq. Burada birinci sən olmalı olacaqsan. Əgər bu sözləri eşidəndə, sənin daxilində məndə olduğu kimi, qəzəb qaynamağa başlayırsa, sən belə bir ifadə deməyə başlayacaqsan: «Bir dəqiqə! Axı mən dəyişilmək ehtiyacında deyiləm!». Ancaq Allah bizim görmədiyimizi görür. O, bilir ki, nəyin kamilləşməsinə bizim ehtiyacımız var. Ona çox vaxt tələb olunmur ki, bizdə, Onun xeyirxah iradəsinə əks olanı tapsın. O, istəyir ki, biz ürəyimizdə günah etməyi qurtaraq, çünki günah bizi Onunla ayırır və biz öz dualarımıza cavab almırıq. «Mən qəlbimdə təqsirə yer versəydim, Xudavənd məni eşitməzdi» (Zəbur 66:18). Allah, bizim dualarımıza Onun cavablarını düzgün başa düşməyimiz üçün, bizim qəlblərimizi təmiz, pisliklə bulaşdırılmamış görmək istəyir.

Bu tələbləri yerinə yetirmək asan deyil, xüsusən görəndə ki, sənin ərin sənə kobudluq etməklə, sənə hörmətsizliklə, öz sözlərinə laqeydliklə, sənə xəyanətlə və hətta sənə qarşı zorakılıqla günah işlədir. Ancaq Allah hesab edir ki, kin saxlamaq, qəzəb, nifrət, özünə yazığı gəlmə, qisasçılıq yanğısı, heç də o biri günahlardan kiçik deyil. Onları iqrar et və Ona məqbul olmayan bütün bu şeylərdən səni azad etməsini Allahdan xahiş et. Ərinə təqdim edə biləcəyin ən böyük ənamlardan biri — sənin daxili bütövlüyündür. Onun dəyişilməsinin ən təsir bağışlayan yolu, sənin öz dəyişməyin ola bilər.

Narahat olma — ən əvvəl mən də bunu çox pis qarşılayırdım. Hər dəfə, biz Rəbblə olan münasibətlərimizdə çıxılmaz vəziyyətə düşəndə, mənimlə Onun arasında təxminən belə bir söhbət alınırdı:

— Ya Rəbb, Sən mənim ərimin necə olduğunu görürsən?
— Bəs sən, özünün necə olduğunu görürsən?

— Ata, Sən demək istəyirsn ki, mən nədəsə dəyişməliyəm?

— Çox şeydə. Sən nədə dəyişilməli olduğunu dinləməyə hazırsanmı?

— Ola bilsin ki, bəli.

— Buna sən hazır olduğun vaxt, Mənə de.

— Ya Rəbb, bəs nə üçün mən? Axı, mənim ərim dəyişilmək ehtiyacındadır?

— Əsas o deyil ki, kimin dəyişilməyə ehtiyacı var. Əsas odur ki, kim dəyişilmək istəyir.

— Ancaq, Ata, bu ədalətli deyil!

— Həyatın ədalətli olduğunu Mən heç vaxt deməmişəm; Mən demişəm ki, Mən ədalətliyəm!

— Bəs mən...

— Kimsə birinci olmağı istəməlidir.

— Axı...

— Sənin üçün nigahını qoruyub saxlamaq nə dərəcədə vacibdir?

— Çox vacibdir. Mənim üçün başqa variantlar qəbuledilməzdir.

— Yaxşı. Onda gəl səndən başlayaq.

— Ya Rəbb, mənə bu ideya ilə razılaşmağa kömək elə.

— Buna sən qərar verməlisən!

— Əgər ərim mənə görə dua etmirsə, mən ona görə dua edimmi?

— Əlbəttə!

— Axı bu... Yaxşı, yaxşı, mənim yadımdadır: həyat ədalətsizdir. Sən ədalətlisən! (Göylərdən susmuş razılıq).

— Mən təslim oluram. Başla. Oh, bu necə də ağrıdıcı olacaq! Də... dəyiş... Yəni bunu mən söyləyirəm! (Dərin nəfəs alma.)

— Dəyiş məni Ya Rəbb!

Ağrıdır? Bəli! Sənin dəyişilməli olduğunu etiraf etmək, həmişə ağrıdıcıdır. Ələlxüsus, sən əmin olanda ki, başqası dəyişilməlidir. Lakin bu ağrı vasitəsilə sən yeni həyata gələcəksən. İstənilən alternativ az ağrıdıcı deyil, amma onun bəhrəsi isə mütləq ümid-

lərin, qarşılıqlı münasibətlərin, nigahın və ailənin məhvidir. Allah istənilən ölü nigahı diriltməyə qadirdir, ancaq bu, Onun qarşısında özünü mütiləşdirməyə və Onun qanunları — bağışlamaq, xeyirxahlıq və məhəbbət qanunları ilə yaşamağına dəyər. Bu, o deməkdir ki, öz keçmişin və əvvəlki həyatında olan ağrı ilə vidalaşmalısan; bu, o deməkdir ki, böyük döyüşdə qalib olmaq üçün mübahisədə məğlub olmağına razı olasan. Mən sənə öz ləyaqətini, öz hiss və düşüncələrini unudub, ağılsız ərinin hücumlarına susaraq dözməyini demirəm. Allah səndən bunu tələb etmir (əgər sən fiziki və ya qəlbi zorakılığa məruz qalırsansa, evdən, dayanmadan başqa təhlükəsiz yerə get və kömək üçün müraciət et). İndi isə, hələlik sənin ərin, vacib psixoloji məsləhət alana qədər, ona görə dua et. İtaətkarlıq, bu sənin ürəyindən gələn tam könüllü bir şeydir. İsa dedi: «...Mənim uğrumda canını itirən onu qoruyacaqdır» (Mt. 10:39). Öz həyatını qurban gətirmək — sən bunu öz ürəyinin arzusu ilə etməlisən, çünki bunu səndən tələb etmək mümkün deyil. Səninlə Rəbbin arasında münasibətlər necə olmalıdır? Ancaq belə: «Ata, qoy Sənin istədiyin kimi olsun. Mənə bunu öyrət». Bu belə bir məna verir ki, sən əvvəlki özündən imtina edib və «Ya Rəbb, məni dəyiş», deməyə hazırsan.

## Məhəbbətin müqəddəs dili

Biz başqa bir insana görə dua edəndə bizim ürəyimizdə nə isə təəccüblü bir şey baş verir. Sərtlik yoxa çıxır. Biz ağrının üzərinə qalxmağı və bağışlamağı öyrənirik; nəhayət kimə görə ki, dua edirik, biz o, adamı hətta sevməyə başlayırıq. Bu, əsil möcüzədir! Bu duada Allahın hüzurunu duyduğumuza görə və O, bizi məhəbbət Ruhu ilə doldurduğuna görə baş verir. Sən öz ərinə görə dua edəndə, sənin ürəyində ona qarşı Allahın məhəbbəti artıb çoxalır. Və təkcə bu yox — sən görəcəksən ki, sənə qarşı onun ürəyində necə məhəbbət artmağa başlayır, özüdə, o heç bilmir ki, sən ona görə dua

edirsən. Bu, ona görə baş verir ki, dua məhəbbətin dahi dilidir. O, bizim üçün əlçatmazdır. Ərlərinə qarşı ürəklərində bir zərrə qədər də məhəbbət olmayan və vaxt keçdikcə, dua prosesində, özlərində bu hissi açan qadınlar görmüşəm. Bəzən onlar, hətta birinci səmimi duadan sonra özlərində dəyişikliklər hiss edirdilər.

Allaha öz ərin haqqında demək, bu məhəbbət addımı atmaq mənasını kəsb edir. Dua, məhəbbət doğurur; məhəbbət də, öz növbəsində məhəbbəti gücləndirən növbəti duaya oyadır. Əgər, hətta sənin dualarının mövzusu tam mənfəət güdməyəndirsə, onlar onun müddətindən asılı olaraq belə olacaqlar. Sən görəcəksən ki, ərinlə ünsiyyətdə daha çox səbirli olursan; sən, küsüşməyə və çəkişməyə gətirən əvvəlki səbəblərin necə yoxa çıxdığını, konfliktlərdən yan keçərək, sülh yolu ilə mübahisəli məsələlərin necə həll edildiyini görəcəksən. Sən sizin ittifaqınızın yenidən doğulmasının aşkar əlamətlərini görəcəksən.

Bizim ruhani əlaqəmiz qırılanda, bizdə hər şey dağılmağa başlayır. İsa deyib: «…özü-özlüyündə bölünmüş hər səltənət viran qalar; və özü-özlüyündə bölünmüş heç bir şəhər, yaxud ev davam gətirməz» (Mt. 12:25). Dua, hətta əgər siz birlikdə dua etməsəniz də, birləşdirir. Mən duaların nəticəsində, mənim Maykl ilə münasibətlərimdə, güclü gərginliklərin necə yoxa çıxdığını görürdüm. Hətta ərinə verdiyin sadə bir sual: «Mən sənə görə necə dua edim?», düşmənçilik buzunu əridib və sizin münasibətlərinizə məhəbbət və inam gətirə bilər. Adətən Maykl bu sualı eşidərkən, başqa hallarda ondan bir söz belə eşitmək mümkün olmağına baxmayaraq, o, dayanıb və mənə ətraflı cavab verirdi. Hətta, imanlı olmayan ərlərin, öz arvadlarından bu sualı eşitdikləri vaxt cavab verməlləri mənə məlumdur.

Məsələ burasındadır ki, ər və arvad kimi, biz bir bədən olduğumuza görə, həyatda biz ayrı-ayrı yollar ilə gedə bilmərik. Biz bütün həyatımız boyu bir yerdə olmaq istəyirik; biz son günlərimizə qədər dərin məhəbbət istəyirik. Bunu bizə ancaq dua bəxş edə bilər, çünki təkcə o məhəbbətin müqəddəs dili ilə danışır.

## Mən ondan iyrənirəm — mən ona görə necə dua edə bilərəm?

Sən öz ərinin əlindən elə əsəbiləşmiş olmusanmı ki, ona görə dua etmək fikrinin özü səndə qəti etiraz doğursun? Mən olmuşam. Səni qəzəb və ya inciklik dolduranda, başqasına görə dua etmək çox çətin olur. Lakin, Rəbb bizdən məhz bunu gözləyir. Əgər O, bizə düşmənlərimizə görə dua etməyi həvalə edirsə, bəs onda biz Allahın Sözünə görə tam birlik təşkil edib və onu sevdiyimizi fərz etdiyimiz insana görə necə səylə dua etməliyik? Bəs tənqid etmək arzusundan necə azad olub və bağışlamağı öyrənmək olar?

Birinci nə etmək lazımdır? — Allahın qarşısında tam səmimi olmaq. Bizim ünsiyyətimizə mane olan bağışlamamaq arzusu kimi, səddi dağıtmaq üçün, biz gərək Rəbbə öz hisslərimizi son dərəcə səmimi açaq. Bizə, Onun naminə heç nəyi bəzəmək lazım deyil, çünki O, bütün həqiqəti bilir. O, sadəcə bizim Onun şərtlərini qəbul edib, etmədiyimizi və öz itaətsizliyimizi boynumuza alıb və Ona iqrar etməyə hazır olub, olmadığımızı görmək istəyir. Ancaq bu halda Rəbb bizə təsir göstərə bilər.

Əgər sən ərinə qəzəblənirsənsə, bu haqda Allaha de. Bu xəstəliyə, sonradan günbəgün böyüyən xərçəng xəstəliyinin şişinə çevrilməsinə imkan vermə. Belə demə: «Mən öz həyatımla yaşamaq istəyirəm, o isə qoy öz həyatı ilə yaşasın». Bir-birimizdən asılı olmamağımıza görə, biz ödəməli olacağıq. «Buna rəğmən, Rəbbin yolunda nə qadın kişidən müstəqildir, nə də kişi qadından» (1 Kor. 11:11).

Bunun əvəzidə de: «Ya Rəbb, mən bu adama görə heç dua etmək istəmirəm. Mən öz qəzəbimi, ağrı hisslərimi, kinimi, ərimə olan ümidin boşa çıxmasını, ürəyimin ondan çevrilib və ona qarşı qəddarlaşmasını etiraf edirəm. Məni bağışla və Sənin qarşında məndə təmiz ürək və düzgün ruh yarat. Ona yeni münasibət göstərməyi mənə öyrət. Ona tərəf dönə bilən, sevincli, sevən və bağışlayan

ürək ver mənə. Onun səhvlərini ona aç və onları etiraf edib və tövbə etməsində ona kömək et. Onu tövbə və azadolma cığırı ilə apar. Ərimə qarşı, səbəbi bağışlaya bilməmək olan, qəlbi və fiziki nifrətin öhdəsindən gəlməyə mənə kömək et. Bizə bir-birimizdən üzr istəməyi öyrət. Əgər mənim gözlərimdən nə isə vacib bir şey gizlənibsə, mənə bunu aç və başa düşməyə kömək et. Bizim ünsiyyətimizə mane olan, qarışıqlığı və qarşılıqlı münasibətlərimizdəki anlaşılmamazlığı kənar et. Əgər bizlərdən birimizin rəftarı dəyişilməlidirsə, ümidvaram ki, Sən bizə bunu necə etmək lazım olduğunu öyrədəcəksən. Bir tərəfdən mən, öz qəzəbimə görə gizlənirəm, çünki onu ədalətli sayıram, digər tərəfdən isə — Ata, Sənə məqbul olan kimi hərəkət etmək istəyirəm. Mən Sənin qarşında bütün hisslərimi açıram. Mənim ərimə olan məhəbbətimi dirilt. Mənə vəziyyəti düzəldə biləcək sözlər tapmağa kömək et».

Əgər sən özündə güc hiss edirsənsə, bu kiçik sınağı keçir və nəticəni gözlə. Ay ərzində ərinə görə hər gün dua et. Bu kitabın hər fəslinin sonunda yazılmış dualardan birini oxu. Hər gün bir fəsli seç. Allahdan ərinin üzərinə bərəkət yağdırmasını və hər ikinizi Onun məhəbbəti ilə doldurmasını dilə. Müşahidə et, sənin ürəyin ona qarşı yumşalırmı və ərinin münasibəti sənə qarşı dəyişilirmi? Bax, sizin münasibətləriniz daha təmkinli olaraq yoluna düşürmü? Əgər sənə belə dua etmək çətin olursa, vəziyyəti Rəbbin mövqeyindən anlamağa çalış; ərinə Allahın gözü ilə bax — öz ərin kimi yox, lakin, Rəbbin sevdiyi, Allahın oğlu kimi. Bu, sənin üçün dahi vəhy ola bilər. Əgər kimsə səndən öz oğluna görə dua etməyi xahiş etsəydi, sən etiraz etməzdin, elə deyil? Beləliklə, indi Allah bu haqda xahiş edir.

## «Sus və dua et»

Müqəddəs Kəlam deyir, — «Hər şeyin öz vaxtı var». Bu sözlər birbaşa nigahda olan münasibətə aiddir. Danışmaq vaxtı var və sus-

maq vaxtı var və arvadı bu iki anlayışı ayırd etməyi bacaran kişi, xoşbəxtdir. Kimin, hətta az da olsa ailə həyatı təcrübəsi var, bilir ki, elə şeylər var ki, o haqda yaxşısı budur susasan.

Ər və arvadın, bir-birini incitmək və bir-birinə böyük ağrı vurmağa imkanları çoxdur. Nə cür üzr istəsən də, deyilmiş sözləri geri qaytarmaq alınmayacaq. Onları ancaq bağışlamaq olar, bunu isə etmək həmişə asan olmur. Bizim sözlər Allahın iradəsinin yerinə yetməsinə mane ola bilər, ona görə də bəzən, yaxşısı budur ki, susub və dua edəsən.

Biz Maykl ilə evlənəndə, mən çox söhbətcil deyildim və əgər bizim aramızda nə isə baş tutmurdusa, mən susmağa üstünlük verirdim. Mən öz hisslərimi nümayiş etdirməyə tələsmirdim. Bizim birinci uşağımız doğulandan sonra, mənim səsim kifayət qədər möhkəm çıxmağa başladı. Lakin, mən öz rəy və iddialarımı möhkəm «səsləndirdikcə», bir o qədər ərimin tərəfindən müqavimət artır və biz tez-tez dalaşırdıq. Mənim sözlərim, nəinki arzu edilən dəyişikliyi gətirmirdi, hətta çox vaxt əks nəticə göstərirdi. Mənə, milyonlarla qadının, yüz illərlə öyrəndiyini anlamaq üçün, bir neçə il tələb olundu: Əri «mişarlamaq» (zəhləsini tökmək) olmaz. Bunun xeyri yoxdur! Tənqid fəaliyyət göstərmir. Bir qayda olaraq, adi söhbət də lazım olan nəticəni vermir. Mən, müəyyən etdim ki, bu vəziyyətdə yeganə, əvəzolunmaz, təsirli vasitə duadır. Uğurun zəmanəti ondan ibarətdir ki, duada sən, Allah ilə ünsiyyətdə olursan və Onun köməyini alırsan. Sən, Onun qarşısına öz səhv fikirlərinlə, pis əhval-ruhiyyən ilə, haqsız dəlillərinlə və ya axmaq düşüncələrinlə gəlirsən, ancaq sən dua etdikdə, Allah səndə, Onun düşündüyünə qarşı olan hər şeyi açır.

Mənim ərimi, onun etmək istəmədiyi şeyi məcbur etmək mümkün deyil. Əgər o, ürəyincə olmayan işi başa çatdırırsa, bunun cəzasını biz, onun yaxınları çəkirik. Əgər mən, çox istəyirəm ki, onu nə isə etməyə məcbur edim, mən ürəyimdə sülh hakim olana qədər dua edirəm və ancaq bundan sonra mən ərimə konkret xahişlə müraciət

edirəm. Bəzən Allah bu problemə mənim baxımımı dəyişir və yaxud onun həllinin başqa yollarını göstərir, onda mən susub və bir daha bu məsələyə qayıtmıram. Əgər mən, dözülməz dərəcədə nə isə demək istəyirəmsə, onda mən ağzımı açmağa tələsmirəm — mən duada Allaha, Onun rəhbərliyi üçün müraciət edirəm.

Lakin bunu öyrənmək üçün mənə çox vaxt tələb olundu. Hər şey, bir dəfə mənim növbəti ayəni oxumağımdan başladı: «Davakar, deyingən arvadla yaşamaqdansa, çöllükdə yaşamaq yaxşıdır» (Sül. Məs. 21:19). Nədənsə, bu mənə toxundu.

«Axı, Ya Rəbb, — mən Allaha müraciət etdim — bəs bu ayəni onda necə başa düşüm: «Aşkar irad gizli məhəbbətdən üstündür» (Sül. Məs. 27:5)? Məgər ərlər ədalətli olmayanda, arvadlar öz ərlərini ifşa etməməlidirlər?

Allah cavab verdi: «Hər şeyin öz vaxtı var, göylər altında hər işin öz vaxtı var: …susmağın öz vaxtı, danışmağın öz vaxtı (Vaiz 3:1,7). Bədbəxtçilik bundadır ki, sən hətta nə vaxt və nəyi etmək lazım olduğunu bilmirsən və bunu məhəbbətlə edə bilmirsən».

«Yaxşı, Ya Rəbb, — mən dedim. — Mənə göstər, nə vaxt danışım, nə vaxt isə susum və dua edim».

İmkan çox tezliklə təşkil edildi. Mən öz evimizdə qadınlardan ibarət dua qrupu təşkil etdim, dualarımızın nəticələri o qədər gözəl idi ki, mən ərimə məsləhət etdim ki, o da kişilərdən ibarət bir dua qrupu yaratsın. Lakin o, bu barədə heç eşitmək belə istəmirdi.

«Mənim belə şeylər üçün vaxtım yoxdur», — bu, onun məndən baş qaçırtdığı, növbəti kəlməsi idi.

Mən onunla bu haqda nə qədər çox danışırdımsa, o, bir o qədər çox əsəbiləşirdi. Ancaq, Allahdan «Sus və dua et» nəsihətini alandan sonra mən bu yol ilə getmək qərarına gəldim: bu barədə danışığa son qoyub dua etməyə başladım. Mən həmçinin, öz dua qrupumdan bu barədə mənimlə birlikdə dua etməyi xahiş etdim. İki ildən çox vaxt keçdi və bir dəfə Maykl mənə elan etdi ki, onun kişilərdən ibarət dua qrupu təşkil etmək fikri var. Bu qrup o vaxtdan

fəaliyyət göstərir, amma o, isə heç bilmir ki, mən bu haqda dua etmişəm. Qoy bu mənim istədiyim kimi tez baş verməsədə, lakin yenə də bu baş verdi. Demək lazımdır ki, əgər mən Allaha qulaq asmayıb və susmağı öyrənməsəydim, ümidlərim sülh ilə yerinə yetməzdi.

Müqəddəs Kəlamdan məlumdur ki, mələkə Ester, öz padşah-ərinə vacib xahişlə yaxınlaşmağa risk etməzdən qabaq, dua edib, oruc tutub və Allahın idarəçiliyini gözləmişdi. O, bilirdi ki, ortaya çox şey qoyulub. O, çığıraraq onun yataq otağına qaçıb gəlmədi ki: «Sənin dostların — xaindirlər, onlar bizi məhv etmək istəyirlər!». Yox, Allah onun ərinin ürəyini hazırlayana qədər, o dua edib məhəbbətlə ərinə xidmət edirdi. Əgər biz belə hallarda Allahdan imdad istəyiriksə, O, həmişə bizə lazım olan sözləri pıçıldayacaq. Burada əsas — zamandır.

Mən insanlar tanıyıram ki, başqa insanların ünvanına söylənmiş, öz kəskin, bəzən öldürücü sözlərinə bəraət qazandırıb, belə başa salırlar: «Mən sadəcə həqiqəti söylədim». Amma Müqəddəs Kəlam deyir: «Axmaq həddini aşıb özündən çıxar, hikmətli səbirli dayanar» (Sül. Məs. 29:11). Buna görə də, öz hiss və düşüncələrini, özünü saxlamadan açıb tökmək ağılsızlıqdır. Düzgün və səmimi olmaq, bu bütün həyati vəziyyətləri açıq şərh etmək deyil; bu halda yadda saxlamaq lazımdır ki, bu başqa adamları yaralaya bilər. Baxmayaraq ki, səmimilik xoşbəxt nigahın şərtlərindən biridir, ancaq ərin səhv hərəkətini tənqid etmək nəinki lazım deyil, hətta səmərəsizdir, çünki onun haqqında həqiqi düzgünlüyü açıqlamır. Bütün həqiqət Allahın idarəçiliyindədir, və Onun üçün sənin ərinin rəftarı, sənin üçün olduğu kimi, böyük problem yaratmır. Bizim tapşırığımız ondan ibarət deyil ki, ərlərimizi biz istədiyimiz kimi hərəkət etməyə məcbur edək, lakin onları Allaha yaxınlaşdırmaq və Onun onlara təsir göstərə bilməsinə imkan verməkdən ibarətdir.

Sən, nəyin yaxşı və nəyin pis olduğunu ayırd etməyi öyrənməlisən. Əgər sənin vəziyyətlərin bu dərəcələrdən birinə də uyğun gəlmirsə, çalış ki, öz fikirlərini özündə saxlayasan, ya da yaranmış

vəziyyətin bütün xırdalıqlarını sakit araşdırmaq üçün, bu problemə görə dua et. Müqəddəs Kəlam öyrədir: «Dilin tələsməsin, Allahın hüzurunda söz deməyə ürəyin tələsməsin. Çünki Allah göydədir, sən yerdə, buna görə də az danış» (Vaiz 5:2). Dinləmək vaxtı var, amma məsləhət vermək yox; dəstəkləmək, ancaq konstruktiv tənqid ilə çıxış etmək yox.

Mən sənə, ərinin istəklərinə qarşı bir kəlmə deməyə cəsarəti olmayan səssiz varlığa çevrilməyi qətiyyən təklif etmirəm. Bu belə deyil. Hər bir halda, sənin öz münasibətin haqqında birbaşa deməyə, öz fikir və hisslərini aşkarlamağa ixtiyarın var. Ancaq bir dəfə deyəndən sonra, ərini rahat buraxıb, vəziyyəti çəkişməyə gətirib çıxarmamaq üçün ona təzyiq etməməyə müdrik ol!

Əgər sən ərinə, ona xoş olmayan sözlər demək lazım olduğunu vacib sayırsansa, Allahdan kömək istə. Ərinin qulaqlarının eşitməyə açıq olduğu vaxtı düzgün seçməyi, Rəbbdən xahiş et. Söz axını səndən axan vaxt, özünü saxlamağın necə çətin olduğunu mən bilirəm; ancaq necə çətin olsa da, yaxşısı budur ki, əvvəlcə sənin sözlərini eşitməyə Allaha icazə verəsən ki, O, sənin ürəyini Öz Ruhu ilə doldursun. Bu heç də asan deyil, ələlxüsus əgər sənə ərinlə ünsiyyətdə olmaq çətindir və onun hər bir sözü səni ağrıdır. Bizim ər-arvad həyatımızın əvvəlində, ərimin xoşuna gəlməyən mövzuda söhbətə başlamazdan qabaq, dua edə bilmədiyimə görə təəssüflənirəm. Mənim sözlərim çox vaxt Maykl tərəfindən düşmənçilik münasibəti göstərən ara qarışdırmaya səbəb olurdu, bu sonradan peşmançılığını çəkdiyimiz, bir-birimizin üzünə çırpdığımız, qəzəbli söz axını ilə müşayiət olunurdu. Məni həmişə xeyirxah məqsədlər və onun maraqlarının qayğısına qalmağın idarə etməsinə baxmayaraq, mənim bütün təkliflərimi o, öz «mən» liyinə qəsd kimi, nəyi isə etmək məcburiyyəti kimi qəbul edirdi. Amma bunu dərk etmək ona Allahdan gəlməli idi.

Biz Allahdan güc alanda, bizə öz sözlərimizlə nə isə sübut etmək lazım gəlmir, «Çünki Allahın Səltənəti sözdə deyil, gücdə-

dir» (1 Kor. 4:20). İşi sözlər icra etmir, ancaq onları müşayət edən Allahın gücü bunu edir. Öz sözlərini ifadə etməzdən qabaq dua etsən, sözlərindəki gücə özün təəccüblənərsən. Əgər susmağı öyrənib Allaha fəaliyyət göstərməyə icazə versən, həyatında real dəyişiklikləri görüb daha çox təəccüblənərsən.

## İmanlı və ya imansız

Əgər sənin ərin imansızdırsa, birinci cəhdlər nəticəsiz olduqdan sonra, təkrarən ona Rəbb haqqında danışmaq səylərinin nə ilə nəticələnəcəyini sən bilə bilməzsən. Əlbəttə bu haqda danışmaq lazımdır, lakin əgər, o kardırsa, sənin sözlərinə laqeyddirsə, ya da bu sözlər onu əsəbiləşdirirsə, öz cəhdlərini kənara qoyub və dua etməyə başlamaq lazımdır. Müqəddəs Kəlam öyrədir ki, arvad öz ərindən sözsüz də hər şeyə nail ola bilər, çünki ərin öz arvadında gördüyü, ona arvadından eşitdiyindən möhkəm söyləyir. Müqəddəs Kəlamda «...arvadların rəftarı ilə heç bir söz söylənilmədən fəth edilən» (1 Pet. 3:2) kişilərdən danışılır.

Allah təsdiqləyir ki, O hələ olmayan şeyə, bu şey necə olsa idi, o cür baxır. Sən bəyan edərək, Onun nümunəsinin ardınca gedə bilərsən: «Mən riyakarlıq etmək istəmirəm, lakin mən ərimin həyatında olmayan şey haqqında, əgər bu şey olsa idi, o cür söyləyəcəyəm. Hətta o, imanlı olmasa da, mən ona görə imanlı olduğu kimi dua edəcəyəm». Əlbəttə, ona öz iradəsinə əks nə isə etmək sənin hakimiyyətində deyil, amma Allahın səsinin sənin ərinin qəlbinə nüfuz etməsinə görə dua etməklə, Allahın gücünə yol açmaq sənin hakimiyyətindədir. Əhəmiyyəti yoxdur, sən ərinin imana gəlməsi üçün nə qədər dua edəcəksən — qoy buna sənin bütün həyatın getsin, — əsas odur ki, bu vaxt boş yerə itirilməyəcək. Sənin ərinin Allaha inanıb inanmamağından asılı olmayaraq, sən bu kitabdakı dualarla həmişə ona görə dua edib və yuxarıdan heyran edici cavablar gözləyə bilərsən.

## Öz evini quraraq

Sən özünü necə sərbəst hiss etsən də, bil ki, sən ərə gedəndən sonra, sənin üzərində həmişə iki vəzifə olacaq: ev və uşaqlar. Hətta əgər sən işləyib, ərin isə ev təsərrüfatı və uşaqlar ilə məşğul olsa da, ancaq sənə etibar edilib ki, öz evini, sənin ailən üçün məhəbbət və həyatın yeniləşməsi üçün mənbə olmağına görə, sülh, rahatlıq və razılıq iqamətgahına çevirəsən. Amma, bundan başqa sən hələ seksual, cəlbedici qalmalı, yaxşı xörək bişirməli, gözəl ana olmalı, fiziki, qəlbi və ruhani sağlamlığın nümunəsi olmalısan. Bir çox qadınlar üçün bu yük çox ağır olur. Ancaq medalın o biri tərəfi də var — sənə bu yükü tək daşımaq lazım deyil, çünki sən Allahdan kömək istəyə bilərsən.

Rəbbdən dilə ki, ailən üçün, canlı ünsiyyətin axdığı göylərin iqamətgahına bənzəməsi üçün, sənə öz evini lazım olduğu kimi qurmağı öyrətsin. Allahdan sənə hər şeydə kömək eləməyi dilə: evdə səliqə-səhman olsun, paltarlar yuyulmuş olsun, mətbəx qaydasında, anbar və soyuducu dolu, çarpayılar yığışdırılmış olsun. Bütün bu şeylər o qədər öyrəncəli və adət şəklini alıb ki, ərin sənin gündəlik işini hiss etmir və sən ondan hər gün (və ya ümumiyyətlə nə zamansa) tərif eşitmirsən, ancaq bu vərdişi rahatlıqlardan biri siyahıda olmadığını o, o saat nəzərindən qaçırmır. Mənim ərim ola bilsin ki, şkafdan lampa, ya da batareya götürmək üçün aylarla onun içinə açıb baxmasın, lakin o, bunu etdikdə isə lampa və batereya orada olmalıdırlar. Axşam evə işdən gec gələndə, evdə çörəyin olacağına ümid etməyə onun haqqı var və mən də məndən asılı olan hər şeyi edirəm ki, bu belə olsun. Mən Rəbbdən diləyirəm ki, ərimin evə məmnuniyyətlə qayıtması və öz dostlarını dəvət edə bilməsi üçün, evimi lazım olduğu kimi qurmağı öyrətsin. Bunun üçün heç də bahalı avadanlıq və ya interyer yaratmaq üçün dizayner dəvət etmək lazım deyil. Mənim birinci evim çox balaca və mənim hərracdan aldığım işlənmiş mebel ilə düzəldilmişdi. Mən, öz evimi cəlbedici etmək üç-

ün, onun divarlarını rəfiqəm ilə rəngləmişdim. Bunun üçün azacıq fantaziya və səy lazımdır.

Sənin yaşadığın yerin bütün ailənə əsil ev olması üçün, ərinə ailənin başçısı olmağa icazə verib, özün isə onun ürəyi qalmalısan. Həm baş və həm ürək olmaq çox çətindir. Allah əri, onun buna layiq olub-olmadığından, bu rola onun yaraşıb yaraşmamasından asılı olmayaraq onu ailənin başçısı təyin edib. Allahın təyinatı belədir. Ancaq bu o demək deyil ki, həyat yoldaşlarından birinin statusunu, digərinkindən yuxarı tutmaq lazımdır. Onlar eyni əhəmiyyətə malikdirlər. Əgər sənin ərinin başçı olmağa ixtiyarı varsa, onda ona icazə ver olsun; əgər sən, ailənin ürəyi olmağa çağırılmısansa, hətta əgər sən ailəni tək təmin etsən də belə, bütün gücünlə səy göstər ki, o ürək olasan. Qoy, sizin aranızda birincilik uğrunda gedən mübarizə yox olsun.

Məsələ onda deyil ki, sizlərdən kim işləyir, kim isə ev ilə məşğul olur, məsələ ondadır ki, sizin anlayışınızda bu iki rolun arasında necə münasibət var: evin başçısı və onun ürəyi. Vaxt var idi ki, mənim ərim həftələrlə təsərrüfat işləri və uşaqlarla məşğul olmalı idi, çünki mən təyin olunmuş vaxta başa çatdırmalı olduğum kitab ilə məşğul idim. Bununla belə, mən heç vaxt özümə icazə vermirdim ki, onun ailə başçılığına əl uzadım və onun ailə başçısı kimi necəsə hüquqlarını məhdudlaşdırım. Hərdən mən işləyirdim ki, o dincələ bilsin. Bu bir çox ər-arvad üçün delikat sualdır və belə hallarda yaxşısı budur ki, ər və arvad — ailənin başı və onun ürəyi arasındakı münasibətdə, harmoniyanın qorunub saxlanması barədə dua etsin.

Evdə nizam-intizamı qoruyub saxlamaq, bu o demək deyildir ki, hər şey kamillik dərəcəsindədir və problem yoxdur — sadəcə bu o deməkdir ki, evdə vəziyyət sizin nəzarətiniz altındadır. Əgər siz ikiniz də ailəni təmin etmək üçün çox işləyirsinizsə, onda ev işləri də sizin ikinizin arsında bərabər bölünməlidir. Əgər ər bu işlərdə iştirak etmək istəmirsə, yaxşısı budur ki, müəyyən məbləğdə vəsait sərf

edib, ev xadiməsi tutsun, nəinki sonradan böyük xərclərə düşsün: boşanma prosesi, xiropraktikin, psixoanalitikin və ya müalicə edən həkimin hətta dəfn bürosunun xidməti. Bu məsələdə Allahdan, Onun idarəçiliyini dilə.

Bütün yuxarıda deyilənlər, sənin bədəninə də, qəlbinə də, ruhuna da aiddir, çünki onlar sənin xüsusi diqqətini və qayğını tələb edirlər. Bir dəfə mən radioda, «tok-şou» verilişində eşitdim ki, bir qadın tanınmış bir psixoloqa şikayət edirdi ki, əri, daha onu cazibədar görmür. Verlişi aparan ondan soruşdu: «Bəs siz cazibədar olmaq üçün nə edirsiniz?» Zəng edən cavab verməyə söz tapmadı. Məsələ burasındadır ki, cazibədarlıq öz-özündən yaranmır. Hətta ən qəşəng qadınlar belə öz cazibədarlıqlarını qoruyub saxlamaq üçün böyük səy göstərirdilər. Şahzadə Ester öz ölkəsinin gözəl qadınlarından biri idi, amma, hətta o da, padşahın qarşısına gəlməzdən qabaq, bir il hazırlaşdı.

Bizlərdən də hər biri özündən soruşmalıdır: «Ərim üçün cazibədar qalmaq üçün mən nə edirəm?» Mən səliqəliyəmmi? Mənim ətirim yaxşısındandırmı? Fiziki hərəkətlərlə müntəzəm məşğul olaraq, öz bədənimin tonusunu və gənc qalması üçün qayğı çəkirəmmi? Formamı və iş qabiliyyətimi qoruyub saxlamaq üçün pəhriz tuturammı? Müasir geyinirəmmi? Və ən başlıcası: hər gün Allah ilə təklikdə vaxt keçirirəmmi? Mən zəmanət verirəm: sən nə qədər Rəbb ilə çox vaxt keçirsən, bir o qədər sənin bütün siman parlaq olacaq. «Qadının məlahəti aldadıcı, gözəlliyi fanidir, yalnız Rəbdən qorxan qadın tərifə layiqdir» (Sül. Məs. 31:30).

Sən özünə, öz sağlamlığına və öz gələcəyinə etinasızlıq göstərməməlisən. Bu şeydə zərrə qədər də olsa özünü sevərlik yoxdur. Buna diqqət ayırmamaq elə eqoistikdir. Allaha dua et və dilə ki, sənə nəyi və necə etməyi göstərsin. Dilə ki, Müqəddəs Ruh səndə və sənin evində yaşasın.

## Təxəyyüllərdən əl çəkək

Bir dəfə, bizim toyumuzdan bir az keçmiş, ərim işdən zəng edib şam yeməyinə onun sevimli cücəsini hazırlamağı xahiş etdi.

Mən dükana gedib, lazım olan hər şeyi alıb, onun istədiyini hazırladım. Lakin, o, evə girəndə, kandardan ərz etdi: «Nə isə bu gün xətrim cücə istəmir, mən əzilmiş dana ətini yeyərdim». Siz o anda mənim hisslərimi təsəvvür edirsinizmi? Və bu bir dəfə baş verməyib. Mən hətta hesabı itirmişəm, Maykl neçə dəfə şam yeməyinə evdə olacağını vəd verib, ancaq sonra yemək stolun üstündə olandan on dəqiqə sonra o, zəng edib deyib ki, çox işləyəcək və öz iş yoldaşları ilə birlikdə harada isə şam edəcəklər. Nəhayət mən anladım ki, hirslənmək, incimək və hay-küy salmaq səmərəsizdir — bunlardan daha da pis olur.

Mən çıxış yolu tapmağı öyrəndim: mən ərimdən inciyəndə, onun müsbət xüsusiyyətlərini özümə xatırlatmağa başlayırdım. Mən onun neçə dəfə mənə ağır ev işlərində və mətbəxdə kömək etdiyini yada salırdım. O, sadiq ərdir, və bu barədə bir dəfə də olsa mənə şübhələnməyə səbəb verməyib. O, imanlıdır və kilsəyə gedir: o, Müqəddəs Kəlam oxuyur və dua edir; onun yüksək əxlaqi prinsipləri var. O, məni və uşaqları sevir; öz talantı ilə o, Allahı izzətləndirir. O, bütün ailəni sədaqətlə təmin edir. Hər şey bundan da pis ola bilərdi, ona görə də onun şam yeməyinə gəlib gəlməməsi barədə deyinməyinə dəyməz.

Mən belə düşünürəm ki, təzə nigah bağlayan gənc qadına belə məsləhətimlə çox kömək edə bilərdim: ərinin heç bu siyahı ilə yaşamaq fikri olmadığını görüb pərişan olmasın deyə, o, ailə həyatına daxil olduğu uzun tələblər siyahısından azad olsun. Sözsüz ki, bir sıra həlledici anlar var ki, nigahın əsasını təşkil edir və hansılar ki, hələ nigah bağlanmazdan qabaq müzakirə edilməlidir: maliyyə məsələləri, sığorta məsələləri, səmimilik, xeyirxahlıq, əxlaqi prinsiplər, məhəbbətdə fiziki və qəlbi birlik. Əgər sizin nigahınız bun-

lardan məhrumdursa, sənin bu şeyləri tələb etmək haqqın var; əgər heç nə dəyişilmirsə, sən bu barədə dua edə bilərsən. Ancaq müəyyən hallarda, insanın sənin təsəvvürlərinə uyğun olmasına, təkid etməyə haqqın yoxdur. Prinsip etibarı ilə kişi üçün, sənin bütün arzularını yerinə yetirib və təzyiqlərə davam gətirmək dözülməzdir. Bunun əvəzinə, duada bütün öz problemlərini Allaha aç və Ondan cavab gözlə.

Ərlərimizin üzərində nəzarət qurmağa cəhd göstərib və onların qarşısına öz çoxsaylı tələblərimizi irəli sürdükdə, görəndə ki, onlar bizim tələblərimizi yerinə yetirmək bacarığında deyillər, baxmayaraq ki, biz özümüz təqsirkarıq, biz onlara hirslənib və pərişan oluruq. Mənim nigahımda ən böyük mürəkkəbliklər, mənim Maykla bağladığım ümidlərin doğrulmadığını görəndə, onun olmalı olduğu haqqında olan təsəvvürlərimin gerçəkliyə dəyib dağıldığını görəndə baş verdi.

Öz təxəyyül təsəvvürlərindən əl çək. Sənin ərini dəyişilməyə məcbur etmək səylərin və onun sənə məqbul olmaq səyləri uğursuzluğa məhkum edilib və hər ikiniz pərişançılıqdan başqa heç bir şey gətirməyəcək. Yaxşısı budur ki, Rəbbdən, ərini Ona məqbul olan tərzdə dəyişdirməyi xahiş edəsən, çünki O, onu çox-çox yaxşı edəcək, axı «…Allahın etdiyi hər iş daim qalır: ona nə bir şey artırmaq, nə də bir şey əskiltmək olar»(Vaiz 3:14). Öz ərini necə var, elə də qəbul et və onun kamilləşməsi üçün dua et. Ancaq onda dəyişiklik görəndə, bil ki, Allahın «Ey qəlbim, sükutla Allahı gözlə, çünki ümidim Ondadır» (Zəbur 62:5) Qüdrəti özünü belə büruzə verir. Öz, ən böyük ümidlərini ərinin yox, Rəbbin üzərinə qoy.

## Lazımi hörmət

Qeyd etmək maraqlıdır ki, Allah ərdən öz arvadını sevməyi, arvaddan isə öz ərinə ehtiram etməyi tələb edir: «…qoy hər kəs öz arvadını özü kimi sevsin, arvad isə ərinə ehtiram etsin» (Efes. 5:33).

Mən əminəm ki, heç bir qadın sevmədiyi kişiyə ərə getməz, lakin çox zamanlar, toydan müəyyən vaxt keçdikdən sonra arvad öz ərinə hörmət etməyi tərgidir. Bir qayda olaraq, hörmətin itirilməsi, məhəbbətin itirilməsindən qabaq gəlir və çox vaxt kişilər üçün bizim düşündüyümüzdən də çox ağrıdıcı keçirilir.

Ərə hörmətin itirilməsinin çox ciddi nəticələri ola bilər. Davud padşahın arvadı Mikal, əhd sandığını şəhərə gətirləndə, ərinin sadə paltarda, sevincindən Rəbbin və xalqın qarşısında rəqs etməsini seyr edirdi. Mikal nəinki öz ərinin sevincini bölüşdürdü, hətta, ona alçaq nəzərlərlə baxdı (2 Şamuel 6:16). O, baş verənlərə Rəbbin gözü ilə baxmaq əvəzinə, ərini ittiham etdi. O, öz ərinə hörmətsizliyinə görə çox baha qiymət ödədi: Rəbb, onu cəzalandırdı və o, ömrünün sonuna qədər sonsuz qaldı. Mən əminəm ki, ərlərimizə lazımi hörməti göstərmədikdə, biz təkcə şəxsi nigahımıza ziyan vurmuruq, həmçinin özümüzü yeni həyatdan məhrum etmiş oluruq.

Bir misal da gətirim. Mələkə Vaşti, dəvət edilən şam ziyafətinə öz mələkə libasında gəlməsi ilə qonaqlara zövq vermək istəyən, öz ərinin əmrinə itaət etməkdən etiraz etdi. O, baxmayaraq ki, bu hərəkəti ilə ərini alçaldır bunu etmədi: «Lakin mələkə Vaşti hərəmağaları vasitəsilə göndərilən padşah əmrindən çıxıb, onun hüzuruna gəlmək istəmədi. Padşah buna çox qəzəbləndi və qəzəb ürəyini yandırıb-yaxdı» (Ester 1:12). Nəticədə Vaşti öz şahzadəlik mövqeyini itirdi. O, təkcə öz ərinin, padşahın ad-sanına ziyan gətirmədi, bununla yanaşı qonaqlara etinasızlıq nümayiş etdirdi. Əgər arvad ərinin ürəyində şahzadəlik mövqeyini qoruyub saxlamaq istəyirsə və onun ailəsinin və dostlarının xatirinə dəymək istəmirsə, o, ərini alçaltmamalıdır (hətta, əgər əri, onun fikrincə buna layiq olsa da). Axı bunun qiyməti çox yüksəkdir.

Əgər bu səninlə baş veribsə, sən ərinə hörmətsizlik etmisənsə, dərhal Rəbbin qarşısında öz günahını iqrar et. De: «Ya Rəbb, Sənin Sözündə deyildiyi kimi ərimi qiymətləndirmədiyimi etiraf edirəm. Mənim ürəyimdə, ağrıdan müdafiə kimi çəkdiyim divar var. Lakin,

mən ürəyimin şəfalanması naminə bu divarın dağılmasını istəyirəm. Mən, ərimə lazımi qədər hörmət etmədiyimə görə tövbə edirəm və mənim ona göstərdiyim hörmətsiz münasibətin və mənim onun ünvanına dediyim kəskin sözlərin Sənə qarşı günah olduğunu etiraf edirəm. Mənim ürəyimi, Sənin mənə vermək istədiyin həqiqi məhəbbətin orada öz yerini tutmasına mane olan hər bir şeydən azad et. Mənim qəlbimdə sərtlik divarını sındır və Sənə məqbul olmaq üçün ərimə necə hörmət etmək lazım olduğunu mənə göstər. Ya Rəbb, mənə, ona qarşı Sənin məhəbbətinlə dolu bir ürək ver və onu Sənin gözlərinlə görməyimə kömək ol».

Belə dua, sənə ərinin böyük potensialını görməyə və onun çatışmamazlıqlarında diqqətinin cəmləşməməsinə imkan verəcək. Sən, onun üçün dəstəkləmə olan və sizin nigahınızı yeni həyatla dolduran sözləri deməyə öyrənəcəksən. Əgər daima diqqəti neqativ olan şeyə vurğulasan, məhəbbət ölür; ancaq yaxşını görməyə səy göstərəndə isə, məhəbbət artır. Əgər sənin sinəndə, Allahın yaşadığı, ərinə qarşı məhəbbətlə dolu bir ürək döyünürsə, sən, hər şeyə yeni gözlə baxacaqsan. Vaxtaşırı sən ərinin hərəkətlərini, hərəkətlərinin məqsədlərini, hisslərini anlamayacaqsan, lakin Allah sənə müdriklik verəcək və həqiqi nurda sənə vəziyyəti görməyə kömək edəcək. Rəbbdən, sənə bu bacarığı verməyi xahiş et.

Sən özün haqda — ərli arvad haqqında olduğu kimi — dua edəndə, əqlində Müqəddəs Kəlamdakı yaxşı arvad nümunəsini saxla. Müqəddəs Kəlam deyir ki, yaxşı arvad evin qayğısına qalır və onu idarə edir; o pullarla müdrik rəftar edir və onları düzgün sərf edir. O, öz sağlamlığına və zahiri görünüşünə nəzarət edir; səylə çalışır və qiymətli sənətin sahibidir, o, çox şey bacarır və daima gələcək haqqında qayğı çəkir. O, öz ərinin xeyirxah ad-sanını dəstəkləyir. O, özünə çox əmindir, təmiz vicdanlıdır və qocalıqdan qorxmur. Onun nitqi müdrikliyi və xeyirxahlığı ilə fərqlənir. O, bekarçılığa yaddır və evdə baş verən bütün işlərdən agahdır. Əri və uşaqları onu tərifləyirlər. O, zahiri gözəlliyin sehrlərinə ümid bəsləmir və bilir

ki, Rəbb qarşısında qorxu — onun ən yaxşı bəzəyidir. O, ərinə onun işlərində kömək edir və özü haqda deyən dolğun həyat ilə yaşayır (Sül. Məs. 31).

Budur təəccüblü arvadın portreti — belə arvad, ancaq Allahın himayədarlığı altında və Ona tam itaətkarlıq şərti ilə mümkündür. Bütün bu təltiflərin çələngi isə ondan ibarətdir ki, ər öz arvadına etibar edə bilir, çünki «ömrü boyu ərinə pislik deyil, yaxşılıq gətirir» (Sül. Məs. 31:12). Mən bilirəm ki, arvadın ərinə gətirə biləcəyi ən böyük «yaxşılıq» onun duasıdır. Beləliklə dua edək?

## *Dua*

***Ya Rəbb***, mənə yaxşı arvad olmağa kömək elə. Mən anlayıram ki, Sənin köməyin olmadan mən bunu edə bilmərəm. Məni eqoizmdən, səbirsizlikdən və tez acıqlanmaqdan azad et və onları xeyirxahlığa, comərdliyə və müti səbirliliyə çevir. Məni pis vərdişlərdən, pis əhval-ruhiyyədən, kobud sözlərdən və özünü müdafiə etmək arzusundan azad et, mənə xeyirxahlıq, lütfkarlıq, sadiqlik, yumşaqlıq ver və mənə emosiyalarımı sıxıb saxlamağı öyrət. Mənim ürəyimi qəddarlıqdan şəfalandır və Öz vəhyinin güclü qüdrəti ilə mənimlə ərimin arasında olan düşmənçilik divarını sındır. Mənə yeni ürək ver və onda məhəbbət, sülh və sevinc yarat (Qal. 5:22). Mən özüm öz zəifliklərim və xasiyyətimin pis xüsusiyyətləri ilə bacara bilmirəm, ancaq Sən məni dəyişdirə bilərsən.

Mənim ürəyimdə, xüsusən ərimə münasibətdə, olan günahı göstər. Mən onu sevməyib və lazımi hörməti göstərmədiyim üçün üzr istəyirəm; ona hirsləndiyimə, onu tənqid etdiyimə və kin saxladığıma görə. Mənə inciklikdən, qəzəbdən və məyusluqdan azad olmağa və onu Sənin kimi — tam,

keçmiş haqqında heç nə xatırlamadan, bağışlamağa kömək et. Elə et ki, mən öz nigahımı şəfalandırım, ona sülh gətirim. Mənimlə ərimin arasında sağlam ünsiyyət yarat və bizi uzaqlaşmadan xilas et; bizi, arxasında boşanma başlayan, astanadan qaçır.

Mənə ərimin köməkçisi və dostu olmağa kömək et. Evimizi, həmişə onun sevinclə qayıdacağı asudə və sakit yer etməyimə kömək ol. Mənə, onun üçün cazibədar qalmaq üçün, öz qayğıma qalmağı öyrət. Mənə, güc ilə dolu, intellektual, qəlbi və ruhani zəngin, tam qadın olmağa kömək ol. Mənə, ərimin öyünə biləci arvad olmağa kömək et.

Mən bütün ümidlərimi Sənin çarmıxının yanına gətirirəm. Mən ərimi, ancaq Sənin razı sala biləcəyin ehtiyaclarımı, razı salmaq vəzifə borcundan azad edirəm. Mənə onu necə varsa, elə də qəbul edib və onu dəyişdirməyə cəhd göstərməməyə kömək et. Mən anlayıram ki, o, tamamilə başqa insan ola bilməz, lakin eyni zamanda mən onda ancaq, Sənin edə biləcəyin möcüzəli dəyişikliklərə ümid edirəm. Onu, onun xeyrinə olan tərzdə dəyişdir. Mən tam etiraf edirəm ki, bizim heç birimiz kamil deyil və olmayacağıq da. Ancaq Sən, ya Rəbb, kamilsən və mən ümid edirəm ki, bizə kamilliyə yaxınlaşmağa Sən kömək edərsən.

Mənə ərimə görə dua etməyi öyrət və mənim dua dilimi həqiqi məhəbbət dili et. Əgər bizim məhəbbətimiz ölübsə, onu dirilt. Mənə həqiqi məhəbbətin nə olduğunu göstər və mənə bu məhəbbəti, ərimin hiss edə biləcəyi tərzdə göstərməyi öyrət. Bizim aramızda birlik yarat ki, bizim hər şeydə razılığımız olsun (Amos 3:3). «Qoy təhəmmül və təsəlli verən Allah, Məsih İsaya əsasən bizə, öz aramızda həmfikir olmağı ehsan etsin» (Rom. 15:5). Elə et ki, biz bir komanda olaq və bir birimizlə rəqabət aparmağa və ya müstəqilliyə

görə mübarizə aparmağa son qoyaq; bizim ər-arvad ittifaqımızın böyük xeyri naminə, bir-birimizin zəiflik və xətalarını hiss etmədən, bizə əməkdaşlıq etməyi öyrət. Bizə, sülhə səy göstərməyi və bir-birimizə dayaq olmağı öyrət (Rom. 14:19). Qoy biz «bir fikirdə və eyni rəydə birləşək» (1 Kor. 1:10).

Mən dua edirəm ki, bizim Sənə və bir-birimizə olan sədaqətimiz günbəgün artsın. Mənim ərimə, Sənin əmrinə əsasən, evin başçısı olmağa kömək et. Mənə, onu dəstəkləyib və hörmət etməyi və ona ailə başçısı kimi öz vəzifəsini yerinə yetirməyə kömək etməyi öyrət. Mənə onun ürək arzularını başa düşməyə və onun rəylərini bölüşməyə kömək et. Mənə, onun məqsəd və ehtiyaclarını aç. Mənə, mümkün olan problemləri, onlar meydana çıxmadan öncə göstər. Bizim nigahımıza həyat üfür.

Ya Rəbb, məni başqa insan et. Mənə həyata, yeni — nikbin baxmağı öyrət. Sənin mənə ər kimi verdiyin insan ilə münasibətlərimi yeniləşdir. Mənə ona başqa gözlə baxmağı öyrət, mənim ürəyimi yeni məhəbbət, yeni şəfqət və yeni arzu ilə doldur. Elə et ki, mən Allahın yeni bəşəri və layiqli arvad olum.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Bunun üçün sizə deyirəm: Dua edib istədiyiniz hər şeyi almış olduğunuza iman edin və istəyiniz yerinə yetəcəkdir. Dua edən zaman, kimsəyə qarşı bir kininiz varsa, onu bağışlayın ki, göylərdə olan Atanız da sizin təqsirlərinizi bağışlasın.

*Mk. 11:24-25*

Amma bir-birinizə qarşı lütfkar, şəfqətli olun və Allah Məsihdə sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın.

*Ef. 4:32*

Diləyin, sizə veriləcək; axtarın, tapacaqsınız; qapını döyün, sizə açılacaq. Çünki hər diləyən alır, axtaran tapır və qapı onu döyənə açılır.

*Mt. 7:7-8*

Hikmətlə ev tikilər, dərrakə ilə möhkəmlənər.
Mənzillər bilik vasitəsilə, hər cür dəyərli, yaxşı şeylərlə dolar.

*Sül. Məs. 24:3-4*

Yaxşılıq edərkən ruhdan düşməyək; çünki əgər zəif düşməsək, vaxtında biçərik.

*Qal. 6:9*

# 2 FƏSİIL

# ONUN İŞİ

Bill əməli olaraq işləmir. O, böyük məmuniyyətlə ailəsinin maliyyə problemlərinin məsuliyyətini arvadı Kimin çiyinləri üzərinə qoyub, özü isə eyni zamanda xəyallara qapılır. Lakin bədbəxtçilik ondadır ki, artıq Billin on yeddi il sıfır nəticəli planlar qurduğu vaxtda, Kim heç də maliyyə yükünü tənha aparmaq məcburiyyətində sevinc tapmır. Mən əminəm ki, Billin passivliyinin təməlində qorxu durur: o qorxur ki, əgər öz arzuladığı işi tapmasa, o, ömrü boyu mənfur iş ilə məşğul olmağa məcbur olacaq.

Stiven işdə az qala ölənəcən işləyir. O, nə dincəlmək, nə də işinin nəticəsindən həzz almaq bilmir; o, ailəsi ilə nadir hallarda olur, onun yeniyetmə uşaqları isə böyüyür. O, «öküz» kimi, vacib olduğuna görə yox, qorxduğuna görə işləyir: əgər o, bir dəfə dayansa, insanlar ona daha hörmətlə münasibət göstərməyəcəklər və onda o, özü özünə hörməti itirər.

Biz kişinin öz işinə, iki kənaraçıxma halda olan münasibətlərini göstərdik — bu, bir tərəfdən, eqoizm, qorxu, özünə inamsızlıq, depressiya, gələcəkdən qorxmaq kimi səbəblərə görə ondan yayınmağa səy göstərmək. Tənbəllər haqqında Allah belə deyib: «Qapı öz oxu üstündə necə fırlanırsa, tənbəl də yatağında elə fırlanır» (Sül. Məs.

26:14). Və ya: «…məst olan cır-cındır içində qalar» (Sül. Məs. 23:21). Və yenə: «Tənbəlin yolunu tikanlar basar...» (Sül. Məs. 15:19), və həmçinin: «Tənbəlin arzusu onu ölümə aparır, çünki əlləri zəhmətdən qaçır» (Sül. Məs. 21:25). Başqa sözlə, tənbəl adam heç vaxt, heç nəyə nail olmayacaq, heç vaxt, heç nə əldə etməyəcək, lakin onun yolu tikanlı olacaq və nəticədə onu ölümə gətirəcək.

Başqa kənaraçıxma — canı çıxana qədər işlə məşğul olmaq. Belə insanlar haqqında Allah növbəti sözü deyib: «Tamahkarın yolu həmişə belədir, tamahı onun canını alar» (Sül. Məs. 1:19); «Mən etdiyim bütün işlərə, çəkdiyim bütün zəhmətlərə dönüb baxdım: gördüm ki, hər şey puçdur, külək dalınca qaçmağa bənzər. Səma altında bunların faydası yoxdur» (Vaiz 2:11). Buradan belə nəticə çıxır ki, fanatikcəsinə əmək insanı boşaldır və onu həyatın mənasından məhrum edir.

Nə birinci, nə də ikinci variant insanı xoşbəxt etmir və onun həyatını məna ilə doldurmur. Ancaq Rəbbin köməyi ilə qızıl ortanı tapdıqda, keyfiyyətli yeni həyat ilə yaşamağa başlamaq mümkündür.

İnsanı bu və ya digər kənaraçıxmaya düşməyə məcbur edən səbəb, həmin — qorxudur. Məsələ burasındadır ki, kişiyə, özünü öz işi ilə eyniləşdirmək xasdır. Onun ehtiyacı vardır ki, onu qiymətləndirsinlər, o özünü qalib hiss etmək istəyir. Amma, bu məqsədlərə nail olmaq imkanını o, bir qayda olaraq, öz işində görür. Onu, gələcəkdə uğursuz ola biləcək vəziyyəti haqqında fikir qorxudur. Əgər o, öz bacarığından aşağı səviyyədə iş görürsə, bu onu alçaldır; əgər o, öz əməyinin nəticələrini görmürsə, bu ona əziyyət verir və o, öz əsassızlığını hiss edir.

Rəbb bilir ki, kişi üçün iş, həyatdan zövq almaq amillərindən biridir. O, deyib ki, «…hər kəsin …gördüyü işdən zövq almağı Allahın bəxşişidir» (Vaiz 3:13). Kişinin öz işindən narazılığı problemi, işin özündən yox, bu işin onun üçün mənasının olub olmadığından ibarət olur. Öz işində məna görməyən kişi, bir dəfə təyin edə bilər ki, cüzi mükafatın əvəzində uzun illər boyu bütün öz gücünü sərf

etdiyi işin, onun gözündə gələcəyi yoxdur — hər halda bütün həyatını ona həsr etməyə dəyməz. Hələ bununla yanaşı kişi yaşlıdırsa, onda onun başında belə fikirlər eşələnə bilər: «Sən heç kimə lazım deyilsən. Səni kiminlə istəsən əvəz etmək olar. Sən artıq əvvəl etdiyini etməyə bacarıqlı deyilsən. Sən nə isə öyrənməyə çox qocasan. Sən ümidsizsən». Belə vəziyyət kişi üçün çox təhlükəli ola bilər.

Yeridə, onun atasında və babasında maliyyə ilə eyni problemlər olub. Onların hər biri, onunla nə baş verdiyi haqda çox gec düşünürdülər. Onların hər biri fikirləşmədən, mənasına varmadan işlərini dəyişirdilər. Onlar həmişə maliyyə cəbhəsində döyüşürdülər. Onların valideynləri, onların övladlarının istedadlarının açılıb və tələb olunması, Allahın xeyir-dualarının onların üzərinə tökülməsi, onların qarşısında bütün qapıların açılması və onların öz təyinatlarını yerinə yetirə bilmələri üçün heç vaxt dua etməmişdilər. Göründüyü kimi, Allahın müdaxiləsi olmadığı yerdə tarix təkrarlanır.

Mən qeyd edirəm ki, valideynləri onlara görə aktiv dua edən insanlar, onları razı salan iş tapmaqda daha çox uğurludurlar. Ola bilsin ki, onların karyeralarının başlanğıcı ağır olur, lakin onlar məqsədlərini bilirlər və öz təyinatlarını başa düşürlər və məhz bu onlara düzgün istiqamətdə getməyə kömək edir. Başqa insanlara yaxşı tanış olan, ümidsizlik və məyusluq onlardan yan keçir. Öz övladlarının həyatını planlaşdıran valideynlər arasında çoxları, Allahın planlaşdırdığını başa düşməyə cəhd göstərmir. Uşağın həyatı təsadüfün iradəsinə veriləndə, onda, özü ilə pərişanlıq, şübhə və ümidsizlikdən başqa heç nə gətirməyən sənətin axtarışı başlanır. Əgər sənin ərinin həyatı məhz belə başlamışdısa, sənin duaların onun həyatını dəyişdirə bilər.

Əgər sənin ərin valideyn duasından məhrum idisə, sən bunu düzəldə bilərsən. Sən onun gözlərinin açılması, Allahın planını və Allahın ona göstərdiyi yolu görə bilməsi üçün dua edə bilərsən. Sənin duaların, ərinə özünü, məşğul olduğundan asılı olmayaraq, lazımlı və qiymətli hiss etməyə kömək edər. Sən, onu əmin edə bilərsən ki, Allah ona bacarıq və istedad verib və gələcəkdə onun üçün nə

isə təəccüblü bir şey hazırlayıb. Bundan sonra Rəbbə yalvar ki, O, ərinə, insanların heç birinin onu məhrum edə bilməyəcəyi yeni bacarığı görüb və dərk etməkdə kömək etsin. Sən öz dualarınla onun yolunu süpürüb təmizləyə bilərsən.

Əgər sənin ərinin karyerası uğurludursa, yenə də dua etmək lazımdır ki, onun işində hər şey Allahın iradəsi ilə baş versin, onda hər şey hamar olacaq. Mənim ərim mahnılar üçün musiqi yazır və musiqi prodüsseridir. O, dəfələrlə mənə deyirdi ki, mənim dualarım onu qoruyurdu, arzu edilməyən müştərilər ilə üzləşməməyə kömək edirdi. Bu biznesin xüsusiyyətlərini nəzərə alsaq, onun heç vaxt «ağır», hirsli və narahat insanlar ilə işləməməsini əsil möcüzə adlandırmaq olar. Mən həmişə dua edirdim ki, Allah onu yaxşı adamlar ilə rastlaşdırsın və ona pislik edə bilən adamlardan uzaqlaşdırsın. Əgər bizim dualarımız ərlərimizin karyerasını tam buludsuz etmək qabiliyyətində olmasa da, onlar ərlərimizin işini hiss edilən dərəcədə yüngülləşdirməyə və onları bir çox lazımsız problemlərdən azad etməyə qadirdir.

Əgər sənin ərin — iş azarkeşidirsə, hərdən onun dincəlib və əylənməyinin qayğısına qal, heç olmasa az da olsa onu ailənin maliyyə Bunsuz onlar sadəcə «işdə yana bilərlər» və mümkün ola bilən sınaqların qarşısında müdafiəsiz ola bilərlər. Sənin duaların ərinə, həyatın mənasının işdə yox, Allahın ardınca getməkdə olduğunu başa düşməyə kömək edər. Dua edək ki, ərlərimiz bu tarazlığı tapsınlar.

## *Dua*

***Ya Rəbb***, mən dua edirəm ki, Sən ərimin işini xeyir-dualandırasan. Qoy o, ona uğur və maliyyə çiçəklənməsindən əlavə, böyük məmnunluq da gətirsin. Əgər onun işində,

nə isə Sənin planınla üst — üstə düşmürsə, bunu ona aç. Ona, nədə səhv etdiyini göstər və onu düzgün yola yönəlt. Ona güc əldə etməyə, gələcəyi görməyi öyrənməyi, passivlik və tənbəllikdən azad olmağa kömək et. Qoy o, heç vaxt qorxuya, eqoizmə və məsuliyyətdən qorxduğuna görə işdən baş qaçırmasın. Ancaq, ona həmçinin göstər ki, o, başqa insanlara məqbul olmaq üçün işdə özünü əldən salmamalıdır. Qoy, heç vaxt o, Sən tərəfdən ona bəxş ediləndən artığını arzulamasın. Ona, öz uğurlarına sevinməyi və artığına çatmağa səy göstərməməyi öyrət. Ona müvəffəqiyyət qazanmağa kömək et, lakin uğura aparan yolda hər bir məcburiyyətdən və təzyiqdən azad et.

Mən dua edirəm ki, Sən onun işinin Rəbbi olasan ki, o, hər şeyi Səninlə birlikdə etsin. Sənin ona verdiyin ənamlarda ona əminlik əldə etməyə kömək et ki, o, axtarıb, tapıb və öz işini layiqincə yerinə yetirsin. İnsanlardan heç kəsin bağlaya bilməyəcəyi, gələcəyin qapılarını onun üçün aç. Onun peşəkar təcrübəsini artır və onları hər il təkmilləşdirməkdə ona kömək et. Mənə, ərimə nə ilə xeyirli ola biləcəyimi göstər.

Mən dua edirəm ki, onun işi daimi, maraqlı, onun üçün xoşa gələn və layiqli ödənişli olsun. Qoy, o həmişə: «Səydə zəifləməyin; ruhən hərarətli olun; Rəbbə xidmət edin» (Rom. 12:11) əmrinə sadiq olsun. Qoy o, Sənin canlı sularının axarı kənarında əkilən, barını mövsümündə verən ağac kimi olsun (Zəbur 1:3). Ona, vəziyyətlərin təzyiqləri altında əyilməməyə, lakin ruhən möhkəmlənməyə və müvəffəqiyyətli olmağa kömək et.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

İşində mahir olanı görmüsənmi? Sıravi adamların deyil,
şahların hüzurunda dayanar.

*Sül. Məs. 22:29*

Sərvət qazanmaq üçün özünü əldən salma, İdraklı ol,
bu fikirdən vaz keç. Gözünü sərvətə dikən, yox olar,
Birdən qanadlanar, uçub qartal tək göyə qalxar.

*Sül. Məs. 23:4-5*

İnsan bütün dünyaya yiyələnib öz canını itirərsə,
ona nə fayda olacaqdır? Yaxud insan öz canı əvəzinə nə verə bilər?

*Mt. 16:26*

Tənbəllik üzündən evin damı uçar, Heç bir iş görməsən,
evin tavanı damar.

*Vaiz 10:18*

Ey Xudavənd Allahımız, bizimlə xoş rəftar et, Əllərimizin zəhmətini
uğurlu et, Bəli, bizim əllərimizin zəhmətini uğurlu et.

*Zəbur. 90:17*

## 3 FƏSİL

# ONUN PUL VƏSAİTİ

Sənin ərinin bütün həyatının uğuru, ən çox onun pula olan münasibətindən asılıdır. Onun ürəyi əliaçıqdır, yoxsa simic? Başqalarının əvəzinə o, sevinə bilirmi, yoxsa onu paxıllıq incidir? Onun üçün pul nədir — xeyir — dua, yoxsa lənət? O, öz maliyyə vəsaitlərini necə idarə edir — müdrik, yoxsa düşünməmiş? Maliyyə məsələlərində sizin aranızda razılıq hökm sürür, yoxsa siz daimi döyüş vəziyyətindəsiniz? Pula və ya onların çatışmamazlığına görə və böyük borclara görə olan dalaşma kimi, başqa heç nə, nigahın üzərinə ağır yük kimi düşmür. Ancaq, əgər biz dərk ediriksə ki, bizim əldə etdiklərimizin hər birini Rəbbin iradəsi ilə əldə etmişik və əgər əldə etdiklərimizin üzərində ancaq Onu Rəbb olmağa dəvət etsək — ancaq, onda biz pul və ya onların yoxluğu ilə bağlı problemdən yan qaça bilərik.

Baxmayaraq ki, mənim ərim pis qazanmırdı, onun biznesi, «gah boş, gah qatı» prinsipində qurulurdu. Bir dəfə krizis düz bir il uzandı və bunu biz hamımız hiss etdik. Hətta bizə borclu olan kampaniyalar, nəğd pulun olmadığına görə bizə bir qəpik də ödəyə bilmirdilər. Bu çətin vaxt idi, lakin hər şey daha da pis ola bilərdi, əgər biz Rəbbə ümid edib və bizim bütün pul problemlərimizi Ona etibar etməsəydik. Bizə ancaq Allaha qulaq asmaq təsəlli verirdi və öz

ondabirimizi kilsəyə ianə edirdik. «Bütün ondabirlərinizi anbara gətirin» və baxın, «Ordular Rəbbi deyir: „Siz bununla Məni sınayın. Görəcəksiniz ki, göylərin pəncərələrini sizə açacağam, üzərinizə ehtiyaclarınızdan da çox bərəkət yağdıracağam“» (Mal. 3:10). Biz həmçinin, kasıb və ehtiyacı olanları xeyir-dualandırmağa da sadiq idik: «Yoxsulların qayğısına qalan nə bəxtiyardır! Rəbb dar günündə onu qurtarar» (Zəbur 41:1). Biz həmçinin Kəlamda deyilən vədləri də xatırlayırdıq: «…Rəbbi axtaranlar heç bir yaxşı şeydən korluq çəkməzlər» (Zəbur 34:10). Biz həqiqətən Rəbbi axtarırdıq. Biz inanırdıq ki, Ona, həyat mənbəyi kimi, ümid edib və Onun əmrlərinə əməl etdikdə, biz Onun xeyir-dualarını ala bilərik. Və bizim nəyə ehtiyacımız varsa, O, bizə verəcək. Belə də alındı.

Bir çox maliyyə problemləri, maliyyə vəsaitlərini Allaha etibar edib və Onun iradəsini yerinə yetirəndə həll olunur. Bu o deməkdir ki, O, ver deyəndə verməlisən. Rəbb, Onun iradəsini yerinə yetirənlərə, qurtuluşu, müdafiəni, xeyir-duanı və yeni həyatla dolmağı vəd verir. Əks halda biz, özü ilə bədbəxtçilik gətirən alçalmanı dadmalı olacağıq: «Qulağını tutub kasıbın fəryadını eşitməyənin fəryadına cavab verilməyəcək» (Sül. Məs. 21:13). Simiclik səni əldə etdiklərinə sevinməkdən məhrum edir, bu isə səni həyatın çoxsaylı problemlərinə doğru aparır.

Əlbəttə, elə varlı adamlar var ki, qurban vermək haqqında anlayışları da yoxdur, lakin onların həyatlarına diqqətlə baxsaq, görə bilərik ki, onlar Allahın bir çox xeyir-dualarından məhrum olurlar: daxili tamlıqdan, müdafiədən, məhəbbətdən, qəlbin sakitliyindən, sağlamlıqdan və həyatın tamlığını duymaqdan, — və özləri də bunun səbəbini anlamırlar. Onlar öz var-dövlətlərini qoruyurlar, ancaq ona görə sevinməyin bacarığını itirirlər; və hamısı da ona görədir ki, bir şeyi bilmirlər — həqiqi həyatın açarı, Rəbbi dərk etmək və Onun yolları ilə yeriməkdir. Bu isə — tam etibar etməklə — öz vaxtını, öz enerjisini, məhəbbətini, talantını və maliyyə vəsaitlərini Rəbbin ixtiyarına verməyi nəzərdə tutur.

Dua et ki, sənin ərin həyata bu açarı tapa bilsin, Allahın iradəsini dərk etsin, Allahın, onun öz maliyyə vəsaitlərindən necə istifadə etmək istədiyini anlaya bilsin. Dua et ki, o, başqaları ilə bölüşməyə hazır olan, əldə etdiyi ilə kifayətlənməyi və artığını axtarmayan, comərd ürək əldə etsin. Mən demirəm ki, çox pul qazanmağa səy göstərmək qeyri normaldır — yox, əksinə. Kişi öz işinə görə layiqi mükafatını almalıdır, qadın isə bu barədə dua etməlidir. İnsanın qəlbini yoran və nəticədə, onun daimi yolyoldaşları olan — kədər, hirslənmə, xəstəliklər və paxıllıqlar — kasıblığa gətirən, ağır cansıxıcı iş, insana layiq sayıla bilməz. Hər bir vəziyyətdə dua et ki, xeyir-dua yağışı sənin ərinin üzərinə yağsın və bu xeyir-dualar ona yalnız Allah tərəfindən göndərilsin. «Rəbbin xeyir-duası insana sərvət gətirər, daha ona qüssə verməz» (Sül. Məs. 10:22).

Çox ehtimal ki, duaya görə sizin bütün maliyyə çətinliklərinizin hamısı həll olunmayacaq, çünki Allah hərdən maliyyə çətinlikləri vasitəsi ilə bizim diqqtimizi nəyəsə cəlb edir və ya bizə nə isə öyrədir. Hər halda şübhə etmə — sənin duaların sənin ərini lazımsız mübarizədən və ağrıdıcı məğlubiyyətlərdən mühafizə edəcək. Allah, öz xəzinələrini Rəbdə görən, itaətkar, şükür edən və comərd ürəkləri xeyir-dualandırmağı arzu edir. «Çünki xəzinəniz haradasa, ürəyiniz də orada olacaqdır» (Mat. 6:21). Allah istəyir ki, sənin ərin öz xəzinəsini öz pullarında yox, Onda tapsın.

## *Dua*

***Ya Rəbb***, mən öz pul vəsaitlərimi Sənə etibar edirəm. Onların Rəbbi ol və onları Öz məqsədinə çatmaq üçün istifadə et. Bizim hər ikimizi Sənin ənamlarını düzgün sərf etməyi öyrət; bizə, pullarımızı sərf etmək məsələsində razılığa gəlməyi öyrət. Mən dua edirəm ki, biz borcun ağır yükündən

azad olaq. Bizə harada və nə vaxt düzgün hərəkət etmədiyimizi göstər və bizə müdrikliyi öyrət; dağılanı bərpa et və bizə yol göstər. Mənə, bizim var-dövlətimizin artırılmasında, müdrikliklə iştirak etməyi öyrət. Qoy biz həmişə yadda saxlayaq ki, bizim malik olduğumuz hər şey Sənə məxsusdur və biz buna görə həmişə Sənə minnətdar olaq.

Mən dua edirəm ki, o (ərin adı), Sənə və Sənin Sözündə əmr etdiyin kimi başqalarına könüllü qurban verməyi öyrənsin. Pul vəsaitlərini idarə etmək üçün ona müdriklik ver və pulları müdrikliklə sərf etməyi, öz gələcəyini müdrik planlaşdırmağı ona öyrət. Mən Səndən xahiş edirəm: düşüncəsiz israfçılıqla, xəsislik arasında olan qızıl ortanı tapmaqda ona kömək et. Qoy onun işi həmişə yaxşı ödənilsin, qoy onun pulları həmişə sağ-salamat, oğurlanmamış və boş yerə xərclənməmiş olsun. Onları artır və qoy onun əməyi həmişə xeyir gətirsin. Mən dua edirəm ki, mənim ərim maliyyə problemlərinə görə əziyyət çəkməsin, ancaq ən əvvəl Sənin Səltənətini axtarsın, bilərək ki, qalan lazım olan şeylər əlavə olaraq veriləcək (Lk. 12:31).

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Beləliklə, siz nə içəcəyinizi və nə yeyəcəyinizi axtarmayın və narahat olmayın. Çünki dünyanın xalqları bütün bu şeyləri axtarırlar; Atanız isə bunlara ehtiyac duyduğunuzu bilir. Ancaq siz Allahın Səltənətini axtarın və bunların hamısı sizə əlavə olaraq veriləcəkdir.

*Lk. 12:29–32*

Çünki Allah insanın başını şənliklə qatdığı üçün insan ömrünün günlərini dərindən düşünmür.

*Vaiz 5:20*

Yoxsula əl tutan möhtac qalmır, ona məhəl qoymayan lənət qazanır.

*Sül. Məs. 28:27*

Gəncliyimdən qocalığımadək salehin tərk edildiyini nəslinin çörək üçün diləndiyini görməmişəm.

*Zəbur 37:25*

Mənim Allahım isə Öz izzətli zənginliyə görə,
Məsih İsa vasitəsilə sizin hər cür ehtiyacınızı ödəyəcəkdir.

*Fil. 4:19*

## 4 FƏSİL

# ONUN İNTİM HƏYATI

Bu kitabda kişinin həyatının başlıca tərtib hissəsindən danışılır. Mən hesab edirəm ki, əgər biz öz ərlərimizi onların həyatının böyük ümumi əhəmiyyəti olan sahəsində xoşbəxt edə biləriksə, biz onların digər, daha intim sahələrinə müraciət etsək, daha çox uğurlu ola bilərik.

Mənim uğursuz nigahlara, öz əhəmiyyətilə boş və ölü, daima mübarizə ilə dolu olan birinciliyə görə qadınlar ilə birlikdə etdiyim, iyirmi illik dua ünsiyyətindən sonra, mən, arvad üçün seksual münasibətlərin nə qədər az əhəmiyyətli olduğunu gördüm. Demək olmaz ki, onlar öz nigahlarının bu tərəfi barəsində heç düşünmürlər, sadəcə onların həyatında, onların daimi diqqətini tələb edən digər, daha vacib, çox işlər: uşaqların tərbiyələnməsi, iş, pul problemləri, ev təsərrüfatı, qohumların xəstələnməsi və ər ilə rəqabət — var ki, seks bu uzun siyahının ən sonundadır. Bəzi qadınlar həftələrlə, aylarla, bəzən isə illərlə, bu və ya digər səbəbdən, öz ərləri ilə intim münasibətlərdə olmurlar. Nigah dağılmağa başlayanda, onlar çox təəccüblənirlər. Hətta, əgər qadını onun intim həyatında işlərin belə vəziyyəti qane edirsə, onun əri bu vacib sahədə özünü sıxışdırılmış hiss edə bilər.

Qadın üçün seks, öz simpatiyasını və ya məhəbbətini kişiyə biruzə verməyin üsuludur. O, onun xətrinə dəyən və onu incidən, ona ancaq məyusluq gətirən və heç bir kömək etməyən, özünü onunla atılmış və tənha hiss etdiyi kişi ilə mehriban ola bilməz. Lakin kişi üçün seks tamamilə gərəkli bir şeydir. Əgər o, bu cür boşalma almırsa, onun görməyi və eşitməyi kütləşir, intellekt və emosiyaları isə öz gücünü itirir. O, öz arvadını eşitmir; əgər onun həyatının bu vacib sahəsi saya salınmırsa, arvadının arzularını anlamır. Qadınlarda isə hər şey tərsinədir. Biz, başqa vacib problemləri həll edənə qədər seks gözləyə bilər, deyə onlar düşünürlər. Ancaq, əgər seks onlardan qabaq gəlsə, bu problemlərin həllinin şansı çox-çox qalxar.

Bax buna görə, sizin ər-arvad münasibətlərinizdə seksə lazım olan yeri ayırmaq vacibdir. Əhəmiyyətli deyil, bunun üçün xoşa gələn şərtlər var, ya yox, sənin istəyin var, yoxsa yox — vacib öz ərinin ehtiyaclarını başa düşüb və razı salmaqdır, əlbəttə əgər sən onunla mehriban münasibətləri qoruyub saxlamaq istəyirsənsə. Başqa sahələrdən fərqli olaraq, bu sahədə tez sınan, kişini yoldan çıxartmaq, alçaltmaq, tərksilah etmək, məhz həyatın bu sahəsində özünü gərəksiz hiss etməyə məcbur etmək çox asandır.

Seksual qarşılıqlı münasibətlərin problemləri o səbəbdən çox səciyyəvidir ki, kişilər və qadınlar Allahın bu mövzuya aid nöqteyinəzərini tam anlamırlar. Ancaq Müqəddəs Kəlam bu barədə tam aydın şəkildə deyir: «Arvad öz bədəninə hakim deyildir, ona hakim olan ərdir; eləcə də ər öz bədəninə hakim deyildir, ona hakim olan arvaddır. Bir-birinizi ər-arvadlıq haqqınızdan məhrum etməyin, yalnız bəlkə də, razılıq ilə, müvəqqəti olaraq oruc tutmaq və dua etmək üçün. Bundan sonra yenə də birləşin ki, nəfsinizi saxlaya bilmədiyinizə görə şeytan sizi imtahan etməsin» (1 Kor. 7:4-5). Nigahda seks — Allahın qanunudur. Müntəzəm intim münasibətlərdən yan qaçmaq düzgün olmaz. Müstəsnalıq, oruc və dua, ya da xəstəlik ola bilər.

Nigahda bizim bədənlərimiz bizə məxsus deyil; biz bir-birimizə fiziki diqqət ayırmağa borcluyuq. Seksual ünsiyyətlərin tezliyi, bizim şəxsi tələbatımızda yox, başqa insanın tələbatından asılıdır. Əgər sənin seksə münasibətin, ancaq sənin tələbatın və istəklərinlə təyin olunursa, deməli sən bu məsələdə Allahın mövqeyini dərk etmirsən. O, deyir ki, bizim bədənimiz başqa insana zövq verməlidir. Təbiətin qanununa görə, seks kişiyə vacibdir və o evləndikdə, arvadı onun bu tələbatını razı salmaq cavabdehliyindədir. Əgər arvad öz vəzifəsinə etinasızlıq göstərirsə, onda qarşılıqlı münasibətlərdə çox şey itirilir. Biz özümüzə təsəvvür etdiyimizdən də çox təhlükəli olan, müxtəlif imtahanların qarşısında müdafiəsiz oluruq. Bu, hər bir kəs ilə baş verə bilər, ona görə də sənin və sənin ərinin həyatının intim tərəfinin duaya ehtiyacı var. Yaxşısı budur ki, problemlər yaranmamışdan qabaq dua etməyə başlayasan.

Əgər sənin ərin, sən istədiyindən tez-tez seks ilə məşğul olmaq istəyirsə, dua et ki, Allah sənə bu münasibətdə dəyişilməyə kömək etsin. Öz şəxsi təcrübəmdən mən bilirəm ki, ər-arvadların intim həyatlarında ən böyük mürəkkəbliklər, onların uşaqlarının kiçik vaxtlarında — onların çox diqqət və qayğı tələb etdikləri vaxtlarda meydana çıxır. Onları yatağa qoyduğun vaxtda sən ayaq üstə güclə dayanırsan və bir şey haqqında arzu edirsən — tez yuxulayım, o anda isə sənin ərinin gecə haqqında tamam başqa planları var. Sən ya qətiyyətlə: «Bu haqda unut. Mən yorulmuşam», deyərək onun səyini kənar edə bilərsən, ya ona öz əhvalın barədə danışa bilərsən, nəyə ki, o özü: «Problem yoxdur. Dincəl» deyər, ya da onun hərəkətinə öz narazılığını kəskin şəkildə göstərə bilərsən, hansı ki, onda təqsirkarlıq və ya qəzəb hissi yaradacaq. Ancaq mən, bu sayılanlardan mənə yaxşı görünən, dördüncü variantı tapmışam.

Sənin ərin sənə öz arzusu barəsində deməyə başlayanda, gözlərini yuxarı qaldırıb dərindən ah çəkmə, bunun əvəzində isə de: «Yaxşı, mənə on beş (iyirmi ya da çox) dəqiqə vaxt ver». Bu vaxt ərzində özünü daha cazibədar etməyə çalış, məsələn, duş və ya

zəiflədici vanna qəbul et, bədəninə losyon sürt, ya da onun sevdiyi ətirlə ətirlən (bu ətiri məhz belə hallar üçün saxla), saçlarını dara, üzünə təravətlilik vermək üçün bir az kosmetikadan istifadə et, məsələn, dodaqlar üçün parıltı. O, səni valehedici gördüyü paltarı gey və öz çatışmamazlıqların barəsində narahat olma — o, onlara heç fikir verməyəcək. Onların üstünü örtən, gözəl penuar geymək olar. Bu halda dua et ki, Allah sənə güc və enerji versin və sənin ürəyinə ərinə meyillilik versin. Sənin ərin, sən onun qarşısında duranda, xoş təəccüblə təəccüblənəcək və boş yerə gözləmədiyinə əmin olacaq. Sən, necə gözəl partnyor ola bildiyini görəndə, özün özünə valeh olacaqsan və özündən çox xoşun gələcək, bundan sonra hər ikiniz xoşbəxt yuxulayacaqsınız. Bu, vaxtın kiçik sərfiyyatı mütləq sizin nigahınız üçün böyük xeyirə çevriləcək.

Lakin əksinə də olur, nə vaxt ki, əri arvadına qarşı laqeyd olur. Səbəb ondadır ki, ola bilsin ki, o arvadına qarşı fiziki, intellektual və ya emosional planda marağını itirib. Amma, əgər kişi seks əlaqəsində olmadan aylarla keçinə bilirsə, deməli onunla nə isə qaydasında deyil. Ya o, fiziki nasazlıqdan əziyyət çəkir, ya da onu uğursuzluq, pərişanlıq və ya depressiya əzir. Burada dua kömək edə bilər: o, problemi açıqlayar və onun həllinin yolunu göstərər. Gərəkli halda peşəkar köməyə müraciət etmək olar. Bu, boşanma məsələsini qaldırmaqdan, ya da nəticədə korlanmış sağlamlığı və ya pozulmuş psixikanı bərpa etməkdən ucuz və sadədir. Bu xəstəliklər, həmişə nigahın məhvi ilə eyni zamanda baş verir. Qəzəbə, kədərə, özünə yazığı gəlməyə, sənə sahib olmağa imkan vermə. Çalış ki, həmişə sağlam və cazibədar olasan. Əgər özünə və öz bədəninə qayğı sənə sevinc gətirmirsə, bunu ərin üçün et. Onun sevdiyi paltarı gey, saç düzümünü dəyişdir, onu yeni görkəmin ilə təəccübləndir. Həmişə yeni və maraqlı ol. Bir sözlə, fəaliyyətsiz olma.

Nigahda seksə etinasızlıq pis nəticələrlə nəticələnir. Bunu yadda saxla. Təqvimi izlə və sizin fiziki ünsiyyətinizdə uzun fasilələrə yol vermə. Əgər bu vaxt uzanırsa, Allahdan dilə ki, bunun səbəbini sənə

göstərsin və vəziyyəti dəyişməyə çalış. Və yadda saxla: seksual təmizlik barədə dua etmək heç vaxt gec deyil; keçmişdə sizinlə nə baş vermiş olsa da — indi bunun heç bir əhəmiyyəti yoxdur. Hərdən bu sahədə olan problemlər, ər-arvadın nigaha qədər olan seksual təcrübəsi ilə əlaqədar meydana çıxır. Bu xatirələrdən azad olmaq üçün dua et. Siz, ürəyiniz həqiqət üçün açılanda, təmizlənəcəksiniz. Hər şey isə duadan başlanır. Allahın bu ənamına və sənin həyatının bu vacib sahəsinə görə dua etməyə qarşı etinasız olma.

## *Dua*

***Ya Rəbb***, mənim ərimin intim həyatını xeyirdualandır və onu yeni güc ilə doldur. Dağılanı bərpa et, tarazlığa ehtiyacı olanı tarazlığa gətir. Bizi apatiyadan, məyusluqdan, bir-birimizdən narazı olmaqdan, vurnuxmadan, kin saxlamaqdan və soyuq biganəlikdən müdafiə et. Bizə, bir-birimiz üçün vaxt tapmağa, səmimi və açıq ünsiyyətdə olmağa və bir-birimizin ehtiyaclarına diqqətli olmağa kömək et.

Qoy, bizim seksual münasibətlərimiz hər şeydə təmiz olsun, qoy bizi heç bir çirkli ehtiraslar sınağa çəkməsin. Bizi, keçmiş həyatın səhvlərinin yükündən azad et; bizim əqlimizi, nigahımıza qədər həyatımızda baş vermiş hər bir seksual təcrübələrin nəticəsindən azad et. Bizi, hər bir sınaqdan, ər-arvad münasibətlərini pozmaq imkanlarından qoru. Bizə, «cinsi əxlaqsızlıqdan imtina etməyə» kömək ol ki, bizlərdən hər birimiz «öz bədəninə qüdsiyyət və hörmətlə hakim olsun» (1 Sal. 4:3-4). Mən dua edirəm ki, biz, bir-birimizdən başqa heç kəsi arzulamayaq. Mənə cazibədar və arzu edilən olmağı öyrət, ərim heç vaxt kənarda həzz almağı axtarmasın deyə, ərimin xoşuna gəlməyi mənə öyrət.

Mən anlayıram ki, seks, mənim ərimə olan xidmətin vacib aspektidir. Mənə kömək et ki, bundan heç vaxt eqoistik məqsədlərlə manipulyasiya vasitəsi kimi istifadə etməyim. Ya Rəbb, nigahımızın bu vacib sahəsini Sənə etibar edirəm. Belə et ki, biz həmişə ərimizlə bir-birimizin xoşuna gələk və hər birimiz digərimizdə həmişə nə isə yeni bir şey tapsın. Bizim həyatımızın bu sahəsini, Sənə məqbul olan kimi et.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Cinsi əxlaqsızlıqdan çəkinin. İnsanın işlətdiyi bütün
günahlar bədənin xaricindədir, əxlaqsız isə öz şəxsi
bədəninə qarşı günah işlədir. Məgər bilmirsiniz ki,
bədəniniz, Allahdan aldığınız və sizdə yaşayan Müqəddəs
Ruhun məbədidir və siz özünüzə məxsus deyilsiniz?
Çünki siz çox baha qiymətə alınmısınız. Buna görə,
Allahınkı olan bədəninizlə və ruhunuzla
Allahı izzətləndirin.

*1 Kor. 6:18-20*

Bədən isə əxlaqsızlıq üçün deyil,
lakin Rəbb üçündür və Rəbb də bədən üçündür.

*1 Kor. 6:13*

Öz su anbarından, öz quyunun içməli suyundan iç.
Niyə sənin qaynaqların küçələrə, su arxların meydanlara
axıb getsin? Onlar yalnız səninki olsun, yadlara paylama.
Qoy çeşmən bərəkətli olsun, gənc ikən evləndiyin
arvadınla xoşbəxt yaşa! Sevimli maralın, gözəl ceyranın
həmişə səni öz döşləri ilə doydursun,
onun eşqi ilə məst ol.

*Sül. Məs. 5:15-19*

## 5 FƏSİL

# ONUN MEHRİBANLIĞI

Petti, Tom ilə, ərinin ona münasibətdə mehribançılığın olmaması barədə ciddi danışmaq qərarına gələndə, onlar artıq bir neçə il idi ki, evli idilər. Tom hər barədə gözəl ər idi; və onların intim həyatı gözəl idi, lakin başqa şeylərdə isə nə səmimilik, nə də mehribançılıq var idi. Demək olmazdı ki, Tom arvadını sevmirdi — əksinə, o, arvadına məftun idi. Səbəb onda idi ki, o, uşaqlıqdan nəvazişdən məhrum olmuşdu və buna görə öz məhəbbətini arvadına necə ifadə etməyi bilmirdi. Petti özünü təqsirkar hiss edirdi və ərini kədərləndirib, onu incitmək istəmirdi, amma, o özü uşaqlıqda nəvaziş və mehribançılıq görmədiyi üçün, bu ona ər-arvad münasibətində vacib gərək idi. Hər dəfə Petti bu barədə öz narazılığını bildirəndə, Tom düzəlməyə çalışırdı, lakin tezliklə hər şey yenidən, onların hər ikisini kədərləndirən, əvvəlki vəziyyətə qayıdırdı. Nəticədə Petti ümidini itirdi və qəlbində boşluq hiss etdi. O, səmimilik və nəvazişsiz necə yaşayacağını təsəvvür edə bilmirdi, lakin onun Tomu dəyişdirməyə heç bir ümidi qalmamışdı.

Nəhayət, Petti bu ağrıya daha dözə bilməyərək, öz problemi barəsində dua qruppasında danışdı və ona görə dua etməyi xahiş etdi. Qrupdakı bacılar hər həftə səmimi dua edirdilər və Petti, Allahın

Ruhunun onun həyatına daxil olduğunu hiss etdi. Allah ona, onun həmişə etinasızlıq göstərdiyi şeylərə — yəni düzgün qidalanmağa başlamağı və fiziki hərəkətlərlə məşğul olmağın vacibliyini göstərdi. Allahın təliminə qulaq asıb və onlara əməl etdikdən sonra, o, özünü yaxşı hiss etdi və əri tərəfindən mehriban münasibət göstərilməyə layiq olduğunu anlamağa başladı. O, öz arzusuna görə təqsirkarlıq hissindən azad olmalı idi, çünki Rəbb, bunu həmçinin onun üçün arzulayırdı. Tezliklə Petti hiss etdi ki, Allah onu Tom ilə yeni söhbətə çağırır, ancaq bu dəfə hər şey Müqəddəs Ruhun idarəçiliyi altında baş verməli idi, çünki, o və onun rəfiqələri Tomun ona qarşı münasibətlərinin möcüzəli dəyişilməsi barədə dua edirdilər.

«Bu söhbət üçün mən bütün cəsarətimi köməyə çağırmalı oldum, — deyə o, sonra mənə danışırdı. — Mən qorxurdum ki, o boşanma ilə bitər. Söhbət elə dərinləşmişdi ki, zənn etmək olardı ki, vəziyyəti düzəltmək mümkün deyil. Lakin, Allah mənə, o an üçün yerinə düşən, məhəbbət sözləri dedi və bu söhbət bizim nigahımızın möcüzəli dəyişilməsinin başlanğıcı oldu».

«Dəyişiklik baş verdi, — Tom xatırlayırdı — Petti mənə deyəndə ki: „Əzizim, mənim sevib və etibar etdiyim, bütün öz ləyaqətləri ilə olan, sənin kimi gözəl bir insan, mənə qarşı necə soyuq qala bilər?“».

«Mənim sözlərim onu ruhlandırdı — deyə Petti danışırdı — ona ümid verdi və əmin etdi ki, bir dəfə də sınamağına dəyər».

Bu dəfə Tom başqa cür hərəkət etdi. O, bu problemi barədə dua qrupundakı dostlarına danışdı və onlar o anda onun xahişinə cavab verdilər. Onlar, onu təkcə duada dəstəkləməklə kifayətlənmədilər, hətta ona, Pettiyə bu və ya digər formada nəvaziş göstərməyi məsləhət gördülər.

Tom dedi: «Mən dəyişmək istədiyim üçün bunu salamlayırdım. Mən Pettini sevirəm və onu incitmək istəmirəm. Mən dəyişilmək istəyirdim və bilirdim ki, bu ancaq Müqəddəs Ruhun idarəçiliyində mümkündür».

Hər gün dua qrupundan kim isə Toma zəng edib soruşurdu: «Petti, onun qayğısına qaldığını hiss etmək üçün sən bu gün nə etmisən?» Onların, öz mehribançılığını ona necə göstərməli olduğunu öyrədirdilər və vaxtaşırı Pettidən: «Mənim işlərim necə gedir?» — soruşmağı tövsiyyə edirdilər. Müqəddəs Ruhun iştirakı olmadan bütün bu olduqca üzücü görünə bilərdi, ancaq Tom özünü Rəbbin ixtiyarına təqdim etdiyi üçün, bu onda qıcıqlanma yaratmırdı.

«İndi o, evə gələndə ilk növbədə məni qucaqlayıb və öpür, — deyə Petti mənə gülümsəyərək xəbər verdi. — İlk beş qucaqlamalardan sonra mən özümü yeni bir insan kimi hiss etdim».

Tom ilə Pettinin problemi nadir hal deyil. Bir çox insanlar, hətta Allaha səmimi, vəfalı olanlar da, nəvaziş və mehribançılıqdan məhrum olmuş vəziyyətdə, ölü nigahda yaşayırlar. Ancaq, qadınların çoxu bu vəziyyətə dözür və şikayət etmirlər, çünki bütün başqa qalan şeylərdə ərləri onları qane edir. Lakin, Allah ər-arvad münasibətinə belə baxmır: «Ər öz arvadına lazımlı məhəbbət bəsləsin; arvad da əri ilə bu cür davransın» (1 Kor. 7:3). Müqəddəs Kəlam deyir: «Qucaqlaşmağın öz vaxtı... var» (Vaiz 3:5). Bu vaxt, sən nigaha daxil olanda gəlir. Mehribançılıq nümayiş etdirmək kişilər üçün birinci dərəcəli əhəmiyyətə malik deyil, çünki, çox vaxt onların anlayışında seks və mehribançılıq — bu eyni şeydir; qadınlar isə ərin nəvazişinə kəskin ehtiyac duyur. Əgər, sənin nigahında bu şey yoxdursa, dua et ki, Müqəddəs Ruhun gücü sizin ər-arvad münasibətlərinizi dəyişdirsin.

## *Dua*

***Ya Rəbb***, mən dua edirəm ki, mənim ərimlə olan münasibətimdə həmişə mehribançılıq olsun. Bizə lovğalıqdan, tənbəllikdən azad olmağa və bir-birimizə öz məhəbbətimizi

açıq ifadə etməyi öyrənməyə kömək et. Bizə, ərim ilə bir-birimizi sevib və qiymətləndirdiyimizi göstərməyə kömək et. Bizə, hər gün bir-birimizə mehribançılıq və diqqət göstərməyi xatırlat. Bizə soyuqluqdan, biganəlikdən, qapalıqdan azad olmağa kömək et; bizə, bir-birimizə mehribanlıq, məhəbbət bəxş etməyi və bir-birimizə valeh olmağı öyrət. Bizim dəyişilməyimizə və ruhani böyüməyimizə mane olan hər şeyi dağıt. Əgər, bizlərdən biri digərindən nəvazişlidirsə, bizim ittifaqımızda tarazlıq yarat.

Əgər bizim bir-birimizə soyuqluğumuz uşaqlarımıza, onların nigaha münasibətinə, mənfi təsir göstəribsə və ya biz, ər-arvad kimi onlarda yanlış rəy yaratmışıqsa, onlara yaxşı nümunə olmağımız üçün düzəlməyimizə kömək ol. Bizə öz səhvlərimizi cəsarətlə boynumuza almağı və həyatımızın dəyişilməsi arzusunu ifadə etməyi öyrət.

Qoy qayğı və məşğulluq, bizim üçün, bir-birimizə qarşı marağın itirilməsinə səbəb olmasın; qoy biz, heç vaxt bir-birimizi təbii kimi qəbul etməmiş olmayaq; qoy bir-birimizə nəvaziş göstərməyimiz bizim üçün heç vaxt ağır olmasın. Elə et ki, məhəbbətin bu cür nümayişi bizim nigahımızı möhkəmləndirsin. Mən dua edirəm ki, biz həmişə «bir-birimizi məhəbbət öpüşü ilə salamlayaq» (1 Pet. 5:14). Mən bilirəm ki, ancaq Müqəddəs Ruhun gücü, zamanın sınağına dözə biləcək dəyişiklikləri edə bilər. Mən hər şeydə Sənə etibar edirəm və xahiş edirəm: bizə, Sən bizi görmək istədiyin ər-arvad kimi olmağa kömək et.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Beləliklə, əgər Məsihə aid olmaqdan cəsarət,
Onun məhəbbətindən təsəlli almışsınızsa,
əgər Ruha şəriksinizsə, şəfqət və mərhəmətiniz varsa,
mənim sevincimi tam edin; eyni fikrə,
eyni məhəbbətə malik olun, həmrəy və həmfikir olun;

*Filip. 2:1–2*

Beləcə ərlər də öz arvadlarını öz bədənləri
qədər sevməlidirlər. Öz arvadını sevən özünü sevir.
Çünki heç kim, heç zaman öz bədəninə nifrət etməmişdir,
lakin Rəbb cəmiyyəti etdiyi kimi,
onu yedirir və bəsləyir,

*Ef. 5:28–29*

Hər kəs yalnız öz mənfəətini deyil,
başqalarının da mənfəətini güdsün.

*Filip. 2:4*

Sevgilim sol əlini başımın altına salır,
Sağ əli ilə məni qucağına alır.

*Nəğ. Nəğm. 2:6*

Hər kəs özünün mənfəətini deyil,
başqasınınkını da axtarsın.

*1 Kor. 10:24*

# 6 FƏSİL

# ONUN İMTAHANLARI

Bizim nigahımızın ilk günündən, mən Allahdan diləyirdim ki, bizi Maykl ilə mümkün ola bilən imtahanlardan qorusun. Mən bilmirəm, bizlərdən birimizin, digərinə şübhəyə səbəb verməməsi bunun nəticəsi idi, yoxsa özümüzü həmişə təmizlikdə saxlamağa səy göstərməyin. Yenə də, mən əminəm: bu işdə daha böyük rolu bizim insani səyimiz oynamadı, Allahın bizim nigahımızı qoruması oynadı, baxmayaraq ki, hər ikisi vacib idi.

Mən bir neçə ər-arvad tanıyıram ki, həyatlarında zinakarlıq yer tuturdu, lakin arvadın dua etmək arzusu və ərin, dəyişilib və öz nigahını qorumaq üçün ürəyini Allaha açmaq arzusu nəticəsində, bu ər-arvad ittifaqı yaşayır və çiçəklənir. Belə möcüzələri, ancaq müti ürəyin duası ilə birlikdə, Müqəddəs Ruhun yenidən dəyişdirən gücü yaratmağa qadirdir.

Mənim rəfiqələrimdən birinin əri, onlar boşanmamışdan qabaq, o hər dəfə arvadının ən yaxşı rəfiqələrindən biri ilə zinakarlıq edirdi. Mən, ondan «dost» seçəndə nəyi əsas götürdüyü ilə maraqlandım, amma mən ondan bir dəfə də olsa, onun ürəyinin nə dərəcədə Allaha sadiq olması və onun özünün duaya nə dərəcədə ciddi

münasibət göstərməsi barədə soruşmadım. Mən bilirəm ki, o dua edirdi. Ancaq, Müqəddəs Ruhun səsini eşitmək istəməyən ürək üçün nə qədər dua etsən də, o dəyişilməyəcək.

Sınaqlar bizi hər yerdə gözləyir və belə düşünmək səfehlik olardı ki, bizim ərlərimiz bu və ya digər şirniklənmələrdən zəmanət edilib. Müqəddəs Kəlam deyir: «…insanın da gözü doymaz» (Sül. Məs. 27:20). Əgər bu doğrudursa, imtahan olunmaq mümkünlüyü həmişə realdır və biz həmişə sayıq olmalıyıq. Bəziləri spirtli içki, narkotik ilə başdan çıxırlar, başqaları pula və hakimiyyətə həris olurlar, digərləri isə acgözlük və ya pornoqrafiyaya aludəçilik ilə günah edirlər. Düşmən bizim zəif yerlərimizi bilir və bizim üçün tələlər düzüb qoyur. Məsələn, bizim yolumuzda başdan çıxaran şeylərin olub olmaması yox, lakin bunlarla biz görüşəndə özümüzü necə aparmağımızdadır. Bu vəziyyətdə mən bir əlac məsləhət görürəm — dua. Ola bilsin ki, dua, insanı artıq qərara gəldiyi hərəkətdən mühafizə etməsin, lakin o, imtahan edənin səsini boğub və onun hücumlarına qarşı müqaviməti gücləndirə bilər. O, insana düzgün seçimə yol göstərə bilər.

Müqəddəs Kəlam deyir ki, Allah bizi imtahan etmir, bizi bizim arzularımız imtahan edir. Məhz onlar bizi günaha aparıb və nəticədə məhv edirlər. Amma, «İmtahana dözən adam xoşbəxtdir. Çünki sınaqdan uğurla çıxarkən, Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaqdır» (Yaq. 1:12). Allaha məqbuldur ki, biz imtahanlardan keçək, çünki O, bizi xeyir-dualandırmaq istəyir. Ancaq, O, bilmək istəyir ki, biz öz bədənimizin ehtirasları əvəzinə, Onun yollarını seçmək dərəcəsində etibar edirikmi. Əgər biz, bütün qəlbimizlə, ancaq Onu axtarıb və kömək üçün Ona müraciət ediriksə, O, həmişə bizə çıxış göstərəcək.

Xoşagəlməz hadisələr baş verməzdən qabaq, dua etməyə başlamaq lazımdır. İsa, Öz şagirdlərinə dua etməyi həvalə edib ki, «imtahana uğramasınlar» (Lk. 22:40), diqqətli olsunlar, çünki «...ruh qeyrətli, bədən isə zəifdir» (Mk. 14:38). Əgər sənin ərin, imtahanla

mübarizə dövrünü keçirsə, dua et ki, onun hər şeylə bölüşə biləcəyi və duaları onun üçün böyük dayaq olan, səmimi imanlı dostları tapılsın. Allahın və başqa imanlıların qarşısında səmimi etiraf kimi başqa heç nə, imtahanın gücünü maksimum zəiflədir. Təəssüflər olsun ki, bir çox kişilər öz sınaqları barəsində həvəssiz danışırlar və bununla özlərini onlardan müdafiə olunmaqdan məhrum edirlər.

Əgər bütün dualardan sonra ərin imtahana uğrayıbsa, özünü təqsirkar sayma, çünki qərarı, o qəbul edib. O, seçim edib və ruhun yox, bədənin yolu ilə gedib. «Mən isə deyirəm: Ruha görə hərəkət edin və siz cismani təbiətin arzusunu əsla icra etməzsiniz. Çünki cismani təbiət Ruha zidd və Ruh cismani təbiətə zidd olanı arzu edir; onlar bir-birinə qarşı dururlar ki, istədiyinizi edə bilməyəsiniz» (Qal. 5:16-17). Ərinə görə dua etməyi saxlama. O, neçə dəfə sınağa düşsə də, yadda saxla ki, Allah bilir onu necə xilas etmək mümkündür, sən isə Rəbbin iradəsi ilə, ərinə bu xilas yolunu tapmağa kömək edə bilərsən. Əgər sənin nigahın bu fəlakətdən azaddırsa, Allaha minnətdar ol və dua et ki, heç nə dəyişilməsin.

## *Dua*

***Ya Rəbb***, mən Sənə dua edirəm ki, Sən mənim ərimə, onun yolunda olan hər bir imtahana qarşı durmağa güc verəsən. Onu ləyaqətsiz fikirlərdən azad et ki, bu fikirlər onun ürəyinə çatıb və əməllərində həyata keçməsin. Onu imtahana çəkmə, lakin onu, zinakarlıq, parnoqrafiya, narkotik, alkoqol, acgözlük və qumar oyunları kimi şərdən xilas et. Xüsusən onu (konkret imtahana çəkən günahın adı) qoru. Onun ruhunun zəif olduğu yeri möhkəmləndir. Ona həyatındakı əlçatmaz qalalara bənzəyən, çətinliklərin öhdəsindən gəlməyə güc ver. Qoy, o bəyan etsin: «İyrənc şeylərdən

gözümü çəkəcəyəm. Azğınların işlərinə nifrət edirəm, qoymaram məndən yapışsın» (Zəbur 101:3).

Ata, Sən dedin: «Nəfsini saxlaya bilməyən dağılmış, hasarsız şəhərə bənzəyir» (Sül. Məs. 25:28). Mən dua edirəm ki, onu (ərinin adı) şər qüvvə dağıtmasın, amma ya Rəbb, Sənin qüvvən qoruyub saxlasın. Onun ətrafında müdafiə divarını çək. Onu, Öz Ruhun ilə doldur və Səndən olmayan hər nə varsa qov. Onun iradəsini gücləndir və onun üçün şirnikləndirici olan, hər bir şeyə qarşı durmağı ona öyrət. Qoy o, «pislikdən ikrah etsin» və «yaxşılığa sarılsın» (Rom. 12:9). Onu başdan çıxaran şeylərdən ayır, onlara qarşı durmağa ona mətinlik ver, ona bədənə görə yox, ruha görə hərəkət etməyi öyrət.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

İmtahan olunan zaman, qoy heç kim: «Allah məni imtahan edir», — deməsin. Çünki Allah pisliklə imtahan olunmur və Özü də heç kimi imtahan etmir. Lakin hər kəs öz ehtirası ilə aparılaraq və aldanaraq imtahan olunur. Ehtiras isə boylu qalıb günah doğur. Yetişən günah da ölüm törədir.

*Yaq. 1:13-15*

Siz hər insanın başına gələndən başqa bir imtahana məruz qalmadınız. Allah sadiqdir; O, gücünüzdən artıq imtahan olunmanıza razılıq verməz, lakin imtahan ilə yanaşı, qurtuluşu da təmin edəcəkdir ki, tab gətirə biləsiniz.

*1 Kor. 10:13*

Gün işığında olduğu kimi ədəblə hərəkət edək; eyş-işrət və sərxoşluq, cinsi əxlaqsızlıq və səfahət, didişmə və həsədə qapılmayaq. Əksinə, Rəbb İsa Məsihlə silahlanın və cismani təbiətinizin ehtiraslarını razı salmağı düşünməyin.

*Rom. 13:13-14*

Varlanmaq istəyənlər isə yoldan çıxır və tora düşürlər və həlaka aparan bir çox mənasız və ziyanverici ehtiraslara qapılırlar.

*1 Tim. 6:9*

Cismani təbiətin əməlləri isə bəllidir: bunlar, zina, cinsi əxlaqsızlıq, murdarlıq, səfahət, bütpərəstlik, sehirbazlıq, düşmənçilik, münaqişə, həsəd, qəzəb, ehtiraslılıq, nifaq,

təfriqələr, paxıllıq, qatillik, sərxoşluq, eyş-işrətlər və buna
bənzər şeylərdir. Və sizə əvvəllər dediyim kimi,
indi də qabaqcadan deyirəm ki, bunları edənlər
Allahın Səltənətini miras almayacaqlar.

*Qal. 5:19-21*

# 7 FƏSİL

# ONUN ŞÜBHƏLƏRİ

Əvvəllər mən, ərimin əhvalının dəyişilməsini, onun aktyorluq temperamentinin xüsusiyyətləri ilə aydınlaşdırırdım. Bilirsiniz, istedadlı insan necə olur: gah o, şən və qayğısızdır, gah da birdən qaş-qabaqlı və əzgin olur. Ərim ruh düşgünlüyündə olanda onu belə fikirlər bürüyürdü ki, onda heç nə alınmayacaq, o, heç bir əhəmiyyəti olmayan bir adamdır, o, öz işi ilə bacarmağa qadir deyil. Belə fikirləşməyə real əsas yox idi, lakin bu cür fikirlər, onun yaradıcılığının ən uğurlu və bəhrəli anlarında da ona gəlirdi. Mən o saat başa düşmədim ki, onu incidən şübhələri, «Bu adam daha belədir də...», — deyərək onun təbiətinə aid etmək lazım deyildi. Mən həmçinin başa düşdüm ki, Maykl öz qaranlıq fikirləri ilə döyüşdə tənha olmamalıdır. Əgər o və mən bir bütövüksə, onda onun üzərinə olan hər bir hücum mənim də üzərimə olan hücumdur və mən əminliklə deyə bilərəm: «Mənim ərim eşitdiyi səs Allahın səsi deyil — bu düşmənin səsidir. Düşmənin mənim ərimi necə incitməsinə və bizim həyatımızı necə dağıtmasına mən dayanıb kənardan baxmayacağam».

Mən öz xüsusi eksperimentimi qurmaq və «iblisin hiylələrinə qarşı durmaq» (Ef. 6:11) qərarına gəlmişəm. Necə olursa olsun, Mü-

qəddəs Kəlam bizə tövsiyyə edir ki, — «Hər cür dua və niyazla, hər vaxt Ruhun idarəsi ilə dua edin. Bunun üçün tam mətanət göstərərək və bütün müqəddəslər üçün dua edərək ayıq olun» (Ef. 6:18). Aydındır ki, «bütün müqəddəslər» ifadəsi altında insanlar kateqoriyasını dərk etmək lazımdır, onların əxlaqi xasiyyətini yox və bu kateqoriyaya da mənim ərim daxildir. Bir çox aylar, ona görə edilən vəsadət dualarından sonra mən nəticələrdən heyrətə gəldim: Maykl öz fikir axınını idarə etməyi öyrəndi, bundan əlavə, duaların nəticəsində düşmənin planları həyata keçməmiş dağılırdı. Mənim ərim, mənim dualarıma nə qədər tez-tez cavab görürdüsə, bir o qədər, onun fikirlərini dolduran yalanın baş verməsini yaxşı başa düşürdü və bir o qədər də o, bu yalana inanmaq istəmirdi.

Mühazirələrlə ölkədə səyahət edərək, mən, cəmiyyətin müxtəlif təbəqələrindən olan qadınlar ilə çox danışırdım və bu problemin nə dərəcədə aktual olduğundan heyrətə gəlirdim. Əhəmiyyət etibarı ilə, o, temperamentdən və ya onların ərlərinin yaşayış şəraitlərindən asılı deyildi, çünki onların hər biri eyni mənşəli şübhələrə bürünmüşdülər. Nəhayət, mən dərk etdim ki, Allahın bütün kişilər üçün yaratdığını məhv etməyə səy göstərən düşmən var. Qadınların da üstünə həmin düşmən hücum edir, lakin kişilər daha tez yaralanırlar. Hətta ən güclü kişi belə, zəifləyə bilər, problem yükü altında əyilər, ümidsizləşər və ya onu Allahdan uzaqlaşdıran yola dura bilər. O, onun həyatında baş vermiş pis hadisələrin keçilməzliyi barədə, onu əmin edən, iblisin tələlərini həmişə görməyi bacarmır. Onun başında fikirlər eşələnir: «ümidsizdir», «hər şey pisdir», «bu ölümdür», «mümkün deyil», «hər şey bitdi» və «cəhd göstərmək nəyə gərəkdir?». Arvad dua edə bilər ki, onun əri yalanı həqiqətdən ayırd etməyi öyrənsin və bu yalanın əvəzinə o, başqa sözlər eşitsin: «ümid», «çiçəklənmə», «imkan», «uğur» və «yeni başlanğıc» — və bilsin ki, onlar Allahdandır.

Allahın kəlamı və Allaha izzət — budur, sənin ərinin əqlinə hücum edən, iblisin yalanlarına qarşı iki güclü silah. «çünki, Allahın kə-

lamı canlı və təsirli, hər cür ikiağızlı qılıncdan itidir; o, canla ruhu, oynaqlarla iliyi bir-birindən ayıracaq qədər dəlib keçir və ürəyin düşüncə və niyyətlərini ayırd edir» (İbr. 4:12). Sən Allahın kəlamını bəyan edəndə, sən bunun təsirindən öz gücünü itirən yalanı görməyə başlayacaqsan. Əgər sənin ərin bunu müstəqil edə bilmirsə, sən ona görə duada Allahın Sözünü səsləndirə bilərsən və sən müsbət nəticələr görərsən. Mən, çox belə etmişəm və mənim ərim onunla baş vermiş dəyişikliklər barəsində şahidçiliklər edə bilər. Mən həmişə Maykla xatırladıram ki, Allah ona qorxaqlıq ruhu deyil, qüdrət, məhəbbət və sağlam düşüncə ruhu vermişdir (2 Tim. 1:7). Sağlam düşüncənin onu tərk etməməsi haqda dua etməyim barədə mən ona deyirəm.

Allahı izzətləndirmək, həmçinin, güclü silahdır. Biz Onu izzətləndirəndə, biz Onun hüzuruna daxil oluruq, Onun hüzurunda isə biz şəfa tapırıq və bizim həyatımız dəyişilir. «Çünki Allahdan xəbərdar olduqları halda, Ona Allah kimi izzət vermədilər və Ona şükür etmədilər. Lakin düşüncələrində batil oldular; və onların anlayışsız ürəklərinə qaranlıq çökdü» (Rom. 1:21). Əgər sən, ərinin qaranlıq düşüncələr tərəfindən ələ keçirilməsini istəmirsənsə, onun sağlamlığı və əqlinin təmizliyinə görə Allahı izzətləndir və o vaxt, o, öz zəifliklərini dəqiq və aydın görüb onların öhdəsindən gəlməyin yollarını da görər.

Depressiya, acı kədər, qəzəb, qorxu, uzaqlıq, tənhalıq, tez hirslənmə, günah qarşısında zəiflik, müxtəlif əsəb xəstəlikləri — bütün bu naxoşluqlar başda əmələ gəlir. Əgər sən öz düşüncələrini idarə etməyi öyrənməsən, bu xəstəliklər sənin həyatını idarə edəcək. Buna görə Allah bizə öyrədir ki, biz bütün fikirlərimizi həqiqət kimi qəbul etməyək. «Pis yolla gedən, öz düşüncələri ilə hərəkət edən bütün günü dikbaş xalqa əllərimi uzadıb durdum» (Yeş. 65:2). O istəyir ki, Onun fikirləri bizim fikirlərimiz olsun, biz «Məsihin ağlına» malik olaq (1 Kor. 2:16). Dua edək ki, ərlərimiz Məsihin ağlına malik olsunlar və hər bir düşüncələrini Allaha itaət etmək üçün əsir edə bilsinlər. Bizlərdən kimin buna ehtiyacı yoxdur?

# Dua

***Ya Rəbb***, mən Səndən diləyirəm ki, mənim ərimin əqlini mühafizə edəsən. Onu iblisin yalanından qoru, Sənin səsini başqa digər səslərdən ayırmağı ona öyrət və Sənin əmr etdiyin kimi, bütün öz düşüncələrini Sənə itaət etməyə əsir etsin. Elə et ki, o, Sənin sözünə və Sənin həqiqətinə susasın və düzgün olmayan düşüncələri ayırd edə bilsin. Ona, yalana qarşı durmağa güc ver. Ona xatırlat ki, o, Məsihin əqlinə malikdir. Əgər düşmən mənim ərimi qarışığa salsa, mən düşməni, mənim ərimin əqlini təmizləməyə qadir olan, Müqəddəs Ruhun gücü ilə qovaram. Ya Rəbb, Sən mənə «…düşmənin bütün qüvvətini ayaq altında əzmək üçün səlahiyyət...» (Lk. 10:19) vermisən. Bu səlahiyyətlə mən, ərimin həyatından, bütün yalançı ruhları qovuram. Mən bilirəm ki, Allah ona (ərin adı) sağlam düşüncə və öz həyatının aydın görüntüsünü verib. Qoy onu heç vaxt natəmiz, günahlı, neqativ düşüncələr təşvişə salmasın, lakin qoy onun əqli elə yeniləşsin ki, o, Allahın yaxşı, məqbul və kamil iradəsi haqqında şahidçilik edə bilsin (Rom. 12:2).

Ona «Rəbbdə və onun üstün qüdrətində qüvvətlənməyə» kömək et (Ef. 6:10); heç nəyin qeydinə qalmasın, amma hər şeydə, dua və niyaz edərək, öz xahişlərini Sənə şükranla bildirsin ki, Sənin hər cür ağıldan üstün olan gücün Məsih İsa vasitəsilə ürəyini və düşüncəsini qorusun (Fil 4:6–7). Beləliklə, qoy o, doğru, ehtiramlı, ədalətli, pak, cazibəli, etibarlı olan nə varsa, əgər bir fəzilət və tərifə layiq bir şey varsa, bunları düşünsün (Fil. 4:8).

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Çünki cismani aləmdə hərəkət ediriksə də,
cismani təbiətə görə cəng etmirik.
Çünki cəngimizin silahları cismani deyildir,
lakin istehkamları yıxmaq üçün Allahın
qüdrətinə malikdirlər. Biz nəzəriyyələri və Allahın
biliyinə qarşı duran hər əngəli yıxırıq
və hər düşüncəni Məsihə itaət etsin deyə əsir edirik...

*2 Kor. 10:3-5*

Cismani təbiətə uyan düşüncə — ölüm,
Ruha uyan düşüncə isə — həyat və sülhdür.

*Rom. 8:6*

Lakin mən üzvlərimdə başqa bir qanun da görürəm ki, o,
ağlımın təsvib etdiyi qanun ilə mübarizə edir və
üzvlərimdə olan günah qanununa məni əsir edir.

*Rom. 7:23*

…Beləliklə, mən öz ağlımla Allahın Qanununa,
cismani təbiətimlə isə günah qanununa qulluq edirəm.

*Rom. 7:25*

Və Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla,
bütün düşüncənlə və bütün qüvvətinlə sev.

*Mk. 12:30*

# 8 FƏSİL

# ONUN QORXULARI

Bu dünyada çox şey bizə qorxu yeridir və ancaq səfeh bunu inkar edə bilər. Lakin, qorxu bizi ələ alanda, biz onun əsiri oluruq. Çox vaxt kişilər qorxunun asan əsiri olurlar, çünki məhz onları tez-tez belə suallar incidir: «Birdən..?». «Birdən mən lazımi qədər pul qazana bilmərəm?»; «birdən mənim arvadım və uşqalarımla nə isə baş verər?»; «birdən mən sağalmaz xəstəliklə xəstələnərəm?»; «birdən mənim biznesim dağılar?»; «birdən mən yaxşı ata ola bilmərəm?»; «birdən mən əlil olub ailəmi dolandıra bilmədim?»; «birdən kim isə məni sıxışdırmağa və ya hədə-qorxu gəlməyə başladı?»; «birdən mən qəza hadisəsinə düşərəm?»; «bəs mən ölsəm mənim qohumlarım ilə nə olacaq?». Qorxu insanı ələ keçirə (Zəbur 48:6) və məhv edə (Zəbur 78:33) bilər. Əgər insanı «böyük dəhşət bürüyübsə» (Lk. 8:37), o, Allah ilə əlaqəni itirir və Onun xeyirxah iradəsini görmür.

Evliliyimizin ikinci ilində biz Maykl ilə, bizim pastorumuz Cek Xeyford, onun arvadı Anna və kilsəmizin kiçik qrupu ilə İtaliya, Yunanıstan və İsrailə səyahətə yola düşdük. Maykl həmişə həvəssiz səyahət edirdi və biz Yunanıstana gəlib çatan anda, o, stress vəziyyətində idi. Bir dəfə axşam, bir neçə üzücü günlərdən sonra, o, demək olar ki, yalvardı:

— Mən daha bacarmıram. Mən daha burada qala bilmirəm.

— Sən nədən qorxursan? — mən soruşdum.

— Mənə elə gəlir ki, əgər mən dərhal evə qayıtmasam, mənim bütün həyatım dağılacaq.

Vaxtın gec olmasına baxmyaraq, mən pastor Cekə zəng vurub səhər getməyimiz barəsində xəbər verdim. Çox güman ki, o artıq yatağında uzanmışdı, amma o saat dedi:

— Mən indi sizə yaxınlaşacağam.

O, gələndə Maykl ona hər şeyi səmimi danışdı. Pastor Cek onu qucaqlayıb və ona Göylərdəki Atamızın onu necə böyük məhəbbətlə sevdiyi barədə danışmağa başladı.

— Sən — Allahın övladısan, — o, dedi. — Sən qüdrətli və sevən Atanın hüzurunda olarkən, heç nədən qorxmamalısan.

Pastor Cek Maykla görə dua etdi ki, o, bu səmavi məhəbbəti duya bilsin. Və Allahın mərhəmətinin belə sadə ifadəsi, Maykl üçün böyük açıqlama idi. Onun hesabına o, öz qorxusunun öhdəsindən gəlib və səyahətin sonuna qədər qrup ilə qaldı. Və yaxşı ki, belə alındı: Yerusəlimdə mən hamilə oldum və doqquz aydan sonra bizim Kristofer oğlumuz doğuldu, özü də bu, pastorumuz Cekin ad günündə baş verdi. Qorxunun, bizi idarə etməsinə icazə verməyəndə, bizimlə çox gözəl şeylər baş verir.

Səni hər hansı bir konkret problemin həlli üçün dua etməyə məcbur edən, başına gələn bir qorxudan fikir ilə, sənin iradəni iflic vəziyyətinə salan, əzab-əziyyət verən qorxu hissi arasında fərq var. Əlbəttə, sən ərinin ürəyinin Müqəddəs Ruhla dolmasının tərəfdarısan, amma onu qorxunun dağıdıcı ruhu ələ keçiribsə, sən kənarda qala bilməzsən. «Ancaq kimdən qorxmalı olduğunuzu sizə izah edirəm: Məhv etdikdən sonra cəhənnəmə atmağa qadir Olandan qorxun...» (Lk. 12:5). Bizə yaraşan yeganə qorxu, — Rəbbin qarşısında olan qorxudur.

Əgər sən Rəbb qorxusuna maliksənsə, Allah səni düşmənlərindən azad etməyə (2 Pad. 17:39), səni pislikdən qorumağa (Sül.

Məs. 16:6), Öz gözünü sənin üzərində saxlamağı (Zəbur 33:18), sənə Öz mərhəmətini göstərməyi (Lk. 1:50), sənə var-dövlət və izzət verməyi (Sül. Məs. 22:4), həyat üçün səni vacib olan hər şey ilə təmin etməyi (Zəbur 34:10), sənə Öz əhdini açmağı (Zəbur 25:14), sənin övladlarını və nəvələrini xeyir-dualandırmağı (Zəbur 103:17), sənə tam arxayınçılıq bəxş etməyi (Sül. Məs. 14:26), sənin həyatını sakit etməyi (Sül. Məs. 19:23), səni uzunömürlülük ilə xeyir-dualandırmağı (Sül. Məs. 10:27) və sənin ürəyinin arzularını yerinə yetirməyi (Zəbur 145:19) vəd verir. Daha nə arzulamaq olar? Dua et ki, Rəbbin xeyirli və kamil məhəbbəti sənin ərini əhatə edib və onu bütün qorxulardan hifz etsin.

## Dua

***Ya Rəbb***, Sən Öz Sözündə bəyan etmisən ki, «məhəbbətdə qorxu yoxdur; əksinə, kamil məhəbbət qorxunu qovar, çünki qorxuda əzab vardır, qorxan isə məhəbbətdə kamil olmamışdır» (1 Yəh. 4:18). Mən Səndən xahiş edirəm ki, mənim ərimi Sənə olan məhəbbətdə möhkəmləndirəsən ki, onun üzərində heç bir qorxu hakim ola bilməsin. Mən bilirəm ki, Sən ona qorxaqlıq ruhu deyil, qüdrət, məhəbbət və sağlam düşüncə ruhu vermisən (2 Tim. 1:7). İsa Məsihin ismi ilə mən dua edirəm ki, qorxu bir daha onu idarə etməsin. Qoy Sənin Sözün onun varlığının hər bir hüceyrəsinə nüfuz edib və onu əmin etsin ki, Sənin məhəbbətin, onunla baş verə biləcək hər şeydən ölçülməz dərəcədə böyükdür və bu məhəbbətdən onu heç nə məhrum edə bilməz.

Mən Səndən xahiş edirəm: ona Səndə, məhəbbəti heç vaxt aldatmayan, qüdrətinin bərabəri olmayan və hüzurunda qorxacağa bir şey olmayan, Atanı görməyə kömək edəsən.

Onu dağıdıcı qorxudan azad et və Rəbb qorxusu ilə doldur (Yer. 32:40). Ya Rəbb, onu Öz yoluna qoy. Ona, «Sənin həqiqətində yeriməyə» kömək et. Onun ürəyini «Sənin isminin qorxusunda» möhkəmləndir (Zəbur 86:11). Qoy onun insanlar qarşısında qorxusu olmasın ki, o, əminliklə və cəsarətlə deyə bilsin: «Rəbb mənə yardımçıdır, mən qorxmaram; insan mənə nə edə bilər? (İbr. 13:6) Xeyirxahlığın nə qədər böyükdür! Bunu Səndən qorxanlar üçün saxladın...» (Zəbur 31:19).

Mən ona (ərin adı) deyirəm: «„Cəsarətlənin, qorxmayın! Budur, Allahınız İntiqam almaq, düşmənlərindən qisas almaq üçün gəlir. O gəlib sənə qurtuluş verəcək“ (Yeş. 35:4). „Salehliyində möhkəmlənəcəksən, zülmdən uzaq olacaqsan, qorxmayacaqsan. Qorxu hissi səndən uzaq olacaq, sənə yaxınlaşmayacaq“ (Yeş. 54:14). „Nə gecənin kabusundan, nə də gündüz atılan oxdan, nə zülmətdə dolanan ağır xəstəlikdən, nə də günorta məhvedici qırğından qorxmazsan“ (Zəbur 91:5-6). Qoy sənin üzərində „Rəbbin Ruhu, hikmət və anlayış ruhu, öyüd-nəsihət və qüdrət ruhu, bilik və Rəbb qorxusu ruhu“ olsun və sən „Rəbb qorxusu“ (Yeş. 11:2-3) ilə dolasan».

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Rəbbdən qorxanları Onun mələyi müdafiə edər,
onlara zəfər verər.

*Zəbur 34:7*

Rəbbə üz tutdum, O mənə cavab verdi,
O hər bir dəhşətdən məni xilas etdi.

*Zəbur 34:4*

Qaranlıq dərədə gəzsəm belə, şərdən qorxmaram,
çünki Sən mənimləsən, Sənin əsan,
Sənin dəyənəyin mənə təsəlli verir.

*Zəbur 23:4*

Qorxma, çünki Mən səninləyəm, dəhşətə gəlmə,
çünki Allahın Mənəm. Səni qüvvətləndirəcəyəm,
sənə kömək edəcəyəm. Sadiq sağ əlimlə sənə dayaq olacağam.

*Yeş. 41:10*

Rəbbdir nurum, qurtuluşum! Mən kimdən qorxum?
Rəbbdir ömrümün qalası, mən kimdən vahimələnim?

*Zəbur 27:1*

## 9 FƏSİL

# ONUN MƏQSƏDLƏRİ

Bizim hər birimizin məqsədlərimiz var. Biz elə buna görə də yaşayırıq. Bu, bizim missiyamız və təyinatımızdır. Ümumiyyətlə, biz Allahı izzətləndirib və Onun iradəsini yerinə yetirmək üçün yaşayırıq. Bunu öz həyatımızda necə etməyimiz — hər birimizin şəxsi işimizdir. Sənin ərin, öz yaşamağının məqsədini mütləq bilməlidir; başa düşməlidir ki, onun həyatı — təsadüf deyil və o, yer üzündə hər hansı bir təyinatla yaşayır. O, əmin olmalıdır ki, təyin olunmuş məqsədlə yaradılıb. Və əgər o, öz təyinatını anlayıb və çağırıldığı iş ilə məşğul olmağa başlasa və olmalı olduğu kəs olsa, onda o, tükənməz həyat mənbəyini tapacaq. Bu səni də xoşbəxt edəcək.

İyirmi beş illik ailə həyatı dövründə, mənim öyrəndiyim əsas həqiqətlərdən biri budur ki, arvad, ərini kimsə və ya necəsə olmağı məcbur edərək, təzyiq etməməlidir, — o, ancaq, ərinin belə olması barədə dua edə bilər. Allahın ondan Özünə, başqa heç kəsə, məqbul olanını yapmaq haqqında dua etmək, arvadın iqtidarındadır. Ancaq ərin belə olub — olmayacağı, təkcə ondan asılıdır, o, ürəyini Allaha açıb və ona yönəlmiş göylərin çağırışını dinləməyə razı olacaqmı, o «bizə Məsih İsada bəxş edilən, əməllərimizə görə deyil, Öz məqsədinə

və lütfünə görə bizi xilas edib, çağıran» (2 Tim. 1:9) səsə qulaq asacaqmı. Sənin ərin Məsihdə «Öz iradəsinin qərarına görə, hər şeyi icra edən Allahın məqsədinə əsasən» (Ef.1:11) mirasa nail olub. Lakin sən, dua etməyə çağırılmısan ki, o, Allahın bu çağırışını eşitsin və bütün işlərini Allahın düşündüyü ilə ciddi uyğunluqda icra etsin.

Əgər insan, Allahın əhdləri ilə razılıqda yaşamırsa, bu həmişə hiss olunur: sən onun narahatçılığını hiss edirsən. Səndə belə hiss olur ki, elə bil onunla nə isə qaydasında deyil, amma məhz nəyin qaydasında olmadığını deyə bilmirsən. Əgər sənin yanında, öz təyinatını icra edən insan varsa, sən onda öz çağırışını dərindən anlamalı, daxili əminlik və əzmkarlıq görürsən. Bəs sənin ərin necə yaşayır? Onun həyatla məqsədsiz və məyus avaralanması səni narahat edirmi? Əgər edirsə, onda dua et: «Ya Rəbb, mənim ərimi bu vəziyyətdən çıxart, ona Öz fikrini aç və yeni gözlənilən şeyləri göstər».

Bu dua, sənin ərinin həyatının vəziyyətinin o saat dəyişilməsinə zəmanət vermir. Belə də ola bilər, amma çox vaxt başqa şey baş verir — onun niyyəti dəyişir. Mənim dostum var, Deyvid. O, çox illərdir ki, aviazavodda işləyir. Allahın səsini eşidərək, o, Onun, ona yönəlmiş, — aztəminatlı ailələrdən olan, çətin yeniyetmələrə kömək etmək çağırışını başa düşdü. O, həmçinin anladı ki, bununla yanaşı o, öz işini də buraxmalıdır. Onun məvacibi ailəsini təmin etməyə kifayət edirdi. Və belə alındı ki, onun ixtiyarında, yeni işi icra etməyə kifayət edən qədər vaxt qalıbmış. Deyvid belə ailələr üçün pulsuz naharlar, sosial müdafiəsiz yeniyetmələr üçün konsertlər, xilas olmamışlar üçün məsihçi missiyalar və hətta rəqabət aparan kriminal qruplar arasında danışıqlar təşkil edirdi. O, əlindən gələn hər şeyi etdi ki, düşmənçiliklə parçalanan bu şəhərdə sülh bərpa etsin. Bu çox çətin işdir, lakin bu onun həyatını məna ilə doldurur. O, nə üçün yaşadığını bilir, bunu isə onun yanında olarkən hiss etməmək mümkün deyil. Zahirən bu ən sadə, heç də güclü olmayan insandır, ancaq o, ruhani nəhəngdir və onda Müqəddəs Ruhun gücü vardır.

Deyvidin arvadı Prissilla onun çağırışını bilir və bacardığı hər bir şeylə ona kömək edir.

Allah sənin ərini nəyə çağırmış olsa da, O, sənin həyatının mənasını o şeydə görür ki, sən öz ərini dəstəkləyib və onun işlərində — istər dua vasitəsilə, ilhamlandırıcı sözlərlə və ya hər hansı bir üsul vasitəsilə iştirak edəsən. Bəzi qadınlar üçün bu kömək, səliqəli ev ocağı yaratmaq, uşaqları tərbiyələndirmək, öz ərini daima dua ilə dəstəkləmək ilə məhdudlaşır. Digər qadınlar isə, öz ərlərinin onların biznesində əməkdaşları və ya onların aktiv köməkçiləri ola bilərlər. Hər halda, Allah, sənə burada özünü şəxsiyyət kimi göstərmək imkanından etiraz etmir. Rəbb bu işdə sənə bu şərtlə konkret rol ayırar ki, bu rol sənin ərinin çağırışı ilə tam harmoniyadadır və onun təyinatına qarşı deyil. Allah, nizam-intizamsızlıq, dolaşıqlıq, konfliktlər və sizin üçün xoşagəlməz vəziyyətlər yaradanı ola bilməz. Rəbb, hər şeyin öz vaxtını təyin edir. Bizlərdən hər birimiz öz təyinatımızı, ancaq Rəbbin təyin etdiyi vaxtda yerinə yetirə bilərik.

Əgər sənin ərin, onun qarşısında Allah tərəfindən qoyulmuş məqsədə tərəf artıq hərəkət edirsə, əmin ola bilərsən ki, düşmən ona şübhə toxumu səpməyə gecikməyəcək — xüsusən əgər o, qarşıdakı öz uğurunun aydın şəklini hələ görmürsə. Sənin duaların ərinə, şübhələrin əsarətindən azad olmağa, Allahı eşitməyə kömək edər və Allahın yolundan möhkəm tutmağı öyrədər. Onlar onun həyatını mənalı edəcək.

## *Dua*

***Ya Rəbb***, mən dua edirəm ki, o (ərin adı) Sənin çağırışını aydın eşitsin. Ona, Məsihdə kimdirsə, o kəs olmağa kömək et və həyatının böyük məqsədini ona göstər. Qoy onun əqli, Sənin ona verdiyin çağırışın ümidinin anlayışı ilə nurlansın (Ef. 1:18).

Ya Rəbb, Sən bizi çağıranda, Sən bizə güc verirsən. Mənim ərimi öz çağırışına layiq yaşamağı və Sənin onun üçün təyin etdiyin Allah adamı olmağı öyrət. Bu çağırış haqqında daima ona xatırlat və Sənin tərəfindən qoyulmuş məqsəddən, ona dönməyə icazə vermə, onu başqa şeylərlə məşğul olmağa qoyma. Hər bir şübhəni dağıt ki, onlar onu qul edə bilməsin. Onu, var olan vəziyyətlərdən yüksək olmağı və Sənin onu nə məqsədlə yaratdığın məqsədi görməyi öyrət. Ona, Sənin tərəfindən təyin vaxtı gözləməyə səbr ver. Mən dua edirəm ki, onun ürəyinin arzuları Sənin iradəndən ayrılmasın. Qoy o, həmişə Sənin idarəçiliyini axtarsın və qoy onun qəlbi Sənin hər sözünü həssaslıqla qəbul etsin.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

…hər kəsin Allahdan öz ənamı vardır — birininki belə,
digərininki başqa cür.

*1 Kor. 7:7*

Ancaq hər kəs, Allahın ona təyin etdiyi kimi,
Rəbbin çağırışına uyğun olaraq hərəkət etsin.

*1 Kor. 7:17*

Buna görə biz, daim sizin üçün dua edirik ki,
Allahımız sizi Öz dəvətinə layiq saysın və Öz qüdrəti ilə
yaxşılıq üçün hər arzunuzu və imandan asılı hər əməlinizi
yerinə yetirsin...

*2 Salon. 1:11*

Dua edirəm ki, Rəbbimiz İsa Məsihin Allahı, izzətli Ata,
sizə Onu tanımaq üçün hikmət və vəhy ruhunu versin və
ürəyinizin gözlərini nurlandırsın ki, sizi dəvət etmiş olduğu
ümidin nə olduğunu, Onun müqəddəslər üçün mirasının
izzətli zənginliyinin nə olduğunu, və Onun iman edən bizlər
üçün təsirli olan qüdrətinin hədsiz böyüklüyünün
nə olduğunu biləsiniz.

*Ef. 1:17–19*

O (Rəbb) səni ürəyinin istəyinə çatdırsın,
Hər bir niyyətini yerinə yetirsin!

*Zəbur 20:4*

## 10 FƏSİL

# ONUN QƏRARLARI

Bir dəfə mənim ərim mənə heç bir söz demədən, bir sazişin bağlanması barədə danışığa başladı. Mən hər şeyin barəsində, iş tam sürəti ilə gedəndə xəbərdar oldum. O vaxtdan mən rahatlığımı itirdim. Bəli, fikir həqiqətən gözəl idi və Mayklın planları da möhtəşəm idi, amma mən həyəcan və narahatçılıq hisslərindən azad ola bilmirdim. Və mən daha çox dua etdikcə, bir o qədər məndə bu hiss möhkəmlənirdi. Mən bu haqqda ərimə söyləyəndə, o ancaq, mənə belə cavab atdı: «Sən inanmırsan ki, mən düzgün qərar qəbul etməyə bacarıqlıyam». O, mənə anlatdı ki, öz işini davam etmək fikrindədir və kiminsə ona mane olmasını istəmir.

Mənə, ancaq dua etmək qalırdı. Yenidən və yenidən mən Allaha müraciət edirdim: «Ya Rəbb, mənim nədə səhv etdiyimi mənə göstər. Mən istərdim ki, Maykda hər şey alınsın, axı fikir özü yaxşıdır. Lakin, əgər mənim hisslərim məni aldatmırsa, Maykla etdiyi səhvi ona aç ki, o, vaxtında sazişin bağlanma işini saxlasın. Həqiqəti ona aç və qoy, bu saziş baş tutmasın».

Səhər saat on birdə, sazişin imzalanmasına bir az qalmış, Mayklın gözləri birdən açıldı və o, qarşı tərəfin həqiqi səbəblərini üzə

çıxaran bir sıra detalları gördü. Rəbb ona həqiqəti açdı və saziş bağlanmadı. Maykl üçün, öz səhvini etiraf etmək necə çətin olsa da, pis hadisənin ondan yan keçməsinə o, sevinirdi.

Bir müddət sonra, bu kitabın üzərində işləyərkən, mən ərimdən mənim dualarımın hər hansı bir təsirini, onun hiss etməsi barədə soruşdum və ilk növbədə o dedi ki, onlar ona düzgün seçim etməyə kömək edirdilər. «Ciddi qərarların qəbul etmək vaxtı gələndə və mən seçim etməli olarkən, sənin duaların mənim gözlərimi açıb və məni, sonrasında böyük pis hadisələrlə nəticələnən şübhəli sazişlərin bağlanmasından qoruyurdu».

Biz yadda saxlamalıyıq ki, bütün kişilər özlərinin haqlı olduqlarında əmindilər: «İnsanın yolu öz gözündə düz sayılar...» (Sül. Məs. 21:2). Lakin, təkcə Allah bizə müdriklik bəxş edə, həqiqəti yalandan ayıra bilən bacarığı verə bilər, əgər biz, əlbəttə Ondan bunu istəyiriksə. Hikmət uğur gətirir (Vaiz 10:10) və başqasının təcrübəsinə diqqət yetirməyi öyrədir (Sül. Məs. 15:31). Biz öz ərlərimizi hikmətli görmək istəyirik.

Hikmətin əksi, aydın olduğu kimi, axmaqlıqdır. Müqəddəs Kəlam, axmaq insanı «öz ağlına güvənən» (Sül. Məs. 28:26), «ağıllı sözlərə» xor baxan (Sül. Məs. 23:9), dinləmək istəməyən, ancaq «fikrini ortaya tökməyi sevən» (Sül. Məs. 18:2), kimi təsvir edir. Başqa sözlə, onunla danışmaq çətindir, o, həmişə münaqişəyə meyl edir (Sül. Məs. 20:3); onu başa salmağa çalışmağın cavabına isə o, ancaq əsəbiləşir (Sül. Məs. 14:16). Axmaq, öz hərəkətlərinin nəticələrini hər tərəfli düşünüb götür-qoy etmək bacarığına malik deyil və buna görə düzgün seçim edə bilmir. Əgər sənin belə ərin varsa, dua et ki, o, hikmət əldə etsin.

Əgər sənin ərin hərdən səfehlik edirsə, onu ifşa etməyə çalışma. Müqəddəs Kəlam deyir: «Rəbb qorxusu hikmətin başlanğıcıdır, Müqəddəsi tanımaq idraklı olmaqdır» (Sül. Məs. 9:10). Bu, sənə nədən başlamaq lazım olduğunu göstərir, — sən, hər şeydən əvvəl,

dua etməlisən ki, Rəbb qorxusu, sənin ərinin ürəyində yaşasın, o, Allah ilə məsləhətləşməyi öyrənə bilsin: «Pislərin məsləhəti ilə getməyən, …insan nə bəxtiyardır» (Zəbur 1:1). Əgər sən daima, sənin ərinin müdrik olması və Allahı eşidib və qulaq asması barədə dua etsən, o hətta, düzgün qərar qəbul etməsə də, sənin qəlbində sülh hökm sürəcək, çünki sən öz borcunu yerinə yetirirsən və bilirsən ki, nəticədə Rəbb hər şeyi xeyirə çevirəcək.

Bizim həyatımız çox şeydə, ərlərimizin qəbul etdiyi qərarlardan asılı olur. Beləliklə, hikmətli olaq və dua edək ki, onların qərarları həmişə düzgün olsun.

## *Dua*

***Ya Rəbb***, mənim ərimin ürəyini Rəbb qorxusu ilə doldur və ona düzgün qərarlar qəbul etməyi öyrət. Qoy onun ürəyi Sənə dönsün və Sənin həqiqətinə susasın. Ona, Sənin əmrlərinə əsasən hərəkət etməyi və Sənin iradənlə üst-üstə düşən seçimi etməyi öyrət və onu düşünülməmiş hərəkətlər etməkdən qoru. Ona hikmət bəxş et ki, o, öz səhvlərini görə bilsin və onlardan yan qaçsın. Onun gözlərini aç ki, o, öz hərəkətlərinin nəticəsini görə bilsin.

Mən dua edirəm ki, mənim ərim salehlərin məsləhətinə qulaq assın, öyrənib və dəyişilməyə hazır olsun. Qoy o, heç vaxt pislərin yalanına qulaq asmasın, lakin təkcə Sənin öyrətməni yüksək tutsun. Mən bilirəm ki, «insanın qəlbində çox amal var, amma Rəbbin niyyəti həyata keçər» (Sül. Məs. 19:21). Ona hətta yuxuda da (Zəbur 16:7), səhər də ağıl öyrət ki, o, doğruya uyğun hərəkət edib və cismani təbiətinin çağırışının ardınca getməsin. Mən bilirəm ki, «bu dünyanın müdrikliyi», ya Rəbb, Sənin gözlərində ağılsızlıq-

dır (1 Kor. 3:19). Qoy o, heç vaxt bu sınağa tabe olmasın, qoy onun gözləri həmişə Sənə zillənsin, qulaqları isə Səni eşitmək üçün həmişə açıq olsun.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Qoy hikmətli qulaq asıb müdrikliyini artırsın,
dərrakəli adam sağlam məsləhət alsın.

*Sül. Məs. 1:5*

Öz gözündə özünü hikmətli sanma,
Rəbbdən qorx, şərdən çəkin.

*Sül. Məs. 3:7*

Rəbb qorxusu bilik mənbəyidir,
amma səfehlər hikmət və tərbiyəyə xor baxar.

*Sül. Məs. 1:7*

O vaxt məni çağıranlara cavab verməyəcəyəm,
səylə axtarsalar da, məni tapa bilməyəcəklər.
Çünki onlar biliyə nifrət etdilər, Rəbbdən qorxmaq istəmədilər,
nəsihətimi istəmədilər, hər məzəmmətimi rədd etdilər.

*Sül. Məs. 1:28-30*

Kim ki, ağlın yolundan çıxar, ölülər arasında uyuyar.

*Sül. Məs. 21:16*

# 11 FƏSİL

# ONUN SAĞLAMLIĞI

Mənim ərim öz sağlamlığı haqqında illərlə maraqlanmırdı. Mən ona bu mövzuda dəfələrlə öyüd-nəsihət verib çox əhəmiyyətli söhbətlər aparırdım, görünən yerlərdə xüsusi jurnal məqalələri qoyurdum, ona yalvarırdım və ağlayıb, oxşayırdım ki, dul qalmaq istəmirəm. Amma, hər şey əbəs yerə idi — onun gözləri məni görmürdü, qulaqları isə eşitmirdi. Ancaq bir dəfə mənim ağlıma bir gözəl fikir gəldi: əgər dua, onun həyatının başqa sahələrində təsir edirsə, bəs nə üçün o, burada təsirli olmasın? Mən, öz adəti üsuluma, «susub və dua etmək» və Allahdan Mayklın beyninə, müntəzəm olaraq bədən tərbiyəsi ilə məşğul olmaq fikrini salmağı xahişinə əl atmaq qərarına gəldim. Bir neçə aylıq dua heç bir nəticə vermədi, lakin bir səhər, mən qonşu otaqdan gələn səs eşitdim və ora baxanda, təəccüb içində donub qaldım: ərim trenajorda məşq edirdi. Mən onda ona heç nə demədim. O vaxtdan o, trenajorda məşq edir və həftədə üç dəfə qantel qaldırırdı. Sonra o, mənə deyəndə ki, özünü çox yaxşı hiss edir və təəssüf edir ki, bunu əvvəllər etməyib, özümü güclə, «mən axı sənə deyirdim», deməkdən saxlaya bildim. Bu günə qədər Maykl bilmir ki, bu möcüzəni mənim duam etdi.

Ərinin sağlamlığına, onun yaşından və fiziki vəziyyətindən asılı olmayaraq, nə isə öz-özündən alına bilən bir şey kimi baxma. Dua et ki, o öz qayğısına qala bilsin, o, xəstələnəndə isə onun şəfası üçün dua et. Mən şəfa haqqında öz dualarıma o qədər cavab almışam və başqa insanların şəfasının o qədər çox sayda şahidi olmuşam ki, mənim şübhə etməyə heç bir əsasım yoxdur ki, Rəbb, bu gün də Müqəddəs Kəlamın dövründə olduğu kimi şəfa verir və gələcəkdə də beləcə şəfa verəcək. Mən inanıram ki, «…sizə şəfa verən Rəbb Mənəm» (Çıx. 15:26), deyən Allah, — məhz bunu nəzərdə tuturdu. Mən, «Ya Rəbb, mənə şəfa versən, mən sağalaram...» (Yer. 17:14), deyərək bəyan edən, Yeremyanın imanını bölüşürəm. Mən vədə inanıram: «...Mən səni yenə sağaldacağam, yaralarına şəfa verəcəyəm...» (Yer. 30:17).

İsa, «bizim naxoşluqlarımızı Özünə götürdü və xəstəliklərimizi Özü daşıdı» (Mat. 8:17); O, Öz şagirdlərinə «...hər növ xəstəliyi və hər cür naxoşluğu sağaltmaq səlahiyyətini onlara verdi» (Mat. 10:1). O, dedi: «İman edənləri isə bu əlamətlər müşayiət edəcəkdir: ...xəstələr üzərinə əllərini qoyacaqlar və onlar sağalacaqlar» (Mk. 16:17-18). Mən düşünürəm ki, Allah bizə olan Öz böyük mərhəməti naminə, hər vaxt bizi şəfalandırır; yeganə, nə mane ola bilər şəfaya, — bizim şübhələrimiz (Mt. 9:22).

Mənim ərim mənə deyirdi ki, o, öz üzərində mənim dualarımın təsirini ən çox 80-ci illərin ortalarında, həkimlər onda, onların fikri ilə, ərim üçün pis nəticələnə biləcək bir neçə bərkimiş yeri təyin etdikdən sonra hiss edirdi. Biopsiya keçirildi. Analizlərin nəticələrini gözləmə günləri, Maykl üçün ağır sınağa çevrildi, lakin mənim dualarım, onun etirafına görə, ona, şişlərin pis nəticəli təbiətinə olan şübhələr təsdiq olmayan ana qədər, ona güc verirdi. Bu şişləri ondan kəsib götürdülər və problem bir daha olmadı.

Yadda saxlamaq lazımdır ki, bizim dualarımıza və imanımıza baxmayaraq, işin nəticəsi və şəfa almağın vaxtı Allahın hakimiyyətindədir. Deyilir ki, «sağalmağın öz vaxtı» (Vaiz 3:3) var. Əgər

sən dua edirsən, ancaq heç nə dəyişilmirsə, özünü məzəmmət etmə, çünki Rəbb, bəzən insanın fiziki xəstəliklərini, onu Özünə qulaq asmağa məcbur etmək üçün istifadə edir. Dua etməkdə davam et, amma yadda saxla ki, son sözü demək Rəbbin ixtiyarındadır.

Həmin hadisə, biz kiminsə həyatının xilası barədə dua edərkən də baş verir, çünki insanın yer üzündə nə qədər yaşamasını biz təyin etmirik. Müqəddəs Kəlam deyir ki, «ölməyin öz vaxtı» (Vaiz 3:2) var və bu vaxtı biz yox, lakin Allah təyin edir. Biz ancaq bununla razılaşmalıyıq. Biz dua edə bilərik, amma qərar qəbul etmək Onun işidir. Biz deyingənlik göstərmədən Onun bu hüququnu qəbul etməliyik. Ərinin sağlamlığına görə dua et, ancaq işin nəticəsinin qərarını, Allahın ixtiyarında olduğunu etiraf et.

## *Dua*

***Ya Rəbb***, mən Səndən diləyirəm: Öz şəfaverici əlin ilə ona (ərinin adı) toxun. Qoy onun bədəninin sağlamlığı Sənin düşündüyün kimi olsun. Pozulmuş hər bir yeri bərpa et, onu hər bir xəstəlikdən şəfalandır, onu hər bir naxoşluqdan azad et. Onun sağlamlığını elə möhkəmləndir ki, o, öz işini uğurla icra edə bilsin; qoy onun yuxusu sağlam olsun ki, o, həmişə yeni qüvvə ilə gümrah oyansın. Ona sağlam və güclü ürək ver.

Mən dua edirəm ki, onun həmişə öz bədəninin qayğısına qalmaq, düzgün qidalanmaq, müntəzəm olaraq bədən tərbiyəsi ilə məşğul olmaq arzusu olsun və ona zərər olan şeylərdən yan qaçsın. Ona, onun bədəninin, onun qorumalı olduğu, Allahın məbədi (1 Kor. 3:16) olduğunu anlamağa kömək et. Mən dua edirəm ki, o öz bədənini diri, müqəddəs, Sənə məqbul qurban kimi təqdim etsin (Rom. 12:1).

Səndən xahiş edirəm ki, onun xəstəliyi zamanı ona kömək edib və şəfa verəsən. Onu Öz sevincinlə doldur və ona güc ver. Xüsusən mən (problemin adı) görə dua edirəm. Qoy, o, belə imana malik olsun ki, deyə bilsin: «Ya Rəbb Allahım, Səni imdada çağırarkən mənə şəfa verdin» (Zəbur 30:2). Minnətdaram Sənə, Ata, çünki Sən — mənim şəfaverənimsən». Mən dua edirəm ki, mənim ərim uzun və xoşbəxt həyat yaşasın, onun ölmək saatı gələndə isə, qoy onun qəlbi sülh ilə dolsun və ölüm onun üçün yüngül, dəhşətsiz və əziyyətsiz olsun. Ya Rəbb, Sənə minnətdaram ki, Sən onu Öz məskəninə qəbul edəcəksən, amma qoy, bu Sənin təyin etdiyin vaxtda baş versin, bir dəqiqə də olsun tez olmasın.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Rəbbə alqış et, ey könlüm, unutma etdiyi yaxşılıqları:
Odur bütün təqsirlərini əfv edən, bütün xəstəliklərinə şəfa verən.

*Zəbur 103:2-3*

Dara düşərkən Rəbbə fəryad qopardılar,
Rəbb onları dərdlərindən qurtardı. Kəlamını göndərib onlara şəfa
verdi, məzara düşməkdən onları xilas etdi.

*Zəbur 107:19-20*

…Sənin duanı eşitdim, göz yaşlarını gördüm.
İndi Mən səni sağaldıram...

*2 Pad. 20:5*

Onda şəfəq kimi nurunuz saçacaq, tezliklə şəfa tapacaqsınız,
qarşınızda salehliyiniz gedəcək, Rəbbin izzəti sizə arxa olacaq.

*Yeşaya 58:8*

Yenə də bu şəhərə sağlamlıq və şəfa verəcəyəm.
Əhalisini sağaldacağam, onların tam salamatlıq və əmin-amanlıq
içində yaşamaqlarını təmin edəcəyəm.

*Yeremya 33:6*

## 12 FƏSİL

# ONUN TƏHLÜKƏSİZLİYİ

Neçə dəfə biz, döyüşçülərin böyük təhlükələr anında, döyüş meydanında möcüzəli yolla xilas olmaqları haqda əhvalatlar eşitmişik və ancaq sonra bilirdik ki, onların yaxınları o anda onlara görə dua edirdilər. Bizim ərlərimiz hər gün «döyüş meydanında» olurlar. Təhlükələr onları hər tərəfdən əhatə edir. Ancaq, Rəbb bilir ki, düşmən, qəza hadisələri, xəstəliklər, zorakılıq halında hansı məhvedici tələlər hazırlayıb. Onları təhlükə gözləməyən yer demək olar ki, heç qalmayıb, hətta bizim xüsusi evlərimiz özlərində təhlükə gizlədirlər. Lakin, Allah deyib: «Pis adam salehi güdür, onu öldürmək üçün fürsət axtarır. Rəbb salehi pisin əlinə düşməyə qoymaz...» (Zəbur 37:32–33). O, «Ona pənah gətirənlərin» (Sül. Məs. 30:5) qalxanı olmağa vəd verir. O, həmçinin bizim ərlərimizin qalxanı ola bilər, çünki biz onlara görə imanla dua edirik və bizim Rəbbə, bizim Müdafiəçimizə imanımız güclüdür.

Mən, ərim və uşaqlar harasa maşınla gedəndə, onlara görə həmişə dua edirəm. Ancaq bir dəfə səhər, Maykl kiçik oğlumuzu məktəbə aparandan bir az sonra, evimizdə zəng çalındı. «Biz indicə qəza hadisəsinə düşmüşük, — deyə ərim xəbər verdi, — amma bizimlə hər şey qaydasındadır».

Mənim Ondan neçə illər dilədiyim kimi, O, mənim qohumlarımı müdafiə etdiyinə görə, mən o saat qəza hadisəsi olan yerə getdim. Ora gələndə, mən maşının görkəmi ilə, daha doğrusu ondan qalan ilə sarsılmışdım. Mənim heç vaxt etibar etmədiyim, Mayklın kiçik idman maşını, böyük yük maşını ilə əzilib və yolun kənarındakı beton çəpərin yanına atılmışdı. Onu təmir etmək mümkün deyildi. Bunu sonra sığorta şirkəti də təsdiq etdi. Mən bilirdim ki, Mayklı və bizim oğlumuzu belə dəhşətli qəza hadisəsindən ancaq bir şey — Allahın qoruyan əli xilas edə bilərdi. Ərim və oğlum başdan ayağa qançır və cızıqlar içində idilər, lakin zədələr olduqca ciddi ola bilərdi, hətta onlar məhv də ola bilərdilər. Mən möhkəm inanıram ki, Rəbb mənim dualarıma cavab verdi və mənim yaxınlarımı qorudu (mən həmçinin ümid edirəm ki, mənim dualarım ərimə təsir göstərəcək və o, yenə bir idman avtomobili almaq fikrindən imtina edər).

Bizim dua qrupunda qadınlar müntəzəm olaraq öz ərlərinə görə, aviauçuşlarda, avtomobillərdə gedərkən, işlərində və sadəcə küçədə onların təhlükəsizliyinə görə dua edirlər. Biz duada konkret təhlükələrin adlarını çəkmirik — biz sadəcə, Rəbbdən bizim ərlərimizi hər cür şərdən qorumasını diləyirik. Rəbb vəd verir «...sənə görə mələklərinə əmr edər ki, gedəcəyin hər yerdə səni qorusun. Səni əlləri üstündə aparar, ayağına bir daş dəyməyə qoymaz» (Zəbur 91:11-12). Ancaq, bədbəxçilik hətta imanlılar ilə də baş verir və həmişə qəflətən və gözlənilmədən gəlir. Ona görə öz ərinə görə daima dua et, çünki sənin duanın ona nə vaxt, harada və hansı «döyüş meydanında» gərəkli olacağını bilmirsən. Və əgər bir şey baş vermiş olsa, sən, Rəbbi bu hadisələrin ən sıxlığına girməyə dəvət etməyinlə təsəlli tapacaqsan.

## Dua

***Ya Rəbb***, mən Sənə yalvarıram ki, Sən onu (ərinin adı) hər bir bədbəxtçilikdən, qəza hadisəsindən, xəstəlikdən və pis fəlakətlərdən müdafiə edəsən. Onu avtomobildə, təyyarədə olan təhlükədən hifz et, onu pis insanların zorakılığı və hiyləgərliyindən müdafiə et. O, harada getsə belə, onun ayaqlarını şərdən döndər. Qoy o, sarsılmadan addımlamaq üçün Sənin yolundan möhkəm tutsun (Zəbur 17:5), əgər belə şey baş versə, ona məhəbbətinlə dayaq ol (Zəbur 94:18). Ona, təhlükəni ayırd etməyə dərrakə ver və ona onun yolunda rahat gəzməyə kömək ol (Sül. Məs. 3:21, 23). Onun qayası, qalası və xilaskarı ol (Zəbur 18:2–3). Onu qanadlarının altına al (Zəbur 91:4), o sarsılmasın deyə, onun qayası, qurtuluşu və qalası ol (Zəbur 62:6). Mən dua edirəm ki, ona xətər dəyməsin (Zəbur 91:7). Odur həyatını məzara düşməkdən qurtaran (Zəbur 103:3), «indidən sonsuza qədər onun gediş-gəlişini hifz et» (Zəbur 121:8).

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Haqq-Taalanın pənahında yaşayan, Külli-İxtiyarın kölgəsində
oturan insan Rəbb haqqında belə söyləyir: «O mənim sığınacağımdır,
qalamdır, Allahımdır, Ona güvənirəm».

*Zəbur 91:1-2*

Dar gündə məni çardağında gizlər, çadırının örtüyü ilə örtər,
qaya başındakı yüksək yerə gətirər.

*Zəbur 27:5*

Qaranlıq dərədə gəzsəm belə, şərdən qorxmaram,
çünki Sən mənimləsən, Sənin əsan,
Sənin dəyənəyin mənə təsəlli verir.

*Zəbur 23:4*

Rəbb qayam, qalam, xilaskarımdır, Allahım qayamdır,
Ona pənah gətirəcəyəm, Odur qalxanım, qüdrətli qurtarıcım, qülləm.
Həm də layiq Rəbbi çağıracağam, düşmənlərimin əlindən
qurtulacağam.

*Zəbur 18:2-3*

Məhəbbətinlə Sənə sığınanlara xariqələrini göstər,
sağ əlinlə onları düşmənlərdən qurtar. Məni göz bəbəyin kimi qoru,
qanadlarının kölgəsində saxla.

*Zəbur 17:7-8*

## 13 FƏSİL

# ONUN SINAQLARI

Hamının çətin vaxtları olur və qoy bu səni çaşdırmasın. Bəzən bizim dualarımız bizə pis hallardan yan keçməyə kömək edir, bəzən isə yox. Çox vaxt bu şey, bizimlə baş verən hadisəyə olan münasibətimizdən asılı olur. Əgər qəzəb, kədər bizim ürəyimizi doldurur, əgər biz həmişə inildəyib və Allahı bizim pis vəziyyətlərimizə görə təqsirləndiririksə, onda işlər pisdir. Əgər ki, sınaqlardan keçərək, biz Allaha minnətdar olub və Ona izzət veririksə, o zaman O, kədərlərimizi bizim xeyrimizə çevirməyi vəd verir. «Ey qardaşlarım, müxtəlif imtahanlara düşəndə, bunu böyük bir sevinclə qəbul edin. Bilin ki, imanınızın sınanması təhəmmül hasil edir» (Yaq. 1:2-3).

Tamamilə mümkündür ki, bu müddətdə arvadın duaları, ərin yaşamalı olduğu yaranmış vəziyyəti dəyişdirə bilməsin. Əgər bizim həyatımızda heç bir əziyyətlər olmasaydı, təsəvvür etmək olar ki, biz necə xırdaçı, qaba və inadcıl məxluqlar ola bilərdik. Ancaq sənin duan onsuz da ərinə kömək edəcək: onda nikbin əhvali-ruhiyyəni saxlayacaq, onun ürəyində sülhü qoruyub saxlayacaq və ona səbirli, şükür edib qalmada kömək edər — və beləliklə onu, qəbul etdiyi düzgün olmayan qərarların nəticəsindən qoruyacaq.

Mənim rəfiqəm Cen dəhşətli sınaqdan keçməli olub: onun əri Deyv, zəhərli hörümçəyin dişləməsindən sonra, uzun müddət həyatla ölümün arasında ləngərləyirdi. Bu, onların hər ikisi üçün, bir-birinin ardıyca gələn, Deyvin mübarizə aparmalı olduğu, bir sıra ağırlaşmalarla, bir ildən çox çəkdi. Hər şey bir az da onunla ağırlaşırdı ki, bu ər-arvad başqa ştata təzəlikcə köçmüşdülər və qohumlarından, dostlarından və öz gəlirlərindən uzaqda yerləşirdilər. Böyük tibbi hesabların ödənməsi ilə əlaqədar onların maliyyə vəziyyətləri çox mürəkkəbləşmişdi. Məgər bu kifayət etmirdimi, qəzəblənəsən? Lakin onlar, Allahda öz qüvvələrini görərək, dua edib və Ona minnətdar olmağı dayandırmırdılar.

Cen, daimi stress vəziyyətində, göz yaşları tökərək, güclü dua edirdi ki, Deyv bu mübarizədə ümidini üzməsin, o, ruhən möhkəmlənsin və dura bilsin. Allah onları dəstəkləyirdi və Deyv sağaldı, bundan sonra onlar Allaha bol bəhrə gətirdilər. Bu gün onlar hər ikisi öz kilsələrində xidmət edirlər, onların üç uşaqları isə imanlıdılar və öz gözəl talantları ilə Allahı izzətləndirirlər. Onların həyatı Rəbbin mərhəmətinin şahidçiliyidir və mən əminəm ki, onların keçməli olduqları sınaq, onların xasiyyətinə və dünya görüşünə böyük təsir göstərdi.

Biz bunu hiss edirik, yoxsa yox, amma biz Allaha xidmət edəndə, Onun məhəbbəti bizi, həyatımızın hətta ən dərdli, tənha, ağır anlarında əhatə edir. Bizə pis olanda, O, həmişə bizim yanımızda olur; O, daima yaxşı və xeyir edir, əgər ki, biz dua edib və Onda müdafiə axtarırıq. «Bilirik ki, Allah, Onu sevənlərlə, Onun muradına görə dəvət olunanlarla bərabər hər vəziyyətdə yaxşılıq üçün fəaldır» (Rom. 8:28). Ona məqbuldur ki, biz əziyyətlərdən keçərək, Onun qarşısında mütiləşək ki, biz öz müstəqil və qürurlu «mən» liyimizi sakitləşdirək; O, bizi ürəyi yanan, səbirli, ruhani, güclü, Onun izzətini artıran, həqiqi Allah adamları görmək istəyir. O bizə, ona görə əziyyətlər göndərir ki, biz Onun məhəbbətinə, Onun bizə hər bir çətinlikdə kömək etməyə hazırlığına inanmağı öyrənək.

Mən əminliklə deyə bilərəm ki, mənim Maykl ilə birlikdə keçməli olduğum bütün əziyyətlər, bizi dolduran kədər, ağrı, çaşqınlıq və anlaşılmamazlığa baxmayaraq, bizi Allaha yaxınlaşdırırdı. Lakin, çətin vaxtlar gələndə biz odlu duaları Allaha yüksəldirdik və bizim imanımızın böyüməsini, Allahın yolunda ruhən bizim necə möhkəmlənməyimizi hiss edirdik. Biz düzgün hərəkət edəndə isə, bizim qarşılıqlı məhəbbətimiz möhkəmlənirdi.

Əgər sənin ərin sınaq dövrünü keçirsə, öz borcunu yerinə yetir — ona görə dua et, amma onun yükünü öz çiyinlərinə götürmə. Onun əziyyətlərini kəskin bölüşdürmək istəyinə baxmayaraq, onun yükünün bir hissəsini öz üzərinə götürüb və daşımağa səy göstərmə, çünki bu, ancaq sənin ərinin ruhunu zəiflədib və ona məğlubiyyət hissi gətirəcək. Bundan əlavə, Allah istəmir ki, sən, Onun iradəsinin yerinə yetməsinə mane olasan, sən özün ilə Müqəddəs Ruhu əvəz etməyə səy göstərməyəsən. Sənə ərinin əziyyətlərini görmək nə qədər çətin olsa da, işlərin gedişatına qarışmağa ixtiyarın yoxdur. Dua etmək, onu ruhlandırmaq və dəstəkləmək — budur sənin tapşırığın, çünki Allah bizə Öz məqsədləri ilə sınaqlar göndərir və sən Onun yolunda durmamalısan.

Əgər sənin ərin, maliyyə çətinlikləri, xəstəlik, məğlubiyyət, iş itirməsi, ailədə krizis keçirirsə; əgər onun çoxlu pis hadisələri varsa, onun həyatı insanlar ilə gərgin münasibətlərdən acı ilə zəhərlənirsə, — onda Müqəddəs Ruhdan dilə ki, ərinin həyatına girsin və onu dəyişsin. Ərinin diqqətini Allahın vədinin dahi mənzərəsinə yönəlt: ona xatırlat ki, bizim əziyyətlər, Rəbb tərəfindən göndərilən bütün sınaqlara layiqincə dözsək, əldə edəcəyimiz Allahın izzəti ilə müqayisədə heç nədir. «Belə düşünürəm ki, indiki müvəqqəti iztirablar bizə izhar ediləcək izzətlə heç müqayisəyə dəyməz» (Rom. 8:18). Onu həvari Pavelin gözəl sözləri ilə dəstəklə: «Məni möhkəmləndirən Məsih vasitəsilə hər şeyi etməyə qadirəm» (Fil. 4:13).

Dua et ki, sənin ərinin Allaha imanı güclü olsun və o şübhə etməsin ki, nə indiki əziyyətlər, nə gələcəkdəki sınaqlar, onu Rəbbin

məhəbbətindən məhrum edə bilməz. «Çünki mən əminəm ki, nə ölüm, nə həyat, nə mələklər, nə rəyasətlər, nə qüdrətlər, nə indiki, nə gələcək şeylər, nə hündürlük, nə dərinlik, nə də başqa məxluq bizi Rəbbimiz Məsih İsada olan Allahın məhəbbətindən məhrum etməyə qadir olmayacaqdır» (Rom. 8:38-39). Əgər onu Allahın məhəbbətindən heç nə məhrum edə bilməzsə, onda necə çətin olsa da ümid həmişə var.

Əziyyətlər, təmizləyən alov və yuyan su kimi fəaliyyət göstərir. Sən isə, istəmirsən ki, sənin ərin, onlarda yanıb və ya batsın; sən onu təmizlənmiş və yeniləşmiş görmək istəyirsən, çünki «Amma bizi Sevənin qüdrəti ilə bütün bunlara tamamilə qalib gəlirik» (Rom. 8:37). «…Axıra qədər səbr edən xilas olacaqdır» (Mt. 24:13). Sənin ərin, onu alovun yandıran odundan və su burulğanının qorxuducu dərinliyindən xilas edən, öz dualarına Rəbbdən cavab gözləyərək, imanda möhkəm dayanmaq arzusunda olmalıdır.

Ya Rəbb, ancaq Sən, mənim ərimin əziyyətlərinin bütün dərinliklərini bilirsən. Sən axı onun öz çiyinlərində daşıdığı bütün ağırlıq yükünü görürsən. Mən bilirəm, Sən bizi sınayırsan və mən Sənin iradənin yerinə yetirilməsinə mane olmaq istəmirəm; mən ancaq istəyirəm ki, ərim bu mübarizədən qalib çıxsın.

## *Dua*

***Ya Rəbb***, Sən — bizə sığınacaqsan, qüvvətimizsən, dar gündə real kömək edirsən (Zəbur 46:1); Sən bizə imkan vermisən ki, «lütfkar Allahın taxtına cəsarətlə yaxınlaşaq ki, vaxtında yardıma malik olmaq üçün mərhəmət alıb, lütf tapaq» (İbr. 4:16). Və mən, Sənin taxtın yanına, ərimin üzərinə xeyir-dualarının yağdırılması xahişi ilə gəlirəm. Onun qəlbini mübarizə üçün möhkəmləndir və ona səbr ver. Qoy,

o, həmişə və hər şeydə Sənə ümid etsin (Zəbur 27:1-4). Heç nəyə baxmayaraq, ona möhkəm və cəsarətli olmağa kömək et. Ona hər zaman «ümidlə sevinməyə; sıxıntıya dözümlü» və daima duada olmağa kömək et (Rom.12:12). Ona öz həyat yolunu keçib və ümidsiz olmamağa kömək et, çünki Sən demisən: «Saleh yeddi dəfə yıxılsa belə, yenə qalxar...» (Sül. Məs. 24:16). Qoy, o, həmişə yadda saxlasın ki, «Rəbb insana gedəcəyi yolu göstərir, kimdən razı qalırsa, onu möhkəmləndirir» (Zəbur 37:23).

Mən dua edirəm ki, o, Sənə etibar etsin və inansın ki, «bəlalar keçib-gedənəcən» (Zəbur 57:2) Sən onun müdafiəsi olacaqsan; qoy o, Sənin cavablarını gözləyə bilsin, çünki «Rəbbə ümid bağlayanlar isə yeni qüvvət alar, qanad açıb qartal kimi yüksəklərə uçar, qaçanda taqətdən düşməzlər, yol gedib yorulmazlar» (Yeş. 40:31). Mən dua edirəm ki, o, Səndə güc tapsın ki, Sən, onun Sənə müraciətlərini eşidəsən və onu bütün əzablardan xilas edəsən (Zəbur 34:7).

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Buna görə indi lazım olduqda müxtəlif imtahanlardan
ötrü bir az müddət kədərləndinizsə də, şadlıq edin ki,
İsa Məsihin zühurunda imanınızın sınaqdan müvəffəqiyyətlə
keçməsi sizə mədh, izzət və şərəf gətirsin. Bu imanınız,
odla saflaşdırıldığı halda yox olan qızıldan daha qiymətlidir.

*1 Pet. 1:6-7*

Sən qayğı yükünü Rəbbə ver, qoy sənə dayaq olsun.
O heç vaxt salehə sarsıntı verməz.

*Zəbur 55:22*

Mən isə Allahı səslərəm, Rəbb məni xilas edər. Səhər,
günorta, axşam nalə çəkirəm, ah-zar edirəm,
O, səsimi eşidir.

*Zəbur 55:16-17*

Sən mənə çoxlu ağır əzablar versən də, yenə məni
dirçəldirsən, yerin dibinə düşsəm belə, yenə məni
çıxarırsan, hörmətimi artırmaqla mənə yenə
əmniyyət verirsən.

*Zəbur 71:20-21*

## 14 FƏSİL

# ONUN ƏXLAQİ PRİNSİPLƏRİ

İnsan əmin olanda ki, ona heç kim nəzarət etmir, o zaman onun həqiqi üzü açılır. Söhbət, ətrafda nə baş versə belə, heç bir vəziyyətdə xəyanət edilməsi mümkün olmayan, əxlaqi prinsiplərdən gedir. Bu, səmimiliyin, saflığın, vicdanlılığın yüksək və dəyişilməz səviyyəsidir. Əxlaqi prinsiplərə riayət etmək — insanlara, onların bizə necə münasibət göstərmələrini istədiyimiz kimi, onlara elə münasibət göstərmək deməkdir.

Əxlaqi məqsədli insanın sözləri həmişə mənalı olur. O, öz həqiqi məqsədini gizlətmək üçün, sözlərlə oynamır; onun «hə» sözü həmişə «hə» mənasını daşıyır, onun «yox» sözü isə, həmişə «yox» deməkdir, çünki «bundan artığı şeytandandır» (Mt. 5:37). Belə insan, kiməsə məqbul olmaq üçün, ikibaşlı oyun aparmır, çünki onun məqsədi — həqiqətə uyğun hərəkət edərək, Allaha məqbul olmaqdır. Cəmiyyətdə böyük ad-sana malik olmaq olar, lakin Allahın gözündə özünü, tam heç bir əhəmiyyəti olmayan adam kimi göstərmək olar (Lk. 16:15).

Əxlaqlı insan «zərərinə olsa belə, andından geri dönməz» (Zəbur 15:4). O, bu şeydən əziyyət çəksə də, həmişə öz sözünü yerinə yetirər. Hətta özü üçün ən əlverişsiz şəraitdə o,ləngər vurmadan öz

əqidəsində qalacaq. Onun üçün həqiqət hər şeydən üstündür və siz onun sözsüz düzgünlüyünə etibar edə bilərsiniz. «Kamalla gəzib-dolanan dinc yaşar...» (Sül. Məs. 10:9), çünki onun əxlaqi təməli onu qoruyur və o, Allahın hüzurunda dayanır (Zəbur 41:12).

Mən öz ərimi məhz belə insan adlandıra bilərəm, çünki dəfələrlə, əxlaqi seçim etmək məcburiyyəti qarşısında, o, həqiqət saydığı şeyə sadiq qalırdı. Və bu ona bəzən çox baha başa gəlirdi. Mən həmişə dua edirəm ki, o, saleh hərəkət etsin, lakin ona görə yox ki, o, mənim dualarım olmadan belə hərəkət edə bilməzdi (mən əminəm ki, mən ona görə vəsadət etməsəydim də, o, özü-özünə dəyişməzdi), ona görə ki, bu dualar həmişə onun üçün çətin anlarda dəstək olur və hər vəziyyətdən ləyaqətlə çıxmağa kömək edirdi. Müqəddəs Kəlam deyir: «Saleh kamal ilə yaşar, özündən sonra gələn nəsli bəxtiyar olar» (Sül. Məs. 20:7). Bizim uşaqlar, hətta bunu başa düşmədən, öz mütləq atalarından zəngin miras alacaqlar: yüksək əxlaqi prinsiplər. Onlar özlərində, onun mənəvi simasının tamlığını gizlədən, xeyir-duaları miras alacaqlar. Mən həmişə dua edirəm ki, onlar öz növbəsində öz uşaqlarını «gənclikdən şərəflərini qorumağı» öyrətsinlər.

Əxlaqi təmizlik ürəkdə doğulur. Daxili bütöv insan olmaq üçün, ən əvvəl bunu arzulamaq lazımdır. Belə qərar ancaq şəxsi və tamamilə könüllü ola bilər, ancaq sən ərini dua ilə dəstəkləyə bilərsən. Onu kor etmək və yoldan azdırmaq istəyən və hər cür yol ilə, onu bu qərarı qəbul etməkdən yayındırmaq istəyən düşmənin hücumlarına qarşı durmağa ona kömək etmək. Amma, hətta sənin ərin düzgün seçim etdikdən sonra da, pislik onu sınamaqda davam edəcək və o zamanda da sənin duaların onun üçün şübhələrdən vələngər vurmalardan qalxan olub, hətta o, özü ilə tənha qaldıqda da, həqiqət yolu ilə getməyə kömək edəcək.

## *Dua*

***Ya Rəbb***, mən Səndən xahiş edirəm: mənim ərimə, Sənin əmrlərinə müvafiq olmalı olduğu kimi, əxlaqi tam insan olmağa, kömək et; ona güc ver ki, «hə» demək lazım olanda «hə» deyə bilsin, «yox» demək lazım gələndə isə «yox» deyə bilsin. Ona, öz məsləklərini müdəfiə etmək və bu dünyanın təzyiqi altında əyilməməyə, «daim öyrənən, lakin əsla həqiqəti dərk edə bilməyən» (2 Tim. 3:7) adamlara oxşamamağa kömək et. Qoy o, onu müdriklik səsinə yönəldən və onu Sənin yollarında möhkəmləndirən, həqiqət Ruhu ilə dolsun.

Ona, həqiqətə görə yaşayan insan olmağa kömək et. Ona həmişə Sənin həqiqət Ruhunda yeriməyə kömək et (Yəh. 16:13). Ona həqiqət haqqında şəhadətçilik etməyə kömək et ki, ağrılı günlərində onlardan keçməyə gücü olsun. Ona, öz səhvlərini cəsarətlə etiraf etməyi öyrət, çünki Sən demisən: «Əgər günahsızıq deyiriksə, biz öz-özümüzü aldadırıq və bizdə həqiqət yoxdur. Əgər günahlarımızı etiraf ediriksə, sadiq və adil olan Allah günahlarımızı bağışlayıb, bizi hər yamanlıqdan təmizləyəcəkdir» (1 Yəh. 1:8-9). Onu, hər cür aldanmadan müdafiə et və onun ürəyini hər bir yalandan uzaqlaşdır. Qoy onu «…xeyirxahlıq və sədaqət tərk etməsin, onları boynuna bağla, ürəyinin lövhəsinə yaz» ki, o, «…Allahın və insanların gözündə lütf tapsın» (Sül. Məs. 3:3-4).

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Kamalla yaşayan yoxsul insan əyri yolla
sərvət qazanandan yaxşıdır.

*Sül. Məs. 28:6*

Əməlisalehi kamillik yolu aparar,
xəyanətkar əyriliyindən məhv olar.

*Sül. Məs. 11:3*

Mənə hökm et, ya Rəbb, salehliyimə,
kamilliyimə görə mənə haqq qazandır.

*Zəbur 7:8*

Məni haqlı çıxar, ya Rəbb, çünki mən kamalla gəzmişəm,
sarsılmadan Rəbbimə güvənmişəm.

*Zəbur 26:1*

Qoy kamalla həqiqət məni hifz etsin,
çünki Səni gözləyirəm.

*Zəbur 25:21*

## 15 FƏSİL

# ONUN AD-SANI

Bizim, yüksək sürətli kommunikasiyalar və kütləvi məlumatlar zamanında, xeyirxah ad, kimi incə şeyi qoruyub saxlamaq o qədər də asan deyil. İnsana onun həyatının korlanması üçün lazım olmayan vaxtda, lazım olmayan yerdə olması kifayətdir.

Ad-sana düşüncəsiz yanaşmaq lazım deyil. «Yaxşı ad böyük sərvətdən… üstündür» (Sül. Məs. 22:1) və «...ətirli yağdan… yaxşıdır» (Vaiz 7:1). Onu dəyərləndirib və qorumaq lazımdır. Öz adını əhəmiyyətli saymayan insan, özünə etibar edilməkdən məhrum ola bilər. Bizim adımız, bizim özümüzü səhv aparmağımızdan, bizim ünsiyyətdə olduğumuz insanların hərəkətlərindən, ya da bizim ünvanımıza deyilmiş pis və etinasız sözlərdən zərər çəkə bilər. Lakin, aydındır ki, bu halların hər birində pislik fəaliyyət göstərir. Sizin xeyrinizə olmayan məhkəmə qərarı, qiybət dalğası, neqativ münasibət, pis, mənfi qəzet məqaləsi, 15 dəqiqəlik bədnam etmək — bütün bunlar, sizin ömrü boyu qurduğunuzu hər anda dağıda bilər. Bütün bunlardan yan keçməyin yeganə yolu bu — dua etməkdir.

Mənim ərim, onun və ya onun tanışlarının sözləri qəzetlərdə tanınmaz hala qədər dəyişdiriləndə, çətin vaxtlar yaşamalı olurdu.

Belə böhtanın təhlükəsini anlayaraq, biz, həqiqəti danışmaq üçün, bu məqalənin aidiyyəti olduğu adamlara zəng vururduq. Əlbəttə, biz hamıya zəng vura bilmirdik və dua edirdik ki, bütün bunlara Allah son qoysun deyə, bizim səylərimiz kifayət etsin. Sonra elə alınırdı ki, hazırlanmış qalmaqal, öz-özünə, bir və ya iki günə sakitləşirdi. Amma hər şey çox pis nəticələnə bilərdi və böhtan burulğanı bizi çəkib apara bilərdi. Mən əminəm: bizi, bizim dualarımıza cavab olaraq, Allahın gücü müdafiə edirdi.

Müqəddəs Kəlam deyir ki, xeyirxah arvadın əri — hörmətli adamdır, o, «şəhər darvazalarında yaxşı tanınır, el ağsaqqalları ilə oturub-durur» (Sül. Məs. 31:23). Bəs həmişə belə olurmu? Xeyirxah arvadın əri üçün, həmişəmi yaxşı ad zəmanət edilib? Yoxsa qadının buna hər hansı bir münasibəti var? Doğrudan da, arvadı Allahın əmrlərinə riayət edən kişi, tanınmış hörmətə layiqdir, ancaq mən əminəm ki, onun dualarının, ərinin xeyirxah adının yaradılmasına və saxlanmasına, birbaşa münasibəti var.

Sən ərinin adına görə dua etməyi dayandırmamalısan, ancaq yadda saxla ki, o sərbəst insandır. Əgər o, Müqəddəs Ruhun idarəçiliyinə diqqətli deyilsə, o, sözə baxmaz və bədbəxtçiliyə düçar ola bilər. Əgər belə hallar vaxtaşırı baş verirsə, əgər onun adı və işi ləkələnirsə, Allahdan bu vəziyyətin dəyişilməsini və bu vəziyyətin ərinin xeyrinə dəyişilməsi üçün dua et, çünki Rəbb bunu da etməyə güclüdür.

## *Dua*

***Ya Rəbb***, mən dua edirəm ki, mənim ərimin ad-sanı ləkələnməsin. Mən bilirəm ki, insan haqqında rəy çox vaxt «başqalarının tərifi ilə» (Sül. Məs. 27:21) formalaşır və mən istəyirəm ki, insanlar ona hörmət etsinlər və onun haqqında yaxşı danışsınlar. Sən Öz Kəlamında demisən ki, «nahaq

qarğış boşdur» (Sül. Məs. 26:2). Mən dua edirəm ki, onun haqqında pis danışmağa heç vaxt heç kimin əsası olmasın. Onu hər bir ittiham və məhkəmə araşdırmalarından qoru. Ay Allah, onu bədxahlardan qurtar. Onu əlehdarlarının əlindən hifz et. Onu çəkişməyə çəkənləri dayandır (Zəbur 35:1). Ya Rəbb, Sənə pənah gətiririk, heç vaxt bizi xəcalətdə qoyma (Zəbur 71:1). «Əgər Allah bizimlədirsə, kim bizə qarşı ola bilər?» (Rom. 8:31).

Sən dedin ki, «yaxşı ağac çürük meyvə verə bilməz; pis ağac da xeyirli meyvə verə bilməz. Xeyirli meyvə verməyən hər ağac kəsilər və oda atılar» (Mt. 7:18-19).

Mən dua edirəm ki, mənim ərim salehliyin xeyirli meyvəsini versin və insanlar onun yaxşı işlərini tanısınlar. Qoy onun gətirdiyi düzgünlük, ləyaqət və mütilik bəhrələri onun bütün işlərində müdafiə olaraq xidmət etsin ki, onun adı zərər çəkməsin.

Onu, düşmənlərdən müdafiə et, haqsızlıq edən insanların şurasından qoru, onun üçün qurulmuş bütün tələlərdən hifz et (Zəbur 31:4), şərin və qiybətin pisliyindən qoru. Öz təmizləyici alovunla, ona şər söyləyən dillərə toxun. Qoy onların təqsiri açılsın və qoy utanıb biabır olsunlar, onun pis günündən zövq alanlar geri qovulub rüsvay olsunlar (Zəbur 40:14). Qoy o, Sənə etibar etsin və pislik yaradan insanlardan qorxmasın (Zəbur 56:11). Çünki Sən dedin, Sənə iman edən heç kimsə utandırılmayacaq (Rom. 10:11). Onu apar, ona rəhbərlik et və onun dayağı və sığınacağı ol. Qoy onun nuru insanların qarşısında elə parlasın ki, xeyirxah işlərini görsünlər və Səni, ya Rəbb həmd etsinlər (Mt. 5:16).

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Pislərin fəndlərindən, şər iş görənlərin vəlvələsindən məni qoru. Onlar qılınc kimi dillərini itiləyirlər, kamanın üstünə ox kimi acı sözlərini qoyurlar, günahsız insana pusqu qurduqları yerlərdən qəfildən, çəkinmədən atılar.

*Zəbur 64:2-4*

Ya Rəbb, məni xəcalətdə qoyma, çünki Səni çağırıram. Qoy pislər utansın, qoy ölülər diyarında səsləri batsın. Təkəbbürlə, həqarətlə yalan danışan, salehlərə böhtan atan dillər lal olsun!

*Zəbur 31:17-18*

Mənə görə insanlar sizi təhqir və təqib edəcəkləri, yalan söyləyib sizə hər cür böhtan atacaqları zaman siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür; çünki sizdən qabaq peyğəmbərləri də belə təqib etmişlər.

*Mt. 5:11-12*

Gördüyün şeylər barədə dava yaratmağa tələsmə.
Sonra qonşun səni utandırsa, nə edərsən?
Münaqişəni qonşunla özün həll et, özgənin sirrini açma.
Yoxsa hər eşidən sənə xor baxar, bu səni etibardan salar.

*Sül. Məs. 25:8-10*

Allahın seçdiklərini kim ittiham edəcəkdir? Onları saleh sayan Allahdır. Məhkum edən kimdir? Ölmüş daha doğrusu dirilmiş olan Məsih İsa, həm Allahın sağında oturdu, həm də bizim üçün vəsadət edir.

*Rom. 8:33-34*

## 16 FƏSİL

# ONUN ÜSTÜNLÜKLƏRİ

Kişilər öz həyatlarında birinci yerə nəyi qoymalı olduqları şey barədə, həmişə kifayət qədər dəqiq təsəvvürə malik olmurlar. Lakin, hər bir qadın öz ərinin dəyərli şeylərinin siyahısının başlanğıcında olmaq istəyir — bilavasitə, Allahdan sonra. Ancaq mən başa düşdüm ki, buna bənzər şeyi arzulayan arvad üçün, birinci yerdə Rəbb və ər durmalıdır. Başqa sözlə desək, əgər sən istəyirsən ki, ərin səni hər şeydən yüksək qiymətləndirsin — səni öz işindən, uşaqlarından, dostlarından və başqa işlərdən yuxarı qoysun, — sən də ona münasibətdə həmin şeyi etməlisən. Əgər Allah və ərin sənin dəyərli şeylər sistemində lazımi yeri tutmurlarsa, onda sənin ərinin, Allahı və səni öz həyatının başlıca dəyərli şeyləri saymağı az inanılandır.

Mən bilirəm: ailədə körpə uşaqlar meydana gələndə, sənin üçün birinci yerdə nəyin olmalı olduğu haqda yadda saxlamaq çox mürəkkəbdir. Onlar daimi diqqət tələb edirlər və səndən başqa onların bütün ehtiyaclarını heç kim ödəyə bilməz. Ər böyük adamdır və özü öz qayğısına qala bilər. Əgər uşaqlar yoxdursa, onda sənin bütün diqqətini ala bilən bir çox başqa şeylər tapılacaq: iş, ev, dostlar, planlar, xobbi. Bütün bu işlərin içərisində, xüsusi ərini bu siyahının

sonuna qoymamaq və ya heç olmazsa ona bunu hiss etməyə imkan verməmək necə də mürəkkəbdir.

Xoşbəxtlikdən, «birincilik» anlayışı ona sərf olunan vaxt ilə əlaqədar deyil. Yoxsa, iş həftəsi qırx saat təşkil edən insan, mütləq onun üçün Allahın işdən sonra ikinci yerdə olmasını təyin edərdi, əlbəttə ki, əgər o, ən azı gündə səkkiz saat dua etmirsə. Bundan başqa, çətin ki, ərə və uşağa eyni diqqəti ayıra biləsən, çünki bu halda uşaq məğmun edilmiş olardı. Ərə məsələ gəldikdə isə, şərt onda deyil ki, sən ona nə qədər vaxt ayırırsan, amma məsələ ondadır ki, sən ona, onu dəyərləndirdiyini hiss etməyə imkan verirsən, yoxsa yox.

Səhər nəcib salamlaşmaq, gülümsəmək və incə qucaqlamaq, onun sənin üçün nə qədər əhəmiyyətli olduğu barədə deyəcək. Sən ondan soruşa bilərsən: «Mən sənin üçün bu gün nə edə bilərəm?» (və onun xahişini mütləq yerinə yetirmək). Qoy o, sənin onun üçün dua etdiyindən xəbərdar olsun. Və maraqlan ki, sən onun istəyi ilə konkret nə haqda dua edə bilərsən. Gün ərzində, başqa çox işlərin arasında onunla ünsiyyət saxlamağın, onun üçün sənin xüsusi diqqətinin şahidçiliyi olacaq.

Birinciləri yerləşdirmək birbaşa onların sənin ürəyində yerləşməyindən asılıdır. Öz vaxtını elə planlaşdırmaq lazımdır ki, siz əriniz ilə təklikdə ola biləsiniz: istər bu görüş olsun; evdən kənarda keçirilmiş gecə; evdə uşaqlarsız və dostlarsız keçirilmiş şam və ya axşam. Bu ərini əmin edəcək ki, o, sənin ürəyində vacib yer tutur. Əgər sən istəyirsən ki, sənin ərin səni çox sevsin, sən özün onu çox sevməlisən. Və əgər sən bu barədə dua etsən, bu mütləq baş verəcək.

Lakin əgər sənin ərinə lazımi diqqəti ayırmağa və öz arvadlıq vəzifəni yerinə yetirməyə nə vaxtın, nə də gücün yoxdursa, Allahdan səni Müqəddəs Ruhla doldurmasını dilə; Onun idarəçiliyini axtar və O, sənə birinciləri düzgün yerləşdirməyə kömək edər. Əgər sənin gündəlik qrafikində Allahdan güc almaq üçün, Onun ilə ünsiyyətə vaxt planlaşdırılmayıbsa, öz dəyərli şeylərinin sisteminə

yenidən nəzər sal və günün qaydalarını dəyişdir, çünki əvvəlki heç nəyə yaramır.

Mənim ərimin məşğul olduğu biznesdə, insanların çox tez, uğur yüksəkliyinə qalxmaqlarını müşahidə etmək olar. Lakin, orada onları böyük uğur, böyük hakimiyyət, böyük var-dövlət susamağı güdür. Əgər bu insanlar öz qəlblərinin qayğısına qalmırlarsa, əgər onlar öz qürurluqlarının boyunduruğunda gedirlərsə, onlar mütləq onlar üçün qoyulmuş tələyə düşüb və Allahı, ailəni, kilsəni, dostları, mənfur bir şey kimi tərk edəcəklər. Bu, belə yüksəyə qalxmış «ulduzlar» yerə düşəndə, onların enmələri heç də yumşaq olmur. Biz, buna bənzər şeylərin ərlərimizlə baş verməsini istəmirik. Dua et ki, sənin ərin öz həyatında həmişə Allahı birinci yerə, səni ikinci yerə və öz uşaqlarını üçüncü yerə qoysun. Bu halda, onun həyatında nə baş versə də, onun bütün qalan birinciləri düzgün qaydada yerləşdiriləcək, gələcəkdə isə sizin hər ikinizi böyük xoşbəxtlik gözləyir.

## *Dua*

***Ya Rəbb***, mən Səni öz həyatımın Rəbbi bəyan edirəm. Mənə, ilk növbədə Səni axtarmağa kömək et. Mənə ərimi, uşaqlardan, işdən, ailədən, dostlardan, müxtəlif işlərdən və mənim maraqlarımdan yüksək qoymağa öyrət ki, o, mənim ona olan münasibətimi hiss etsin və mənim üçün necə əhəmiyyətli olduğunu bilsin. Mənim, onun mənim üçün əhəmiyyətliliyində şübhə etməyə imkan verməklə, ona vurduğum yaranı sağalt. Mənə, mənim birincilərimi elə yerləşdirməyi öyrət ki, bütün mənasız, boş və məhvedici şeylər məndən uzaqlaşsın və mənim vaxtımı almasın.

Mən dua edirəm ki, mənim ərim öz həyatında birinci yerə nəyi qoymalı olduğunu həmişə bilsin. Onun ürəyinin

Rəbbi və Hökümdarı ol! Ya Rəbb, ona öz vaxtını elə planlaşdırmağı öyrət ki, o, hər gün Səninlə təklikdə ünsiyyətdə ola bilsin. Ona Öz fikrini aç, göstər ki, Sənə xidmət, onun üçün birinci dərəcəli əhəmiyyət kəsb etməlidir. Məni və uşaqları öz karyerasından, dostlarından və başqa məşğuliyyətlərindən yüksək qoyması üçün ona müdriklik ver. Qoy o, ən əvvəl Səni axtarsın və Sənə tabe olsun, çünki o vaxt onun həyatında nizam-intizam olacaq.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Lakin əvvəlcə Allahı Səltənətini və Onun salehliyini axtarın;
və bunların hamısı sizə əlavə olaraq veriləcəkdir.

*Mt. 6:33*

Hər kəs yalnız öz mənfəətini deyil,
başqalarının da mənfəətini güdsün.

*Fil. 2:4*

Heç kim iki ağaya qulluq edə bilməz.
Çünki ya birinə nifrət edəcək, digərini isə sevəcək,
ya da birinə bağlı qalacaq, digərinə isə xor baxacaqdır.

*Mt. 6:24*

Yenə, Səmavi Səltənət gözəl mirvarilər axtaran bir tacirə bənzər;
o, dəyəri çox böyük olan bir mirvari taparaq,
gedib bütün varını satıb onu satın aldı.

*Mt. 13:45-46*

…Allahın olan Rəbbə səcdə qıl və yalnız Ona qulluq et.

*Mt. 4:10*

## 17 FƏSİL

# ONUN İNSANLARLA MÜNASİBƏTİ

Tənhalıqda yaxşı şey azdır. Bizim hamımızın xeyirxah adamlarla ünsiyyətə ehtiyacımız var, çünki, bu şey bizə həqiqət yolunda tutub getməyə kömək edir. Hər ər-arvada, ən azı iki həqiqi imanlı ailəsi ilə ünsiyyətdə olmaq xeyirli olardı, çünki, belə dostluq yeni güc verir və həyatı zənginləşdirir. Belə insanlarla kontakt bizi imanımızda möhkəmləndirir, bizim həyatımıza sülh gətirir və onu məna ilə doldurur, həmçinin çətin hallarda düzgün qərar qəbul etməyə kömək edirlər. İmanlı insanlar ilə dostluğun düzgün təsiri, ər-arvad ittifaqı üçün xeyirlidir.

Mənim yadımdadır, necə bir dəfə dostlar bizi ərim ilə öz evlərinə şam yeməyinə dəvət etmişdilər, amma, çıxmağımızın ərəfəsində biz Maykl ilə güclü qalmaqal etdik və biz maşında getdiyimiz müddətdə maşında gərgin sakitlik hökm sürürdü. Mən o anda ancaq bir şey barəsində düşünə bilərdim: qonaqlıqda bütün axşamı necə oturaq və ev sahiblərinin əhval ruhiyyəsini korlamayaq. Lakin onlara gələn kimi, biz o saat Allahın hüzurunun ılıqlığının, məhəbbətinin və xeyir-duasının bizə, bizim düşüncələrimizə və hisslərimizə necə

hopduğunu hiss etdik və az sonra biz xoşagəlməz hadisəni unudaraq artıq gülüb-danışırdıq. O evdə, axşamın adi, növbətçi atmosferi hiss edilmirdi — biz hiss etdik ki, onların evində, bizə Maykl ilə belə xeyirli təsir göstərən, Allahın sevinci olur.

Əks vəziyyətlər də tez-tez olurdu, nə vaxt ki, dostlarımız möhkəm dalaşmış halda bizə qonaq gəlirdilər, gedəndə isə ürəklərində sülh ilə gedirdilər. Bir dəfə bizim dostlarımız, ər və arvad, hətta bizə zəng edib və dedilər ki, görüş çox güman ki, alınmayacaq, çünki indicə onların dəhşətli dalaşmaları baş verib. Mən cavab verdim ki, onları çox yaxşı başa düşürəm, çünki, bizimlə də belə hallar baş verib, lakin bizim üçün, hətta onlar bütün axşamı sussalar da, onları görmək xoş olacaq. «Bundan başqa, siz yemək yeməlisiniz — deyə mən davam edirdim. — Əgər istəsəniz, masa arxasında bir-birinizdən uzaqda oturarsınız». Qısa yola gətirmələrdən sonra, onlar gəlməyə razılaşdılar və axşam çox gözəl alındı. Axırda biz hətta baş vermiş hadisəyə güldük və onlar əl-ələ tutaraq getdilər.

Rəbbi sevən, imanlı insanlar ilə görüş təsadüfən baş vermir. Dua etmək lazımdır ki, belə insanlar sizin yolunuza çıxsın. Onlarla tanış olandan sonra isə, onlarla dostluq barəsində dua etmək lazımdır, o haqda ki, sizin onlarla olan bütün münasibətlərinizdən bütün səfeh şeylər yan keçsin. Müqəddəs Kəlam bizi öyrədir ki, «imansızlarla eyni boyunduruğa girməyin» (2 Kor. 6:14). Bu o demək deyildir ki, biz məsihçi olmayan insanlarla təmasdan qaçmalıyıq, ancaq biz, Rəbbi tanımayan və sevməyən adamlarla yaxın münasibətlərdə ola bilmərik, çünki bunun ciddi nəticələri ola bilər. «Saleh insan qonşusuna da yol göstərər, lakin şər insanın yolu dolaşıqdır» (Sül. Məs. 12:26). Məhz buna görə, həmfikirlilərin görüşməyə imkanı olan, ev kilsəsinə malik olmaq vacibdir. Özünün, ürəkləri Allaha yönəlmiş, ləyaqətli insanların əhatəsində olmağının qayğısına qal.

Dua et ki, sənin ərinin imanlı dostları olsun və əgər belələri varsa, onların ünsiyyətinə mane olma, çünki bu ona təmizləyici təsir göstərir. «Dəmir dəmiri itilər, insan insanın ağlını iti edər» (Sül. Məs. 27:17), və yaxşı dostlar ona müsbət təsir göstərər. «Gözəl ətir və buxurun ürəyə verdiyi ləzzət kimi, dostun nəsihəti də insana xoş gələr» (Sül. Məs. 27:9). Əlbəttə, əgər nədəsə tarazlıq pozulursa, onun bərpası üçün dua et.

Bizim uşaqlarımız doğulanda, Maykl günlərini fasiləsiz işləyirdi, istirahət günlərini isə ya qolf-klubda, ya beysbol meydançasında, ya da dostları ilə stadionda futbol oynamaqla keçirirdi. Mənim bütün şikayət və etirazlarıma baxmayaraq, heç nə dəyişilmirdi, ta o vaxta qədər ki, mən dua etməyə başladım ki, Allah mənim ərimin diqqətini ailəyə yönəltməkdə əmin etsin. Rəbb, bundan da böyük iş etdi, belə ki, baş verən bütün dəyişikliklər mənim gözlədiklərimdən də artıq oldu.

Kişilərin, qadınlardan fərqli olaraq, adətən yaxın dostları az olur, çünki kişilər həmişə xüsusi karyeraları ilə məşğul olurlar və bir qayda olaraq yeni dost tapmağa səyli olmurlar. Burada dua çox kömək edə bilər. Hətta əgər sənin ərin imanlı deyilsə, sən onun imanlı dostları olması barədə dua edə bilərsən. Mənim yaxın rəfiqəmin əri Rəbbi tanımırdı, lakin biz dəfələrlə dua edirdik ki, o, imanlı iş yoldaşları ilə ünsiyyətdə olsun. Allah elə etdi ki, bu kişi Allah adamlarının əsil «əhatəsində» oldu və bu bizim ümumi sevincimizin səbəbi oldu.

Öz ərinin bütün əlaqə və kontaktları üçün dua et: valideynləri ilə, qardaş və bacıları ilə, xalaları və bibiləri ilə, əmi və dayıları ilə, iş yoldaşları və qonşular ilə. Dua et ki, onun kiminlə isə ünsiyyəti, kin saxlamaq və ya qisas almaq istəyi ilə ovqatını təlx etməsin. Razılaş ki, kiməsə inciklik ilə içini yeyən ər, — az xoşa gələn mənzərədir.

## Dua

***Ya Rəbb***, mən dua edirəm ki, onun (ərin adı) ürəyini açа biləcəyi, müdrikliyə malik və ona yağlı sözlər yox, həqiqəti deməyə hazır olan (Sül. Məs. 28:23), yaxşı imanlı dostları olsun. Ona müdriklik bəxş et və adamları tanımağı öyrət ki, onu əxlaqsızlaşdıranlardan kənar gəzsin (1 Kor. 5:13). Ona, imanlı adamlarla dostluğun üstünlüyünü göstər və elə et ki, ona onlar ilə maraqlı olsun. Bizə, dostluq əlaqələri yarada biləcəyimiz imanlı ailələri ilə tanışlıq bəxş et.

Mən dua edirəm ki, mənim ərimin, onun ailəsinin hər bir üzvü, qonşuları, tanışları və iş yoldaşları ilə yaxşı münasibətləri olsun. Bu gün, xüsusən onun (insanın adı) ilə münasibəti haqqında dua etmək istəyirəm. Qoy onlar bir-birinə simpatiya ilə münasibət göstərib və bir-biri ilə münasibətdə fikir ayrılığından yan qaçsınlar. Qoy, küsüşmə olan yerdə barışıqlıq baş versin. Qoy hər şey sülh yolu ilə baş versin.

Mən dua edirəm ki, mənim ərimin ömrü uzun və xeyir-dualı olsun, o öz ata və anasına hörmət etsin (Çıx. 20:12). Ona, inciklikləri bağışlamağı və heç kimə kin saxlamamağı öyrət. Ya Rəbb, Sən demisən ki, kim «qardaşına nifrət edir, o qaranlıqdadır və qaranlıqda yeriyir; hara getdiyini bilmir, çünki qaranlıq onun gözlərini kor etmişdir» (1 Yəh. 2:11). Mən dua edirəm ki, mənim ərimin heç vaxt pisliklə gözləri tutulmasın, amma həmişə bağışlaya bilsin. Qoy, o, heç kəsə etinasız olmasın və heç kəsi mühakimə etməsin, lakin yadda saxlasın ki, «biz hamımız Məsihin hökm kürsüsü qarşısına çıxacağıq» (Rom. 14:10). Ona düşmənlərini sevməyi, ona lənət oxuyanlara xeyir-dua verməyi, ona əziyyət verib, təqib

edənlər üçün dua etməyi öyrət (Mt. 5:44). Mən Səndən xahiş edirəm: mənə həmişə onun yaxşı dostu olmağa kömək et ki, bizim dostluğumuz ancaq möhkəmlənsin və qoy, o özü əsil dost olmağı öyrənsin.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Bir-birimizi məhəbbət və xeyirli işlərə necə təşviq edəcəyimizin qayğısına qalaq. Bəzilərinin adət etdikləri kimi öz yığıncaqlarımızı tərk etməyək. Amma... bir-birimizi daha çox ürəkləndirək.

*İbr. 10:24-25*

Beləliklə, əgər öz qurbanını qurbangah qarşısına gətirdiyin zaman orada yadına düşsə ki, qardaşının sənə qarşı bir şikayəti var, qurbanını orada qurbangahın qarşısında qoy, get əvvəlcə qardaşın ilə barış və ondan sonra gəl, qurbanını təqdim et.

*Mt. 5:23-24*

Əgər O, nurda olduğu kimi, biz də nurda gəziriksə, onda bir-birimizlə ünsiyyətimiz vardır...

*1 Yəh. 1:7*

Diqqətli olun. Əgər qardaşın sənə qarşı günah işlədərsə, onu məzəmmət et və əgər tövbə edərsə, onu bağışla; və əgər gündə yeddi dəfə sənə qarşı günah işlədərsə və gündə sənə: «Tövbə edirəm» deyərsə, onu bağışla.

*Lk. 17:3-4*

Sizə bir-birinizi sevəsiniz deyə yeni bir əmr verirəm: sizi sevdiyim kimi, siz də bir-birinizi sevin. Əgər bir-birinizə qarşı məhəbbətiniz olsa, bundan hər kəs Mənim şagirdlərim olduğunuzu biləcək.

*Yəh. 13:34-35*

## 18 FƏSİL

# ONUN ATALIĞI

Mən Maykldan, onun ən çox nədən qorxduğu barədə soruşanda, o, etiraf edirdi ki, başqa şeylərdən savayı o, öz atalıq vəzifəsinin öhdəsindən gələ bilməməkdən çox qorxur. «Mənə elə gəlir ki, bu qorxu çox kişiləri təqib edir, — o dedi. — Biz öz işimizlə o qədər məşğuluq ki, özümüzü uşaqların qarşısında təqsirkar hiss edirik. Biz qorxuruq ki, atalıq vəzifəmizlə bacara bilmərik, ya da pis bacararıq. Yeniyetmələrlə ünsiyyətdə olmaq daha çətindir: biz onların gözlərində müasir görünmədiyimiz üçün, onlarla ümumi dil tapa bilməyəcəyimizdən qorxuruq».

Mənə ərimin etirafı toxundu və mən, onun yaxşı ata olması barədə dua etmək qərarına gəldim. Mən görürdüm ki, mənim dualarımın nəticəsində o, dəyişilirdi, uşaqlarla ünsiyyətdə səbirli və öz valideynlik rolunda isə əmin olurdu. O, onların cəmiyyətində özünü tam azad hiss etməyi və onlarla ünsiyyətdə sevinməyi öyrəndi. Onu, nizam-intizam dərsi vermək tələbi zamanı və ya müdrik əqlə yeritmə etmək lazım olan anlarda, qəzəbli zəiflik hissi daha incitmirdi. Bu gün Maykl anlayır ki, uşaqlarda çatışmamazlıqların səbəbi heç də həmişə onun ata kimi kamil olmamağında olmur.

Xüsusi keyfiyyətsizlik və gərəksizlik düşüncələri, ata kimi bir çox kişiləri «təslim olmağa» və uşaqları ilə təmas yaratmaq cəhdini atmağa məcbur edir. Onlar passivləşir və öz uşaqlarından uzaqlaşırlar. Bu, xüsusən öz həyatlarının hər hansı bir sahəsində məğlubiyyətə düçar olmuş kişilər üçün lap çətindir. Qadınlarda da, hərdən ana kimi keyfiyyətsizlik hissi yaranır, amma onlardan heç biri, müstəsna halları saymasaq, öz uşaqlarını unutmur və atmır. Bunun səbəbi ondadır ki, uşağa qalmaq anından biz öz uşaqlarımızla ayrılmaz birləşmişik: biz onları bətnimizdə daşıyırıq; körpəliklərindən qayğılarına qalırıq; biz onları həyatda aparırıq, tərbiyələndiririk, elə möhkəm sevirik ki, onlarla birlik hissi bizi bütün ömrü boyu müşayət edir. Atalar belə imkandan məhrumdurlar və buna görə özlərini tez-tez özgə, öz uşaqları ilə ümumi dil tapa bilməyə bacarıqsız hiss edirlər. Əgər kişi, bundan başqa səhərdən axşama kimi öz işi və karyerası ilə məşğuldursa, onda uşaqların həyatında onun, ata kimi rolu demək olar ki, hiss edilmir. Və burada bizim dualarımız köməyə gələ bilər.

Sənin həyatında belə olub ki, kiminsə dualarından sonra sən nə etmək lazım olduğunu anlayıb və düzgün qərar qəbul etmisən? Mənimlə belə hal çox baş verib. Mən inanıram ki, əgər biz onların yaxşı ata olmaqları barədə dua etsək, bu bizim ərlərimiz ilə də baş verə bilər. Bizim dualarımız onlara, şübhəyə qalib gəlməyə və cavabdehlik yükünü daşımağa, özünün atalıq rolunu aydın anlamağa və hər valideynə tanış olan çətinliklərlə bacarmağı öyrədən Müqəddəs Ruha ürəyini açmağa kömək edə bilər.

Mənim ərim, mənim dualarımın ona konkret hərəkət tərzini göstərdiyi bir hadisəni xatırlayır. Bizim yeddi yaşlı oğlumuz Kris yalan danışmışdı. Biz onu etiraf edib və tövbə etməyə məcbur etmək istəyirdik, lakin bunu necə etmək lazım olduğunu bilmirdik. Maykl ona qulaqburması vermək istəyirdi və məndən dua etməyi xahiş etdi. Mən dua edəndə, o, necə hərəkət etməli olduğunu aydın gördü. Oğlunun gözləri önündə o, üçbucaq, şeytanın şəklini, Allahın şəklini və Krisin fotoşəklini götürüb, şəkilləri üçbucağın künclərində

yerləşdirdi. Sonra Maykl şeytanın və Allahın məqsədlərini təsvir etdi. O, təfsilatı ilə, Krisin seçdiyi yalan yolunun, onun üçün necə təhlükəli olduğunu göstərdi, çünki bu yol onu şeytanın yanına aparır, deməli — Allahdan isə uzağa və uzağa aparır. Bu şəkil oğlanı o dərəcədə sarsıtmışdı ki, o, ağladı və səmimi tövbə edərək yalanını etiraf etdi. Maykl deyirdi ki, Rəbbin ona bəxş etdiyi öz hərəkətlərinin aydın anlayışı olmasaydı, o heç vaxt bizim oğlumuzun ürəyinə çata bilməzdi.

Yaxşı ata olmaq istəyən kişilər üçün gözəl nümunə, Göylərdə olan Atamızdır. O, Rəbbin surətinə çevrilərək, Onun ilə nə qədər çox vaxt keçirirsə, bir o qədər də o, öz uşaqlarına təsir göstərəcək. O, ata ürəyi alacaq, çünki öz Atasının ürəyini görəcək. Ancaq bu elə də asan deyil, xüsusən əgər sənin ərinin yer üzündəki öz atası ilə yaxşı münasibətləri olmayıbsa. Kişinin öz atası ilə münasibəti çox vaxt onun Rəbb ilə münasibətində iz qoyur. Əgər atası nə vaxt isə onu atıb, onda Allah tərəfindən tərk edilmək qorxusu yaşayacaq; əgər atası ona qarşı laqeyd olub onun qayğısına qalmırdısa, o, şübhə edə bilər ki, Rəbb ona qarşı münasibətdə laqeyddir; əgər o, öz yer üzündəki atasının məhəbbətinə şübhə edirdisə, o, Göylərdəki Atasının məhəbbətinə də şübhə edəcək; əgər o, öz yer üzündəki atasına hirslənirdisə, o, belə ədavət hisslərini Allaha qarşı da keçirə bilər. Atası ilə bağlı, keçmiş həyat hadisələri, sənin ərinin yolunda Rəbbə və Onun məhəbbətinə maneə ola bilər, bu isə onun uşaqlar ilə münasibətinə təsir göstərməyə bilməz.

Dua et ki, sənin ərin, öz Göylərdəki Atasının məhəbbətini dərk etsin və onun əqlini və ürəyini dolduran bütün azğın və səhv təsəvvürlərdən azad etsin. Rəbbdən dilə ki, sənin ərinə, onun atası tərəfindən vurulmuş və Allahdan inciməyə səbəb olmuş yarasına şəfa versin. Müqəddəs Kəlam deyir: «Kim ki atasına, anasına qarğış edər, zülmətə düşərkən çırağı sönər» (Sül. Məs. 20:20). Kişi bütün ürəyi ilə öz atasını bağışlamayana qədər, yaxşı ata ola bilməz. Vacib deyil ki, onun atası sağdır, yoxsa yox, — vacib onun xüsusi qəl-

bində baş verəndir. Dua et ki, onun münasibəti yer üzərindəki atasına dəyişsin ki, onun Göylərdəki Ata ilə münasibətinin inkşafına heç nə mane ola bilməsin.

Kişilər çox vaxt öz uşaqlarının həyatında öz rollarının bütün vacibliyini başa düşmürlər və özlərinə ancaq maddi vəsait mənbəyi kimi baxırlar. Lakin əslində, atanın uşaqların həyatına təsirini həddindən artıq şişirtmək olmaz. Onun uşaqlara münasibətindən, onların hansı yolu seçməkləri asılıdır: xeyir və şər yolu. Bundan onun həyatı da asılıdır: axı, əgər o, atalıq vəzifəsi ilə bacarmazsa, xüsusi bacarıqsızlıq hissi onu daima izləyəcək. Əgər o, yaxşı ata olsa, bu onun həyat uğurunun vacib kriteriyası olacaq.

## *Dua*

***Ya Rəbb***, mənim ərimə yaxşı ata olmağı öyrət. Onda, Sənin iradənə uyğun gəlməyən nə varsa, düzəlt, onun qəlbindəki yaraları sağalt və öz atasını bağışlamağa kömək et. Ona, Sənin düşüncələrini anlamağa kömək et və onun ürəyinə, Səni öz Göylərdəki Atası kimi dərk etmək arzusunu qoy. Onu Özünə cəlb et ki, o, Səninlə çox vaxt keçirsin, Səninlə ünsiyyətdə olaraq Sənə oxşasın və Səndə ona qarşı rəhmlilik və məhəbbətlə dolu Atanı görsün. Qoy onun ürəyi bu cür məhəbbətlə öz uşaqlarına qarşı dolsun. Ona, Sənin etdiyin kimi, öz uşaqlarına mərhəmət göstərib və dərrakəli hakim olmağı, onları həqiqət yolunda yeriməyə nəsihət verməyi öyrət. Ona, Sənin nümunənə uyğun hərəkət etməyi öyrət: uşaqlardan sözə baxımlılığı tələb etmək, tövbə edənlərə qarşı həmişə mərhəmətli olmaq, əgər onlar günah etmişlərsə onları cəzalandırmaq. Ona, o həqiqəti aç ki, öz oğlunu sevən onu düzgün cəzalandırır (Sül. Məs. 13:24).

Qoy, o, düzgün yadda saxlasın «…uşaqları qəzəbləndirməsin, ancaq onları Rəbbin tərbiyə və nəsihəti ilə böyütsün» (Ef. 6:4). Mən dua edirəm ki, biz ərim ilə uşaqlara öz tələbkarlığımızda həmişə bir olaq ki, uşaqları tərbiyələndirmək məsələsində fikir ayrılığımız olmasın.

Ona, uşaqlarla ünsiyyətdə olmağı öyrət ki, o, heç vaxt qəddar, soyuq, kobud, qapalı, passiv, narazı, zəif və laqeyd ata olmasın. Ona, sevən, mərhəmətli, həssas, güclü, öz işlərində ardıcıl, etibarlı, ünsiyyətli, başa düşən və səbirli olmağa kömək et. Qoy onun siması, uşaqlarda, ataya olduğu kimi, ona qarşı ehtiram və hörmət etibarı yaratsın ki, onların həyatı uzun və xeyir-dualı olsun.

Ya Rəbb, mən bilirəm ki, uşaqlar bizim ruhani var-dövlətimizi miras alacaqlar; qoy, onların atalarından miras alacaqları Müqəddəs Ruhun, müdrikliklə bolluq ənamı olsun. Mənim ərimə, Sənin əmrlərinə itaətkarlıqda nümunə olmağa kömək ol ki, uşaqlar ona sevinc gətirsin və qoy o, onları Sənin yolunda möhkəmləndirməyə səy göstərsin. O, yaxşı ata olmaq istəyir və mən Səndən onun ürəyinin bu arzusunu yerinə yetirməyi diləyirəm.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Nəvələr ahılların tacıdır, oğulların şərəfi atalarıdır.

*Sül. Məs. 17:6*

Ata sevdiyi oğlunu necə məzəmmət edərsə,
Rəbb də sevdiyini elə məzəmmət edər.

*Sül. Məs. 3:12*

Salehin atası bolluca fərəhlənəcək,
hikmətli övladı onu sevindirəcək.

*Sül. Məs. 23:24*

Oğluna tərbiyə ver ki, canın dinc olsun,
könlün bundan ləzzət alsın.

*Sül. Məs. 29:17*

Və hər şeyə qadir olan Rəbb deyir: «Mən sizə Ata olacağam,
siz də Mənə oğul və qızlar olacaqsınız»

*2 Kor. 6:18*

## 19 FƏSİL

# ONUN KEÇMİŞİ

Mayklın on doqquz yaşı olanda o, güclü əsəb gərginliyi keçirmişdi. O, o zamanlar kollecin tələbəsi idi, nə isə bəstələyirdi, aranjiman edirdi, gündüz və axşamlar yerli klublarda pianino və barabanda çalırdı. Onun həyatı gərgin ritmdə keçirdi; o, az yatırdı, onun gücü tez tükənirdi — sağlamlığı ciddi korlanmışdı. Ailə həkimi onu, gücünü bərpa edə biləcək yerə, yerli psixiatrik xəstəxanaya yerləşdirməyi təklif etdi. Sonralar onun anası mənə danışırdı ki, o özü də və həkim də bu qərara görə sonra peşman olmuşdular, amma o anda onlar tam çaşqınlıqda idilər və nə etmək lazım olduğunu bilmirdilər. Maykl üçün o iki «bərpa olmaq» həftəsi, həyatında dəhşətli təəssüratlardan biri oldu. Orada gördüyü onu dərindən sarsıdıb və xüsusi məhkumluğu barədə qorxuducu fikir yeritmişdi. Kollecə qayıtdıqdan sonra o, dərslərin yüngül qrafikinə keçirilmişdi, amma qorxu onu tərk etməmişdi.

Bizim ər-arvadlıq həyatı dövrümüzdə bir neçə dəfə olmuşdu ki, Maykl çox yorğun vəziyyətdə, o zamankı stress vəziyyətini xatırladan hala düşmüşdü. Gənclik dövründəki yaşadığı xatirələr onu rahat buraxmırdı; onun beynində hədə-qorxu sözləri səslənirdi: «Sən heç vaxt bundan çıxa bilməyəcəksən. Sən həyatını psixiatriya

xəstəxanasında bitirəcəksən». Belə vaxtlarda, onun özü danışdığı kimi, ən çox ona mənim dualarım gərək olurdu. Mən həmişə dua edirdim ki, o, onu azad edə biləcək həqiqəti dərk etsin (Yəh. 8:32). Mən Allahdan diləyirdim ki, O, onun keçmişindən onu azad etsin. Bu uzun sürən proses idi, lakin mən dua etdiyim vaxtlarda nə isə dəyişilirdi.

Biz keçmiş ilə yaşamamalıyıq, amma ondan dərs almalıyıq. Biz, «arxada qalan hər şeyi unudub, qarşıda olana çatmağa can ataraq, Allahın Məsih İsa vasitəsilə etdiyi yüksək dəvətə daxil olan mükafat üçün hədəfə doğru qaçmalıyıq» (Flp. 3:13-14). Allah — bizim Satın Alanımız və Şəfa Verənimizdir və biz imkan verməliyik ki, O, bizim üçün həm bu, həm də o birisi olsun. O, keçmişi satın ala bilər və itirilmişi bərpa edə bilər. O, bizim bütün itirdiklərimizi kompensasiya edə bilər (Zəbur 90:15). Bizdən ancaq inanmaq tələb olunur ki, O, bunu edəcək. Biz əgər öz keçmişimizdən tutub buraxmasaq, Allahın bizim üçün hazırladığı gələcəyə doğru hərəkət edə bilmərik.

Ərinin keçmişi təkcə ona yox, həmçinin onun nəslinə də təsir göstərir. Bizim uşaqlar bizdən təkcə saçın və gözün rəngini miras almırlar, lakin onlara miras olaraq, boşanmalar, qəzəb, həyəcanlar, depressiyalar və qorxu vasitəsilə yaranmış, bizim ağır və ağrıdıcı stresslərimizin yükü də çatır. Və bu hələ hamısı deyil. Bu yükdən azad olduqda, biz ondan öz uşaqlarımızı da azad edirik. Hər dəfə keçmişə qayıtmaqla təkcə biz Allahın gələcəkdə bizim üçün hazırladığını dərk etmək imkanından məhrum olmuruq, lakin bizim uşaqlarımız da bu imkandan məhrum olur.

Ola bilsin ki, sənin ərinin keçmişində baş vermiş, indiki həyatına belə güclü təsir göstərən hadisə, onun uşaqlığında baş verib. Bizim uşaqlığımızda istər yaxşı, istərsə də pis nə baş veribsə, bizim indiki həyatımıza təsir göstərir. Qohumlarının və ya yaşıdlarının uşağı «mükafatlandırdığı» təhqiredici sözlər, mənfur ləqəblər («gombul», «kütbeyin», «dəli», «korazehin», «eybəcər», «düşük», «səfeh» və s. bənzər), onun əqlinə və psixikasına təsir göstərir. Onların təsirini o,

yeniyetmə dövründə də hiss edəcək. Əgər keçmişin yükünü üzərimizdən çırpıb atmağa gücümüz çatmırsa, biz gərək bu barədə dua edək, çünki insan bu şeylə bütün ömrü boyu barışıb oturmamalıdır.

Allah deyir ki, biz həmişə Ondan azad olmaq barədə diləyə bilərik. Və əgər Onun yolları ilə yerisək, Onun həqiqətini bəyan etsək, biz öz keçmişimizdən arzu edilən azadlığı əldə edə bilərik. Amma, bu həmişə belə tez baş vermir, çünki keçmiş həyatın təsirindən müəyyən azad olma səviyyələri var. Budur, sənin ərin fikirləşir ki, öz keçmişindən azaddır, ancaq, birdən o qayıdır və hər şey yenidən başlanır. Ona ümidsiz düşməməyə kömək ol. Əgər, o, həyatda Rəbb ilə birlikdə gedirsə, çox ehtimal var ki, Rəbb, onu başqa, daha yüksək azadlıq səviyyəsinə çıxaracaq və bu halda sənin duaların sənin ərinə çox kömək edə bilər.

Keçmişdən azad olmaq tez baş verə bilər, lakin Allahın məqsədi ilə uyğun olaraq, mərhələlərlə baş verən uzun proses də ola bilər. Sən burada vaxt məhdudiyyəti təyin edə bilməzsən; sən, ərinin keçmişdən gələn səsləri nəzarət altında saxlayıb, onlara qulaq asmamağı öyrənənə qədər, lazım olan vaxtı səbirlə dua edilməyə çağırılmısan.

## *Dua*

***Ya Rəbb***, mən Səndən onun (ərin adı) öz keçmişindən tam azad olmasını diləyirəm. Mənim ərimi, onun keçmişində etdiyi səhvlərin yükündən azad et; ona əvvəlki həyatına yeni nəzərlə baxmağa kömək et və onun əqlini təzələ (Ef. 4:22-23). Qoy, o, anlasın ki, Sən — hər şeyi yeniləşdirirsən (Vəhy 21:5). Qoy, Müqəddəs Ruh ona yeni yol göstərsin, öz neqativ təcrübəsinə yeni münasibət göstərməyi öyrətsin. Ona Məsihin əqlini ver ki, o, Sənin səsini, keçmişdən

gələn səslər ilə aydın ayırd edə bilsin. O, bu səsləri eşidəndə, qoy, o, qalxıb onları, Sənin Sözünün həqiqəti ilə susmağa məcbur etsin. Mən dua edirəm ki, keçmiş depressiya və ağrı onun yeni təəssüratlarını kədərləndirə bilməsin. Onun ürəyini mərhəmət və məhəbbətinlə doldur ki, naümidlik, qisas ehtirası və inciklik onu tərk etsin. Qoy onun keçmiş həyatı onun üçün indiki həyatına təsir göstərə bilməyən bir dərs olsun. Mən diləyirəm: onu hər bir acı təəssüratdan azad et, qoy o, ona bir daha təsir edə bilməsin. Onun kədərini şəfalandır (Zəbur 147:3), onun ruhunu möhkəmləndir (Zəbur 23:3), keçmiş həyatının ağır xatirələrinin yükündən onu azad et ki, o, artıq keçmişi ilə yaşamasın, lakin ondan dərs çıxarmağı öyrənsin. Onun üçün hazırladığın gələcəyə onu apar.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Əvvəlki şeyləri yada salmayın, köhnə hadisələr barəsində
düşünməyin. Budur, Mən təzə bir şey edirəm, o artıq baş verir,
məgər siz bunu başa düşmürsünüz? Bəli, Mən çöllükdə
yol salacağam, quru torpaqda çaylar yaradacağam.

*Yeş. 43:18-19*

Buna görə kim Məsihdədirsə, yeni məxluqdur;
köhnə şeylər keçdi, indi hər şey yeni oldu.

*2 Kor. 5:17*

…əvvəlki yaşayışınıza məxsus olub, aldadıcı ehtiraslarla
pozulmuş köhnə mənliyi kənara atın, ruhən və əqlən yeniləşin,
və Allahın bənzəyişinə görə həqiqi salehlik və müqəddəsliklə
yaradılmış yeni mənliyi geyinin.

*Ef. 4:22-24*

Buna görə biz ruhdan düşmürük;
lakin əgər zahiri varlığımız pozularsa da,
daxili varlığımız gündən-günə təzələnir.

*2 Kor. 4:16*

Allah onların gözlərindən bütün yaşları siləcəkdir.
Artıq ölüm mövcud olmayacaq; nə kədər, nə fəryad,
nə də ağrı olacaqdır, çünki əvvəlki şeylər keçib getdi.

*Vəhy 21:4*

## 20 FƏSİL

# ONUN ƏHVAL-RUHİYYƏSİ

Kimin həmişə pis əhval-ruhiyyədə olan adam ilə ünsiyyətdə olmaqdan xoşu gələr? Onsuz da həyat mürəkkəbdir ki, daima kiminsə şikayətlərini dinləyəsən. Mən bir kişi tanıyıram ki, hətta hər şey yaxşı olanda belə, həmişə hər şeydən narazıdır. O, hər şeyə və hamıya qəzəblə doludur. O, yaxşı xəbər eşidəndə də deyinməyə səbəb tapır. Təəssüflər olsun ki, özünü belə aparmağın təməli hələ uşaqlıqdan qoyulur. Ola bilsin ki, bu insanı həyata sevinməyə heç kəs öyrətməyib və o, hər şeydə ancaq, pis şey görməyə öyrəşib. Ancaq, indiki həyatına öz keçmişinin təsir göstərmsinə imkan verməklə o, öz seçimini edir. Və bu səbəbdən nə o, nə də onu əhatə edən insanlar xoşbəxt ola bilmirlər. Kim belə olmaq və ya belə adamın yanında yaşamaq istəyir?

Mənə bu problem çox tanışdır və mən əminliklə deyə bilərəm ki, pis xasiyyətli adama görə dua etmək nə deməkdir. Mənə çox vaxt tələb olundu ki, kiminsə pis əhval-ruhiyyəsinə qıcıqlanmayıb, bu adama görə dua etməyi öyrənim. Lakin, bu səylər həmişə istənilən nəticəni verir və mən başqalarına görə vəsadət bacarığında kamilləşməkdə davam edirəm. Hər dəfə, duada insan ürəyinə sevinc ruhunun girməsini diləyəndə, mən hiss edilən dəyişikliklər görürdüm, özü də bu insana mənim də münasibətim dəyişilirdi.

İnsan öz tərsliyinə və Allahın məhəbbətini qəbul etmək istəmədiyinə görə hirsli, qaraqabaq, kinli olur. Müqəddəs Kəlam deyir ki, biz öz arzumuzla bu hissləri öz ürəyimizə buraxırıq (Zəbur 101:4); özümüz öz ürəklərimizi daşlaşdırırıq və Allahın məhəbbətindən gizlənirik (Sül. Məs. 28:14). Biz öz əhval-ruhiyyəmizi özümüz seçirik; özümüz qərar qəbul edirik, Allahın məhəbbətini qəbul edək, yoxsa yox; və özümüz qərara gəlirik, Allaha minnətdarlıq hissi ilə dolaq, ya yox.

Əgər ər həmişə pis əhval-ruhiyyədədirsə, bu hətta ən uğurlu nigahı da korlaya bilər, uğursuz nigah isə bundan tamamilə dözülməz hala gələ bilər. Baş verənlərin hamısına mənfi münasibət göstərmək vərdişi bütün həyatı korlamağa qadirdir. Əlbəttə ki, sən ərinin iradəsini idarə edə bilməzsən, amma sən dua edə bilərsən ki, o, Allahın iradəsi ilə razılıqda olsun. Onun ürəyinin təmizlənməsi barədə dua et, çünki Müqəddəs Kəlam vəd verir ki, ancaq ürəyi təmiz olanlar Allahı görəcək (Mt. 5:8); dua et ki, onun ürəyi şadlansın və onun üzü sevinclə nurlansın (Sül. Məs. 15:13). Bizlərdən kim istəməz ki, öz ərini Allahın hüzurunda şad və xoşbəxt görsün? Dua et ki, onun ürəyi alqış, minnətdarlıq, məhəbbət, sevinc ilə dolu olsun, çünki «yaxşı adam yaxşılıq xəzinəsindən yaxşı şeylər çıxarır» (Mt. 12:35). Hətta əgər əvvəldə böyük dəyişikliklər yoxdursa, sənin dualarından ərinin ürəyi mütləq yumşalacaq, özü də onun əhval-ruhiyyəsinin yaxşılaşmasını gözləyərək, sən görəcəksən ki, sənin xüsusi əhval-ruhiyyən də yaxşılaşır.

## *Dua*

***Ya Rəbb***, onu (ərin adı) bu gün Sənin məhəbbətin və sülhünlə doldur. Qoy onun ürəyində rahatlıq hökmranlıq etsin və o, öz həyatından razı olsun, çünki o, bədənə görə

yox, ruha görə hərəkət edir. Ona, Sənin üzünün qarşısında «təmiz ürəklə evində yaşamağı» öyrət (Zəbur 101:2). Öz Ruhunun nurunu onun üzərinə tök. Onun ürəyini xeyirxahlıq və səbrlə doldur. Mənim ərimə özünü sevərlik və qıcıqlanma ilə bacarmağa kömək et. Ona hər şeyə dözməyi, «hər şeyə inanmağı, hər şeyə ümid bəsləməyi, hər şeyə tab gətirməyi» (1 Kor. 13:7) öyrət. Onun ürəyinin kədərindən könlü sınmasın (Sül. Məs. 15:13), lakin daima ziyafəti olsun (Sül. Məs. 15:15) deyə onu qəzəbdən, narahatçılıqdan, həyəcandan, daxili mübarizə və təzyiqdən azad et. Ona sevinc ruhu ver ki, o, deyingən qocaya çevrilməsin. Onu həyəcandan azad et və onun qəlbində sülh olsun deyə, Sənə hər şeyə görə minnətdar olmağa istək ver. Qoy, o desin: «Mən yaşadığım şəraitdən məmnun qalmağa alışmışam» (Flp. 4:11). Bu gün mən ona (ərin adı) belə sözlər ilə müraciət edirəm: «Qoy Rəbb sənə xeyir-dua verib, səni qorusun; Rəbb Öz nurlu üzünü sənə göstərərək lütf versin. Rəbb, üzünü sənə tərəf çevirsin, sənə sülh versin» (Say. 6:24-26).

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Heç nəyin qeydinə qalmayın, amma hər şeydə,
dua və niyaz edərək, öz xahişlərinizi Allaha şükranla bildirin.
Və Allahın hər cür ağıldan üstün olan sülhü Məsih İsa vasitəsilə
ürəklərinizi və düşüncələrinizi qoruyacaqdır.

*Flp. 4:6-7*

Etdiyiniz günahların hamısını üstünüzdən götürün,
özünüzdə yeni ürək və yeni ruh yaradın.

*Yez. 18:31*

Nəfsini saxlaya bilməyən dağılmış, hasarsız şəhərə bənzəyir.

*Sül. Məs. 25:28*

Əgər peyğəmbərlik ənamım varsa və bütün sirləri bilirəmsə,
hər cür biliyə və dağları yerindən tərpədəcək dərəcədə tam
imana malikəmsə, amma məhəbbətim yoxsa, mən heçəm.

*1 Kor. 13:2*

Dərgahına şükürlərlə, həyətinə həmdlərlə gəlin.
Ona şükür edin, isminə alqış söyləyin.

*Zəbur 100:4*

## 21 FƏSİL

# ONUN NİGAHI

Ərə gələnə qədər mən ən çox qorxurdum ki, mənim gələcək ərim idman fanatı ola bilər. Təkcə, mənim bütün ömrüm boyu, futbol və ya beysbol və ya basketbol oyunları göstərilərkən, bütün günü pult əlində divanda uzanmış, gözlərini televizora zilləmiş insanla yaşamalı olacağam, bu haqda fikir məni qorxudub və ikrah hissi yaradırdı. Biz görüşməyə başlayanda, əvvəl-əvvəl məni Maykldа cəlb edən, onun idmana laqeyd münasibəti idi. Elə gəlirdi ki, bu mövzu onu tamamilə maraqlandırmırdı və hətta bezdirirdi. Toyumuzdan bir neçə il sonra o, əsil idman fanatına çevriləndə, mənim vəziyyətimi özünüzə təsəvvür edə bilirsinizmi? Əgər «Çikaqo Bearz» komandası məğlub olurdusa, bütün ailə onunla birlikdə kədərlənməli idi, əgər «Kabz» qalib gəlirdisə, o, öz ağılsız, heyrət çığırtıları ilə bizim qulaqlarımızı batırırdı. O, vaxtaşırı oyunlara baxmaqla kifayətlənmirdi — o, hər oyunu görməli idi. O, passiv azarkeş deyildi — o, «Bearz» embleması ilə futbolka, «Kabz» embleması ilə şlyapa geyirdi və onların arasında bölünürdü. Mən onunla oyunlara getməyə cəhd göstərdim, lakin onlar məni «xot-doq»lardan da əhəmiyyətli dərəcədə az maraqlandırırdı, idman teleşousuna birlikdə baxmağımız isə mənim üçün əsil işgənc-

əyə çevrildi. Mənim bütün varlığım, mənim ərimin idman yarışlarını ailə ilə ünsiyyətdən üstün tutmasından heyrətlənirdi.

Dəyişikliklər, ancaq bir neçə ildən sonra, mən nigahımıza görə dua etməyə başlayanda başladı. Hansısa mənə görünməyən səbəbə görə, Allah Mayklı idmana olan maraqdan tam məhrum etmirdi, nə haqda ki, mən xahiş edirdim, bunun əvəzində O, mənim qəlbimi rahatlıqla doldurdu və mənim problemə olan münasibətimi dəyişdi. Allah, bizi kompromisə getməyi öyrətdi: mən Mayklı idman proqram və oyunlarına baxmağa imtina etməyi məcbur etmirəm, o da məndən, məni qətiyyən maraqlandırmayan şeylərə maraq göstərməyi tələb etmir; mən onu taktiki hiyləgərliyinə görə mühakimə etmirəm — toya qədər onun öz marağı haqqında danışmadığına görə, o da əvəzində məni heç nədə məzəmmət etmir. Bütün bunlar ər-arvad münasibətlərində əhəmiyyətsiz görünə bilər, lakin əslində bu şeylər çox şeydə sizin nigahınızın gələcəyini təyin edir — o, duracaq, yoxsa dağılacaq.

Bizim müştərək həyatımızın bütün sahələri haqqında dua etdikdə, biz boşanmanı problemimizin həlli kimi kənar edirik, buna görə biz, bu bizə hətta elə görünməsə də və biz onların bizim həyatımıza birbaşa təsirini görməsək də, nigahımızın vacib aspektlərinə etinasız olmamalıyıq. Bizim ər-arvadlığımızın ilk günündən mən dua edirdim ki, boşanmaya və zinaya bizim nigahımızda yer olmasın. Məsələ burasındadır ki, baxmayaraq ki, bizim ailəmizin tarixində buna bənzər heç nə və heç vaxt olmayıb, bizim mədəniyyətimiz başdan ayağa qədər boşanma və zina ideyaları ilə hopdurulub, bəzi əhatələrdə isə bu tamamilə normal vəziyyət sayılır. Mən dua edirdim ki Allah, buna bənzər bədbəxtçiliklərdən bizim ittifaqımızı qorusun və O, sadiq olduğuna görə, mənim dualarıma cavab verirdi.

Nigah ancaq o vaxt möhkəm olur ki, nə vaxt iki nəfər heç nəyə baxmayaraq öz münasibətlərini qoruyub və mühafizə etməyi bir-birlərinə söz verirlər. Ancaq çox vaxt olur ki, gələcək həyat yoldaşı öz partnyorunu ideallaşdırır və nigahın mahiyyətini özünə düzgün tə-

səvvür etmir, nəticəsində reallıqla üzləşmə xüsusən acı olur. Məhz belə vaxtlarda ər-arvadlıq «padşahlığı» öz-özlüyündə bölünə bilər. Sənə daima dua etmək lazımdır ki, sizin bir-birinizə olan münasibətlərdə hər bir azğınlıq açılsın, sizin birgə həyatınızda bütün «iti künclər» hamarlansın və siz birlikdə birlik, razılıq və qarşılıqlı anlaşıqlıq ruhunda möhkəmlənə biləsiniz. Dua et ki, sənin nigahın, Allahın adı naminə birləşən iki insanın ittifaqı olsun, yalnız o zaman Rəbb «sizin aranızda» olacaq (Mt. 18:19-20). Dua et ki, sizin birgə həyatınızda, sizlərdən heç biri öz keçmiş nigahının (əgər olubsa) təcrübəsindən istifadə etməsin ki, keçmiş ilə bütün, istər yaxşı, ya pis, istər qəlbə görə, ya ruhani əlaqələr qırılsın. Bir ayağı ilə keçmişdə dayanmaqda davam edərək irəli, gələcəyə hərəkət etmək mümkün deyil.

Sənə öz nigahınız necə gözəl görünsə də, sən öz nigahınız münasibətində heç vaxt aldanma, çünki deyilib: «…kim düşünürsə ki, ayaq üstə durub, ehtiyatlı olsun ki, yıxılmasın» (1 Kor. 10:12). İnsanlardan və nigahını dağıda biləcək vəziyyətlərdən öz nigahının müdafiəsi üçün Rəbbdən dilə. Rəbbdən sizin nigahınızın nəyin bahasına olursa olsun, qorumasını dilə, hətta, əgər bunun üçün sizlərdən boşanmaq qərarına gələni ildrım ilə vurmaq lazım gəlsə də. Dua et ki, Allah sənin ər-arvad münasibətini sizin hər ikiniz üçün sevinc və həyat mənbəyi etsin ki, o bezikdirici və ağır vəzifə borcuna çevrilməsin.

## *Dua*

***Ya Rəbb***, mən Sənə yalvarıram: bizim nigahımızı, onu zəiflədə və ya dağıda bilən hər şeydən müdafiə et. Onu, bizim eqoizm və laqeydlik təzahürlərimizdən, başqa insanların pis plan və fikirlərindən, təhlükələrdən mühafizə et. Qoy bizə, heç vaxt boşanma və ya zina haqqında fikirlər

gəlməsin — nə bu gün, nə də gələcəkdə. Bizi, bizim əvvəlki münasibətlərimiz barəsindəki xoşagəlməz xatirələrdən azad et, bizi, bizim keçmişimizdən azad et, bizə, bir-birimizi ayıq və obyektiv qiymətləndirməyi öyrət. Bizim ürəklərimizi qısqanclıqdan və onun səbəbi olan, özünü aşağı qiymətləndirmədən azad et. Qoy hər bir təhlükəli aludəçilik bizdən yan keçsin: spirtli içkilərə, narkotikə, qumar oyunlarına.

Bizi dostluq, sədaqət, əliaçıqlıq və qarşılıqlı anlaşma bağları ilə birləşdir: bizdə infantilliyi, düşmənçiliyi, öz çatışmamazlıqlarımızı ağrıdıcı etiraf etməyi məhv et. Bizə, bir-birimiz üçün vaxt tapmağa, ittifaqımızı qidalandırıb və yeniləşdirməyə və bizim nəyə görə birləşdiyimizi həmişə yadda saxlamağa kömək et. Mən dua edirəm ki, o, (ərin adı)  ya Rəbb, ən əvvəl Səni axtarsın, heç bir sarsıntılara baxmayaraq onun mənə bağlılığı möhkəm olsun. Mən xahiş edirəm ki, bizim qarşılıqlı məhəbbətimiz günbəgün böyüsün və bizim nigahımız uşaqlarımız üçün nümunə olsun və onlar, öz həyatlarında heç vaxt boşanmaq qərarına gəlməsinlər.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

İki adam bir adamdan yaxşıdır, çünki zəhmətləri üçün yaxşı muzd alacaqlar. Əgər biri yıxılsa, o biri yoldaşını qaldırar. Lakin vay o adamın halına ki, yıxılanda onu qaldıran olmur.

*Vaiz 4:9-10*

Allah sizi bir bədən və bir ruh olaraq yaratmadımı? Bəs nə üçün bir? Çünki O Özü üçün xüsusi bir nəsil istəyirdi. Buna görə də özünüzü gözləyin. Qoy heç kəs cavanlığında evləndiyi arvadına xəyanət etməsin.

*Mal. 2:15-16*

Qoy hər kəs nigaha hörmət etsin və kəbin yatağı ləkəsiz olsun; çünki Allah, əxlaqsızları və zinakarları məhkum edəcəkdir.

*İbr. 13:4*

Həmçinin iki nəfər bir yerdə yatarsa, bir-birini isidər. Amma tək yatan necə isinə bilər?

*Vaiz 4:11*

Evlənənlərə isə mən yox, Rəbb əmr edir ki, arvad ərindən ayrılmasın; əgər ayrılsa, kəbinsiz qalmalı yaxud da öz əri ilə barışmalıdır. Ər də öz arvadını boşamasın.

*1 Kor. 7:10-11*

## 22 FƏSİL

# ONUN EMOSİYALARI

Don öz ailəsini «qəzəb dəyənəyi» ilə idarə edirdi. Onun bütün yaxınları, onun qəzəb partlamasından qorxaraq, demək olar ki, barmaqları üstündə gəzirdilər və onun bütün tələblərini yerinə yetirməyə çalışırdılar, bunu ən çox məhəbbətdən yox, qorxudan edirdilər. Lakin hər şey, onun arvadı Cenni, buna dözməyə borclu olmadığını və bundan əlavə, belə vəziyyətin Allaha məqbul olmadığını başa düşəndə, dəyişməyə başladı: «Tez qəzəblənənə yoldaş olma, kəmhövsələ ilə yola çıxma. Yoxsa onun yollarına alışarsan, canını tələyə salarsan» (Sül. Məs. 22:24–25).

Cenni başa düşdü ki, insanı sevmək olar, amma onun günahını mühakimə et və o, Dona görə həm tək, həm də dua qruppasında güclü dua etməyə başladı. O, onun xasiyyətinin yumşalması və onun Müqəddəs Ruh ilə dolması barədə dua edirdi. Onun duaları təkcə ərinin özünü necə aparmağına gözlərini açmadı, lakin dəyişilmək üçün güc və cəsarət tapmağa da kömək etdi. «Gizli hədiyyə qəzəbi… yatırar» (Sül. Məs. 21:14). Arvadın ərin qəzəbinə qarşı ən effektli «sirli silahı» — onun duasıdır.

Merlinin əri Çad, uzun müddətli xroniki depressiyadan əziyyət çəkirdi. Merlin, öz təbii nikbinliyinə baxmayaraq, onun neqativ

emosiyalarının təsiri altına düşdü və o da məyus olmağa başladı. Amma, Davud padşahın sınaqları barədə oxuduqdan sonra, o, öz ərinin hissləri ilə, onun hissləri arasında çox ümumilik gördü: «Bəlalardan canım boğazıma gəldi, həyatım ölülər diyarına yaxınlaşır. Qəbrə düşənlərin içində sayılıram, sanki məndə taqət qalmayıb» (Zəbur 88:3-4). «Ağılsızlığımın üzündən yaralarım iyrənc və irinlidir. Mənim qəddim əyilib, ikiqat bükülmüşəm, daim yaslı gəzirəm» (Zəbur 38:5-6).

Merlin gördü ki, belə dərin yas içində olmağına baxmayaraq, Davud Rəbbə ümid edirdi və öz bədbəxtçilikləri ilə bacara bildi: «Ya Rəbb, canımı ölülər diyarından azad etdin, qəbrə düşməyim deyə Sən mənə həyat verdin» (Zəbur 30:3); «Mən Sənin məhəbbətində şad olub sevinəcəyəm, çünki məzlum halımı görmüsən, çəkdiyim əzabı bilmisən» (Zəbur 31:7). «Yetiş, canımı azad et...» (Zəbur 69:18). O, başa düşdü ki, Allah Çadın dərdinə şərik olur və bu anlama onun ürəyinə ümid saldı ki, onun duası, ərinin depressiya əsarətindən azad olmasına açar olacaq.

Merlin Çada dedi ki, ona görə dua etmək qərarına gəlib və ona öz keçirdiyi hissləri danışmağı xahiş etdi. Onun duasının ilk günlərindən onlar hər ikisi hiss etməyə başladılar ki, hər dəfə dua səslənməyə başlayanda onun əhval-ruhiyyəsi yaxşılaşırdı. Tezliklə duanın təsiri elə aşkar oldu ki, Çad onu inkar edə bilmirdi və arvadının duasına qoşulurdu. O vaxtdan onun işləri düzəlməyə başladı. Bu gün onun depressiyaları çox nadir hal olub və o, əvvəlkindən daha tez özünü ələ almağı öyrənib. Merlin və Çad, Çadın tam sağalması xatirinə Allaha tam etibar etmək qərarına gəldilər.

Qəzəb və depressiya — kişini incitməyə qadir olan uzun siyahıdan təkcə iki emosional naxoşluq. Adətən onların səbəbi bu şeydə gizlənir ki, kişilər öz axmaq xasiyyətlərini dəyişilməz hesab etməyə öyrəşiblər. Ancaq bu stereotip əslində dağıla bilər. Ərin emosiyalarını necə idarə etdiyinə baxaraq, fəaliyyətsiz durma, — axı sənin duan — onun gələcək azadlığının zəmanətidir.

## Dua

***Ya Rəbb***, Sən dedin ki, biz Sənə ümid edəndə, Sən bizim qəlblərimizi xilas edirsən (Zəbur 34:22). Mən dua edirəm ki, o (ərin adı) inansın ki, Sən onu neqativ emosiyalardan azad edə bilərsən. Qoy, o, depressiyadan, qəzəbdən, təlaşdan, qorxudan və özünü öldürmək haqqında fikirdən azad olsun. Xüsusən mən (xüsusi qayğı sahəsi) haqqında dua edirəm. Mənim ərimi, ona pis təsir göstərən insanlar ilə ünsiyyətdən azad et (Zəbur 40:4). Mən bilirəm ki, ancaq Sən azad etməyə və şəfa verməyə güclüsən, lakin məni onun azad olunmasının silahı kimi istifadə et. Onun apardığı mübarizəyə qarışmamağı, bunun əvəzində isə onun hərəkətlərini düzgün başa düşüb və onu ruhlandırmağı mənə öyrət.

Mənim ərimə, mənimlə və dostları ilə özünün ən dərin hissləri ilə bölüşməyi öyrənməyə kömək et. Qoy ağlamaq istəyəndə ağlamağı öyrənsin, özünə qapılmasın. Ona gülməyi və hətta ciddi şeylərə də yumorla yaxınlaşmağı öyrət. Ona, onu hansı emosiyalar üstələsələr də, həyatın vəziyyətləri üzərinə qalxmağı və həmişə Sənə inanmağı öyrət. Ona səbirliliyi öyrət, çünki, səbirlə öz canını xilas etmək olar (Lk. 21:19). Onu «sevinc gətirən məsh yağı» ilə məsh et (Yeş. 61:3), onu, Öz Ruhunla doldur və bu gün ona yaxşı əhval-ruhiyyə bağışla.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Öz ağlına güvənən axmaqdır,
hikmətlə gəzib-dolanan azad olur.

*Sül. Məs. 28:26*

Rəbbin gözü Ondan qorxanlara,
Onun məhəbbətinə ümid bağlayanlara baxar. İstəyir ki,
onları ölümdən qurtarsın, qıtlıqda belə, onlar sağ qalsın.

*Zəbur 33:18-19*

Rəbbi səbr edərək gözlədim, mənə tərəf dönərək
fəryadımı eşitdi. O məni çamırlı quyudan,
lilli bataqlıqdan çıxartdı. Ayağımı qaya üzərində bərkitdi,
hər addımımı möhkəm etdi. Dilimə yeni bir nəğmə verdi,
ilahi ilə Allahımıza həmd etdim. Bax nə qədər adam
bunu görəcək, qorxub Rəbbə güvənəcək.

*Zəbur 40:1-3*

Məni yenə də canlandırır,
ismi şərəfinə salehlik yolu ilə aparır.

*Zəbur 23:3*

Rəbb qullarının canını azad edir,
Rəbbə pənah gətirən məhkum olmur.

*Zəbur 34:22*

## 23 FƏSİL

# ONUN YERİMƏSİ

«Yerimək» sözü, insanın həyatda hansı məqsədə, nə cür, hansı istiqamətdə onun hərəkət edərək, getdiyi müxtəlif yolları nəzərdə tutur. İnsan öz yolunu gündəlik seçir. Təkcə bir yol onu irəli aparır, bütün qalanları isə — ancaq geri. Onun hansı yolu seçdiyindən, onun ətrafındakılara münasibəti, insanların ona münasibəti və hətta onun zahiri görkəmi də asılıdır. Mən fikir vermişəm ki, əvvəl tamamilə görkəmsiz və hətta zahiri xoşagəlməz olan insanlar, Allahın əmrlərinə riayət etməyə başladıqdan sonra, tanınmaz dərəcəyə qədər dəyişilirdilər. Onun sözləri onların dərinliklərinə hopduqca, onların qəlbləri saflıq var-dövləti və öz yeni yollarını daxildən dərk etmələri ilə çiçəklənirdi. Bu, onlara güc verirdi, çünki onlar öz təyinatlarını bilirdilər. Bu, artıq tamam başqa adamlar idi — sadəcə cazibədar yox, lakin heyranedici, cəlbedən idi. Müqəddəs Kəlam, insanın getdiyi yollar haqqında çox danışır. Biz Allahın üzü qarşısında mənəvi təmizlikdə «yeriməyə» çağırılmışıq, çünki «O, xeyirxahlığını düz yolla gedənlərdən əsirgəmir» (Zəbur 84:11); əxlaqilikdə, çünki «kamillik yolu ilə gedən qurtular» (Sül. Məs. 28:18); ürəyi təmizlikdə, çünki «kamalla gəzib-dolanan dinc yaşar» (Sül. Məs. 10:9); saleh insanlar ilə ünsiyyət

axtarmağa, çünki «pislərin məsləhəti ilə getməyən insan nə bəxtiyardır» (Zəbur 1:1), və müdrik insanlar ilə, çünki «hikmətli ilə oturub-duran hikmət qazanar» (Sül. Məs. 13:20); itaətkarlıqda gəzməli, çünki «nə bəxtiyardır Rəbdən qorxan, Onun yolları ilə gedən insan» (Zəbur 128:1). Lakin hamısından vacib, biz Allahın yolu ilə yeriməliyik. «Orada bir yol olacaq, o yol «Müqəddəs yol» adlanacaq. Murdar adam oradan keçməyəcək, o yol qurtuluş tapanların yoludur. Ora ilə gedənlərdən heç biri, hətta ağılsızlar da keçsələr, əsla yolunu azmayacaq» (Yeş. 35:8). Qurtuluş yolu ilə getməyin ən heyrətamizliyi ondan ibarətdir ki, hətta büdrəsək də belə, biz yıxılmayacağıq.

Debranın əri Ben səmimi imanlı insandır, heç səfehə oxşamır, amma o, şübhəli təşkilata kifayət qədər böyük məbləği qoyanda düşünülməmiş hərəkət etdi. Nəticədə, o bütün pullarını itirdi, özü də bu məbləğə əlavə xərclər də əlavə olundu. Bu əhvalat onların maliyyə uğurlarını, ola bilsin ki, sağlamlığını və hətta onların nigahını tam dağıda bilərdi, amma Benin, Rəbbin qarşısında mütilik və müqəddəslik yolunda qətiyyətlə durduğu üçün, onlara mərhəmət edildi. Onun, Allah ilə məsləhətləşmədən etdiyi düşünülməmiş hərəkəti, böyük pis hadisələrə gətirdi, ancaq xoşbəxtlikdən dəhşətli faciəyə gətirib çıxarmadı.

İsa dedi ki, Allahın yanına gəlməyə təkcə bir doğru yol var: «Yol Mənəm» (Yəh. 14:6). Məhvə aparan yol, geniş və enlidir və çoxları onu seçirlər, amma «…həyata aparan qapı dar və yol ensizdir və onu tapanlar azdır» (Mt. 7:14). Dua et ki, sənin ərin onu tapsın; Müqəddəs Ruhun idarəçiliyini dilə. Dua et ki, sənin ərin Allahın yolunda Rəbbin Sözünə imanla dura bilsin, qoy ona bu şeydə mütilik və Allahın iradəsinə qarşı edilmiş hər bir hərəkətində dərin tövbə kömək etsin. İman və mütilik onu müqəddəs yolda saxlaya bilər və əgər o, bədənə görə yox, ruha görə yaşayırsa, o, bu yoldan döndərməyəcək.

Allah istəyir ki, sənin ərin ruha görə hərəkət etsin ki (Qal. 5:25), o, həyatda Rəbb ilə birlikdə yerisin və hər şeydə Ona bənzəsin. Allahın yolu ilə yeriyən insan, — ətrafdakılar üçün sevincdir.

# Dua

«***Ya Rəbb***, bilirəm ki, insanın ömrü öz əlində deyil. Addımlarını düzəltmək gedən adamın işi deyil» (Yer. 10:23). Buna görə mən Sənə yalvarıram, ya Rəbb, Sən mənim ərimin ayaqlarını istiqamətləndir. Onu Öz nurunla nurlandır, onu Öz yollarına öyrət, onu Sənin həqiqətində yeriməyi öyrət. Mən dua edirəm ki, onda Sənin Sözün üçün ruhani aclığın və susuzluğun artması üçün onun ayaqları Sənin yolunda möhkəm bərkisin. Qoy Sənin hüzurun onun üçün, axtarışını heç vaxt dayandırmadığı sevinc olsun. Onu Öz yolunla apar və o, hər dəfə Sənin həqiqətindən kənarlaşarkən, onu tövbəyə döndər. Ona Sənin qarşında qüsursuz gəzməyə mane olan, onun hər bir gizli günahını aç. Qoy o, Sənin əhdlərini pozanda, peşmançılıq ona əziyyət versin. Onda təmiz ürək yarat və salehlik ruhunu təzələ. Onu tərk etmə və «Müqəddəs Ruhunu ondan götürmə» (Zəbur 51:11-12).

Ya Rəbb, Sən dedin ki, cismani təbiətə əsasən yaşayanlar Səni razı sala bilməzlər (Rom. 8:8). Buna görə mən dua edirəm ki, o (ərin adı) ruha əsasən hərəkət etsin, cismani təbiətə əsasən yox və bununla özünü «zalımların tutduğu yoldan» (Zəbur 17:4) qorusun. Qoy o, ruha əsasən hərəkət etdikdə, ruhun məhəbbət, sevinc, sülh, səbir, lütfkarlıq, yaxşılıq və sədaqət (Qal. 5:22-23) səmərələrini gətirsin. Onu ancaq bu yol ilə yerimək üçün bu müqəddəs yolda möhkəmləndir.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Beləliklə, Rəbb üçün məhbus olan mən sizə yalvarıram ki, aldığınız dəvətə layiq bir həyat sürəsiniz. Tam təvazökarlıq və həlimliklə, səbirlə davranıb, bir-birinizə məhəbbətlə təhəmmül edin.

*Ef. 4:1-2*

Amma salehlik yolu ilə gedən, doğru sözlər danışan, zorakılıqla əldə edilən qazancı rədd edən, əlini rüşvətdən uzaq tutan, qatillərin qurduğu qəsdə fikir verməyən, pisliyə qarşı gözlərini yuman yüksəkliklərdə yaşayacaq, təpələrin başındakı qalalar onun dayağı olacaq. O, çörəklə, su ilə təmin olunacaq.

*Yeş. 33:15-16*

Beləliklə, ey sevimli qardaşlarım, bu cür vədlərə malik olaraq, özümüzü hər bir bədən və ruh murdarlığından təmizləyək və Allah qorxusu ilə kamil qüdsiyyəti əldə edək.

*2 Kor. 7:1*

Ya Rəbb, çadırında kim qalır? Müqəddəs dağında kim məskən salır? Kamillik yolu ilə gedən, əmelisaleh olan, ürəkdən həqiqəti söyləyən...

*Zəbur 15:1-2*

Gözüm ölkənin sadiq insanlarına baxar, qoy onlar yanımda yaşasın. Kamillik yolu ilə gedənlər qulluğumda dayanar.

*Zəbur 100:6*

## 24 FƏSİL

# ONUN SÖZLƏRİ

Siz, çox danışıb, ancaq az iş görən adamla rastlaşmısınızmı? Çox kişilər var ki, öz planları ilə öyünürlər, amma onların həyata keçməsinə səy göstərmirlər. Əslində, belə insanlar bir yerdə dururlar: «Necə ki, iş çox olanda adam yuxu görər, söz də çox olanda səfeh danışığa çevrilər» (Vaiz 5:3). Öz məqsədlərinə, onlara görə dua etmək və onların həyata keçməsi üçün nə isə etmək əvəzinə, onlar haqqında daima danışmaqla onlara çatmaq olmaz.

Siz nə vaxtsa, özünə nəzarət etməyən, kobud və söyüşlə danışan insan ilə ünsiyyətdə olmusunuzmu? Belə adama qulaq asan insanlar, sıxılma hiss edirlər və onun mühitindən tezliklə çıxmağa səy göstərirlər. «Qoy hər cür kin, hiddət, qəzəb, çığırtı, küfr, hər növ pis niyyətlə bərabər sizdən uzaq olsun» (Ef. 4:31). Aydındır ki, Allahın xeyir-duaları, dilləri pislik danışanlardan yan keçir.

Daima şikayət edən adam tanıyırsınızmı? Nə olursa olsun, o, hər şeydə ancaq pis şey görür. Amma deyilib: «Hər şeyi şikayətsiz və etirazsız icra edin ki, siz, əyri və pozğun nəsil arasında nöqsansız və saf, Allahın qüsursuz övladları olasınız...» (Flp. 2:14-15). Neqativ sözlər, öz ardınca neqativ nəticələr gətirir və həmişə onları dilinə gətirən insan həyatında az şeyə müvəffəq olur.

Öz sözlərində fikirləşməyən, öz sözlərinin mənası haqqında az düşünən adam ilə görüşmüsünüzmü? O, onları düşüncəsiz və ehtiyatsız, dediyini götür-qoy etmədən atır. «Saleh insan cavab verməzdən əvvəl qəlbində düşünər, şər insanın dilindən pislik tökülər» (Sül. Məs. 15:28). «Düşünmədən danışana baxmısanmı? Axmağa ondan artıq ümid var» (Sül. Məs. 29:20). Dediyi sözlərin nəticələri haqqında düşünməyən adam üçün pis olacaq.

Siz, öz nitqləri ilə başqa insanın ürəyinə, istər həyat yoldaşı, uşağı, dostu və ya iş yoldaşına, ümidsizlik və ağrılı həyəcanı yerləşdirən adam görmüsünüzmü? «Ölüm və həyat dilin əlindədir, onu sevənlər barından yeyir» (Sül. Məs. 18:21). Belə insan ilk növbədə öz həyatını məhv edir.

Bizim işlətdiyimiz sözlər bizə həm bəraət qazandıra bilər və həm də mühakimə edə bilər (Mt. 12:37); onlar bizə ya şadlıq (Sül. Məs. 15:23), ya da şərəfsizlik (Mt. 15:11) gətirir. Bizim sözlərimiz başqa insanı ya ruhlandırır, ya da onun qəlbinə qarışıqlıq yeridir (Sül. Məs. 15:4). Bizim nitqlərimizin nəticəsi o dərəcədə ciddi ola bilər ki, bizi və ya bizim həmsöhbətlərimizi məhv, ya da xilas edə bilər (Sül. Məs. 13:3).

Söz danışan hər bir insan, seçim edir və düzgün seçim zamanı onu mükafat gözləyir: «Ağzını, dilini tutan insan canını bəlalardan saxlar» (Sül. Məs. 21:23). Ərinin danışdıqlarına, onun «ağzından çıxan» lara qulaq as, çünki onlar sənə onun qəlbinin vəziyyəti haqqında danışacaq: «ağız ürəyin daşmasından danışar» (Mt. 12:34). Əgər sənin ərin həmişə şikayət edir, hər şeydən narazıdırsa, əgər o, səfeh sözlər və ya onun özü üçün, ya da başqa insanlar üçün məhvedici sözlər danışır, əgər onu qəzəb hissləri doldurursa, dua et ki, Müqəddəs Ruh onun ürəyini təmizləsin, onu Öz məhəbbəti, sülhü və sevinci ilə doldursun və onun dilinə yeni həyat sözləri qoysun.

# Dua

***Ya Rəbb***, Səndən diləyirəm ki, Sənin Müqəddəs Ruhun mənim ərimin dilini qorusun. Onu şikayət etmək, donquldanmaq istəyindən azad et; onun dilini, onun ətrafında hər şeyi dağıdan, axmaq sözlərdən təmizlə. Ona, Sənə məqbul tərzdə öz nitqinə nəzarət etmək üçün, şəxsi intizamlı olmağı öyrənməyə kömək et. Sənin Sözündə deyilir ki, dilini şərdən və yalandan qoruyan, uzun ömür sürməklə mükafatlanacaq (Zəbur 34:12-13). Ona bu şeyi öyrət. Onu Öz məhəbbətinlə elə doldur ki, onun daşmasından, onun ağzından ancaq həyat və yaradıcılıq sözləri axsın. Həmin şeyi mənim də ürəyimdə yarat.

Qoy Sənin Ruhun, bizim danışdığımız sözlərdə hökmranlıq etsin; qoy bu sözlər bizim qarşılıqlı anlaşmamıza kömək etsin və bizi heç vaxt yaralamasın. Bizə, bir-birimizə hörmət göstərməyi, bir-birimizə bizi möhkəmləndirən, ruhlandıran, ürəyi açıqlığa gətirən və qarşılıqlı razılığa gətirən sözlər söyləməyi öyrət. Ya Rəbb, Sən Öz Sözündə demisən ki, əgər iki nəfər Sənin adınla birləşsələr, Sən «onların arasında» olacaqsan və mən belə dua edirəm: həmişə bizim aramızda ol ki, biz ikimiz öz aramızda razılığa gələk. Qoy bizim sözlər və bizim düşüncələr «hüzurunda qəbul olunsun», ya Rəbb, bizim qayamız və Satınalanımızsan (Zəbur 19:14).

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Ağzınızdan heç bir çürük söz çıxmasın, ancaq ehtiyaca görə,
ruhi inkişaf üçün yaxşı söz söyləyin ki,
sizi dinləyənlərə nemət versin.

*Ef. 4:29*

Mən sizə deyirəm: İnsanlar söyləyəcəkləri hər boş söz üçün
qiyamət günü hesab verəcəklər.

*Mt. 12:36*

Kim həyatdan kam almaq istəyirsə,
uzun ömür sürüb xoş gün görmək istəyirsə,
qoy dilini şərdən, ağzını fırıldaq üçün işlətməkdən qorusun.

*Zəbur 34:12-13*

Hikmətli adamın ağzından lütfkar sözlər çıxar,
lakin ağılsız öz dili ilə həlakına yol açar.

*Vaiz 10:12*

Ağızdan çıxan isə ürəkdən çıxar və insanı murdar edər.

*Mt. 15:18*

# 25 FƏSİL

# ONUN TÖVBƏSİ

Süzan, bir neçə il dua edib ki, onun əri Cerri narkotik istifadə etməkdən əl çəksin, lakin o, yenidən və yenidən onu bu məşğuliyyətlə tuturdu. Hər dəfə o, tövbə edib peşiman olurdu və and içirdi ki, bununla qurtaracaq, amma öz vədini yerinə yetirə bilmirdi. Süzan, onun səmimi tövbə etməsi üçün dua etməyi dayandırmırdı ki, bu tövbə onu tam dəyişdirsin və onun həyatını başqa axara yönəltsin. Təəssüflər olsun ki, Cerri Allaha dönməzdən qabaq, o, Ondan bir neçə ciddi dərs almalı oldu. Nəticədə radikal surətdə Cerrinin bütün həyatı dəyişdi. Bu gün bu tamam başqa insandır. Arvadı Süzan ilə o, insanlara bu azar ilə mübarizə aparmağa kömək etməklə Allaha xidmət edir. Süzan, imanlı arvad kimi, ərini tövbəyə gətirməsini Rəbdən dayanmadan diləyirdi.

Bütün insanlar səhv edir, ancaq məsələ bunda deyil. Bütün problem ondadır ki, insanlar bu gün öz səhvlərini etiraf etməyi unudublar. Bu, bütün dünyada yayılmış epidemiyaya bənzəyir. Müqəddəs Kəlamda deyilib: «Əgər günahlarımızı etiraf ediriksə, sadiq və adil olan Allah günahlarımızı bağışlayıb, bizi hər yamanlıqdan təmizləyəcəkdir» (1 Yəh. 1:9). Bu baş verməyəcək. Əgər biz, öz düzgün olmayan işlərimizdə tövbə etmək istəmiriksə.

Allahın planına əsasən, bizim hərəkət tərzimizin dəyişilmə prosesi üç addımdan təşkil olunur: birincisi, Allahın qarşısında iqrar etmək, yəni, öz səhvini etiraf etmək; ikincisi, tövbə etmək, yəni edilmiş hərəkət haqqında peşimançılığını ifadə etmək; üçüncüsü, üzr istəmək, yəni öz günahlarından təmizlənmək. Əgər biz, bu üç addımlardan heç olmasa birini atmağa bacarıqlı deyiliksə, bizim problemlərimizin kökünü bizim qürurluğumuzda axtarmaq lazımdır. Öz qürurluğunu Allahın və başqa insanların qarşısında mütiləşdirə bilməyən, öz səhvlərini etiraf edə bilməyən insan, ancaq öz həyatını mürəkkəbləşdirir. «Öz gözündə hikmətli sayılanı görmüsənmi? Axmağa ondan artıq ümid var» (Sül. Məs. 26:12).

Bəlkə sənin ərin üçün öz təqsirini etiraf etmək çətindir? Bəlkə o, hər gün iyirmi dəfə «bağışla» deyib, amma davranışında isə dəyişilməyənlərdən biridir? Necə olursa olsun, o ancaq, tövbə etməlidir. Həqiqi tövbə ehtimal edir ki, siz etdiyiniz səhv hərəkəti təkrar edə bilməzsiniz. Ancaq Allah, bizə nədə günah etdiyimizi və bizim bu günahı necə satın almağımızı aça bilər: «…Allahın xeyirxahlığı səni tövbəyə yönəldir» (Rom. 2:4). Tövbə edənlər Allahın lütfünü əldə edəcəklər, biz isə Rəbdən diləməliyik ki, bizim ərlərimiz Onun mərhəmətini əldə etsinlər.

Bir çox kişilər xüsusi qürurluqlarının və öz səhvlərini etiraf edib və onlarda tövbə etmək bacarığının olmadığının qurbanı olublar. Biz, bu barədə qəzetlərdə oxuyarkən, daima bu şeydə əmin oluruq. Satın alınmamış günah heç yerə yoxa çıxmır. Xərçəng xəstəliyi kimi, o böyüyür və qəlbi yeyir. Dua et ki, sənin ərin, öz günahını görəndə, mütiləşib və Allahın qarşısında etiraf etsin, sonra isə etdiyi hərəkətə görə peşiman olub və öz səhvini bir daha təkrar etməsin. Allah «istəyir ki, hamı tövbəyə gəlsin və kimsə həlak olmasın» (2 Pet. 3:9). Belə dua ola bilsin ki, kimə görə ki, dua edilir, onun üçün ağır olsun, amma yaxşısı budur ki, qoy Allah, indi onun günahını ona açsın, nəinki sonra bu insan öz səhvlərinin nəticələrinin

«altını çəksin». Nəhayət sənin ərin, hətta bunu bərkdən səsləndirməsə də, sənin duana görə sənə minnətdar olacaq.

## Dua

***Ya Rəbb***, mən diləyirəm ki, mənim ərimin həyatında olan bütün günahlarını Sən ona açasan, çünki «elə gizli bir şey yoxdur ki, açılmasın; və elə xəlvəti bir şey yoxdur ki, bilinməsin» (Mt. 10:26). Onu hər bir gizli günahdan təmizlə və qoy, o səhv hərəkət edərkən, yubanmadan onda tövbə etsin (Zəbur 19:12). Ona öz səhvlərini etiraf etməyi öyrət; onun gözlərini və qulaqlarını aç ki, Sənin həqiqətini görsün və Sənin səsini eşitsin. Qoy o, Sənin qarşında tövbə etsin. Əgər, o, əziyyət çəkməlidirsə, qoy bu kədərli ürəyin əziyyəti olsun, lakin səbəbi, alınmamış günah vasitəsilə, onun həyatına gizlincə soxulmuş, düşmənin məhvedici təsiri olan əziyyət olmasın. Ya Rəbb, mən bilirəm ki, «təvazökarlıq şərəfdən əvvəl gələr» (Sül. Məs. 15:33). Onun ürəyindən, öz səhvlərini etiraf etməyə mane olan, qürurluğu qov və onun qəlbinə mütilik ver ki, o, Sənin vəd etdiyin izzətə daxil olsun.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Sevimlilərim, əgər ürəyimiz bizi məhkum etmirsə,
bizim Allah qarşısında cəsarətimiz vardır.
Və nə rica etsək, Ondan alırıq, çünki Onun əmrlərinə
riayət edirik və Onun qarşısında məqbul
olan işləri görürük.

*1 Yəh. 3:21-22*

Günahlarını ört-basdır edən uğur qazanmaz,
onu etiraf edərək tərk edən mərhəmət tapar.

*Sül. Məs. 28:13*

Ey Allah, məni yoxla, qəlbimi öyrən, Sən məni sınaqdan
keçirib bütün fikirlərimi bil. Gör qəlbimdə pisliyə yol
verirəmmi? Əbədi yolda mənə rəhbər ol.

*Zəbur 139:23-24*

Etiraf etməyəndə bütün günü nalə çəkməkdən sümüklərim
taqətdən düşdü. Əlin üzərimdə gecə-gündüz ağırlaşdı,
sanki yayın quraqlığı məni taqətdən saldı.
Sonra Sənə günahımı etiraf etdim, təqsirlərimi gizlətmədim.
Dedim: «Rəbbə asiliyimi etiraf edirəm».
Təqsirimi, günahımı bağışladın.

*Zəbur 32:3-5*

Rəbbin qulu isə toqquşmaya baş qoşmamalı,
amma hamı ilə sakit rəftar etməli, öyrətməyə hazır olmalı,
haqsızlıqlara tab gətirməlidir. Zidd gedənləri isə həlimliklə

islah etməlidir; bəlkə Allah onlara həqiqəti dərk etmək
üçün tövbəyə fürsət verəcək. Onlar da ayılıb,
iblisin torundan xilas olacaqlar. O, onları əsir etmişdir ki,
onun istədiyini yerinə yetirsinlər.

*2 Tim. 2:24–26*

## 26 FƏSİL

# ONUN AZAD OLUNMASI

Melissa, öz ərinin spirtli içkilərə meylli olduğu üçün çox narahat idi. Mark, sözün əsil mənasında, spirtli içki aludəçisi deyildi, ancaq onda, bu azarın aşkar simptomları müşahidə olunurdu, özü də ki, onun atası əsil şərab düşgünü olmuşdu. Melissa dua edirdi ki, onların Mark ilə uşaqları bu qüsuru miras almasınlar. O, Allahdan diləyirdi ki, onları hətta spirtli içkilərə meyllilikdən belə qorusun. Melissa görürdü ki, onun dualarına cavab olaraq, Rəbb, onun uşaqlarını bu naxoşluqdan qorudu.

Toydan tezliklə sonra Stefani anladı ki, onun əri Ceyson zina günahı ilə daxili mübarizə aparır. Demək olmaz ki, o, arvadını sevmirdi, ancaq o, öz əlaqələrində qarışıq olan vaxtlardakı kimi, heç cür subaylıq həyatı ilə vidalaşa bilmirdi və indi cismani ehtirasları ilə bacarmağa özündə güc tapa bilmirdi. Ərinin nə cür asılılıqda olduğunu görən Stefani, onun azad olması üçün dua etməyə başladı. Ceyson özü də bu hücumdan azad olmaq arzusunda olduğu üçün, onlar ümumi məqsədlərinə tezliklə çatdılar.

Bizim hər birimiz, bizi kölə edə biləcək pis vərdişlərdən azad olmaq ehtiyacındayıq. Allah bu haqda bilir. Əgər bizim Ona ehti-

yacımız olmasaydı, məgər İsa bizə Qurtarıcı kimi gələrdimi? Nəyə görə O, bizə dua etməyi öyrədirdi: «bizi şərdən xilas et» (Mt. 6:13)? Nə üçün O, bizi imtahanlardan (2 Pet. 2:9), şər adamlardan (Zəbur 140:1), bizim ölümə aparan ehtiraslarımızdan (Sül. Məs. 24:11), bizim bütün əzablarımızdan (Zəbur 34:17) və ölümdən (2 Kor. 1:10) azad etməyi vəd verib? Bizə kömək etmək istədiyinə görə deyilmi? O, bunu etməyə hazırdır və bunun arzusundadır, bizə isə ancaq, Ondan bu barədə diləmək qalır. O dedi: «Dar gündə Məni çağır, Mən səni xilas edəcəyəm, sən də Məni şərəfləndirəcəksən» (Zəbur 50:15).

Məgər bizə bu şey təsəlli vermirmi ki, ölümcül təhlükəli vəziyyətdə dəmir məngənədə olaraq, əziyyətlər keçirərək, biz əmin ola bilərik ki, Allah bizim ehtiyacımızı görür və azad olmağımız üçün yalvarışımızı eşidir: «Rəbb müqəddəs yüksəklikdən, yer üzünə göylərdən nəzər saldı, əsirlərin naləsini eşitmək üçün, ölümə gedənləri azad etmək üçün» (Zəbur 102:19-20). Məgər əla deyilmi — biləndə ki, Allahın əli bizi çıxılmazlığın və ümidsizliyin burulğanından çıxarıb və xilas edir (Zəbur 25:15)? Bizlərdən kim ehtiyacda deyil?

Hətta, əgər sənin ərin öz ehtiyacını etiraf etməyə bacarıqlı deyilsə, ona kömək elə, çünki bəzi kişilər əsil ümidsizliyə düşürlər, arvadın duası isə, onun azadlığı üçün tələb olunan həmin silah ola bilər. Sən, Azad edəndən ərini bütün asılılıqlardan azad etməsini diləyə bilərsən. Sən, sənin ərini buxovlayan düyünləri, ancaq bərk sıxmağa səy göstərən qarşı düşmənə dura möhkəm bilərsən. Həvari bizi öyrədir: «...Məsihin bizə bəxş etdiyi hüriyyətdə möhkəm durun və yenidən əsarətin boyunduruğunu taxmayın» (Qal. 5:1). Mənə məlum olan üsullardan, qarşı durmaq üçün ən effektlisi — Allahın bütün silahlarını geyinmək, nəyi ki, mən özümə və ərimə görə dua edərək, edirəm. Budur mənim duam:

# Dua

***Ya Rəbb***, Sən dedin ki, dar günümüzdə biz Səni çağırsaq, bizi xilas edəcəksən (Zəbur 50:15). Mən indi Sənə nalə çəkib və mənim ərimi, onu buxovlayan (sınağın adı) hər bir şeydən azad etməni diləyirəm. Onun köməyinə gəl və onun qalası, sığınacağı və qayası ol (Zəbur 31:2) və onu düşmənlərinin əlindən azad et (Zəbur 31:15).

Ona özü-özündə haqsızlığı görüb və kömək üçün Sənə nida etməyə kömək et. Əgər duadan sonra, o saat ona azadlıq gəlməsə, ona ümüdini itirməməyə kömək et və əminlik ver ki, Sən, onun həyatında xeyirli işini başlamısan və onu başa çatdıracaqsan (Flp. 1:6). Mənim ərimə əmin olmağa kömək ol ki, Sən, Rəbb, hətta ən ümidsiz vəziyyətləri dəyişməyə güclüsən.

Ona anlamağa kömək et ki, «mübarizəmiz qan və ətə qarşı deyildir, ancaq rəyasətlərə, hakimiyyətlərə, bu qaranlıq dünyanın hökmranlarına, yəni səmavi aləmdə olan pis ruhi qüvvələrə qarşıdır» (Ef. 6:12). Mən dua edirəm ki, mənim ərim Rəbbdə qüvvətlənsin və iblisin hiylələrinə qarşı dura bilmək üçün Allahın bütün zirehlərini geyinsin ki, pis gündə müqavimət göstərə bilsin. Ona, belinə həqiqət qurşağı bağlamağa, ayaqlarına sülh Müjdəsini təbliğ etmək hazırlığını geyməyə, şeytanın bütün qızmar oxlarını söndürməyə qadir olan, iman qalxanını götürməyə, başına xilas dəbilqəsi geyməyə və Allahın Sözü olan Ruhun qılıncı ilə silahlanmağa kömək et və ona yorulmaz, daimiliklə dua və niyaz etməyə kömək et (Ef. 6:13-18).

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Rəbb qayam, qalam, xilaskarımdır, Allahım qayamdır,
Ona pənah gətirəcəyəm, Odur qalxanım, qüdrətli qurtarıcım,
qülləm. Həm də layiq Rəbbi çağıracağam,
düşmənlərimin əlindən qurtaracağam.

*Zəbur 18:2-3*

Mən Rəbbi sevdiyinə görə onu azad edəcəyəm,
ismimi tanıdığına görə onu yüksəldəcəyəm.

*Zəbur 91:14*

O, ucalardan əl uzadıb məni tutdu, məni dərin suların
içindən çıxartdı. Məni qüvvətli düşmənimdən azad etdi,
çünki yağılarım məndən güclü idi. Fəlakətli günümdə
qarşıma çıxdılar, lakin Rəbb mənə dayaq oldu.
O məni genişliyə çıxardı, məndən razı qalıb
məni qurtardı.

*Zəbur 18:16-19*

Çünki canımı ölümdən qurtardın,
ayaqlarımı büdrəməyə qoymadın, belə ki Allahın
hüzurunda, həyatın nurunda dolanım.

*Zəbur 56:13*

Rəbbin Ruhu üzərimdədir,
çünki yoxsullara Müjdəni bildirmək üçün O Məni məhs
etdi ki, Qəlbi sınıq olanlara şəfa verim, əsirlərə hürr
Olacaqlarını, korlara gözlərinin açılacağını təbliğ edim,
əzilənləri azad edim.

*Lk. 4:18*

## 27 FƏSİL

# ONUN İTAƏTKARLIĞI

Liza özü ruhani böyüdüyü kimi, əri Conatanın belə ruhani böyümədiyinə görə çox narahat idi. Onun münasibəti Allah ilə günbəgün möhkəmləndiyi halda, ərinin Rəbb ilə əlaqəsi, göründüyü kimi, ancaq zəifləyirdi. Onun «ruhani durumu» Lizanı ümidsizliyə gətirirdi, çünki o, əri ilə birgə ruhani böyümək haqqında, onların həyatının bu vacib sahəsində birgə iştirak etmək haqqında həmişə arzulayırdı. Onu ailədə «ruhani yedəkçi» rolu cəlb etmirdi. Lakin Conatan, onun bu mövzuda söhbət etməyə bütün səylərinin qarşısını alırdı. O, özünə bu şeylə bəraət qazandırırdı ki, işdə böyük gərginlik, ona Rəbb ilə ünsiyyətə və Allahın Kəlamını oxumağa vaxt qoymur qalsın. Bundan başqa, o, tez-tez həftənin sonunda məzuniyyətlərə gedirdi və ailə ilə birlikdə kilsəyə gəlmirdi.

Ancaq, Lizanı ən çox həyəcanlandıran Conatanın bu barədə narahat olmaması idi. Bu, onun işdə problemləri başlayana qədər davam etdi, çünki o, öz vəzifə borclarının öhdəsindən lazımi qədər uğurla gələ bilmirdi. Onun vəziyyəti stress vəziyyətinə daha çox yaxınlaşdıqca, onun gücü tükənir və onun üçün bu yükü daşımaq getdikcə çətinləşirdi. Liza bilirdi: əgər Conatan, Allah ilə gündəlik

ünsiyyət və ruhani güc əldə etməyin arasında əlaqəni görsə, onun həyatı yaxşılığa doğru dəyişilirdi. O, həmçinin onu da bilirdi ki, onun əri ona qulaq asmaq istəmir.

Hətta bilərək ki, Allah Conatanı itaətkar olmağa çağırıb, Liza susmaq qərarına gəlmişdi, əri ilə sözləşmək əvəzinə isə o, hər gün Rəbbdən onun ərinin Allahın Ruhu ilə dolmasını xahiş edirdi. Beləcə dualarda görünməz dəyişikliklərlə bir neçə ay keçdi, nə vaxt ki, Conatan bir dəfə səhər sakitcə dedi: «Bu gün mən ofisə bir az tez gedəcəyəm. İstəyirəm ki, iş günü başlayana qədər Rəbb ilə təklikdə olum». Liza susaraq Allaha minnətdar oldu.

O vaxtdan bəri, bəzi hallar müstəsna olmaqla, Conatan işə adi vaxtdan tez gedirdi ki, Kəlam oxumağa və dua etməyə vaxt çatdıra bilsin. Bu, iki il bundan əvvəl baş vermişdi, bu gün isə Allahın əmrlərinə onun itaətkarlığı onun həyatının digər sahələrinə də təsir göstərir: o, fiziki hərəkətlərlə məşğul olur, düzgün qidalanır və artıq çəki atıb, əvvəllər o, bunun ancaq arzusunda idi və öz yeni həyat mövqeyində tam möhkəmləndi. Allahdan başqa belə şeyi kim edə bilərdi?

Əgər sən ərinin səhv yol ilə getdiyini görürsənsə, ona bu barədə demək lazımdırmı? Əgər hə, onda necə və nə vaxt? Mənim şəxsi təcrübəm deyir ki, ən düzgünü, əvvəlcə bu problem haqqında Allaha danışmaq olar və qoy O, hər şeyi Öz tərəzisində çəksin. Ola bilsin ki, O, Liza ilə olduğu kimi, səni də sakitliyə və dua etməyə çağıracaq; ola bilər ki, bu mövzuda ərin ilə danışmağın vacibliyini sənə göstərər və o vaxt sənin ərin, çox güman ki, sənin sözlərində Allahın səsini eşidər, əlbəttə ki, əgər, ərin ilə söhbətdən qabaq sən dua etmisənsə. Ərin zəhləsini tökmək lazım deyil — belə vəziyyətdə yaxşısı budur ki, ümumiyyətlə susasan, vəziyyət ancaq korlana bilər. Dua et ki, onun gözləri açılsın və həqiqəti görsün ki, onun tövbəsi, ona sənin məsləhət və tövsiyələrindən, çox şey açsın. Sən onu, düzgün hərəkət etməyə ruhlandırıb və onun həmişə Allahın əhdlərinə

riayət etməyi üçün dua edə bilərsən, amma təkcə Rəbb ona həlledici təsiri göstərə bilər.

Heç bir insan, Allah tərəfindən onun üçün hazırlanmış xeyir-dualara icazə ala bilməz, əgər o, itaətkarlığa öyrənməsə. Öz fikirlərini tam aydın şəkildə ifadə edən İsa dedi: «Əgər sən, əbədi həyata qovuşmaq istəyirsənsə, əmrlərə riayət et» (Mt. 19:17). O, bilirdi ki insana, onun Allaha itaətkar olub və Ona məqbul olanı etməyində əminlikdən başqa, heç nə sülh və əminlik gətirməyəcək. Allahın Kəlamı, sənin ərinə mərhəmət vəd edir, əgər o, Onun əhdinə və Onun yoluna sadiq olsa (Zəbur 25:6-10); o, ona sülh (Zəbur 37:37), xoşbəxtlik (Sül. Məs. 29:18), bolluq (Sül. Məs. 21:5), xeyir-dua (Lk. 11:28) və həyat (Sül. Məs. 21:21) vəd verir. İtaətsizlik isə ağır nəticələrə gətirir (Sül. Məs. 15:10): itaətsizin duaları eşidilməmiş qalır (Sül. Məs. 28:9) və o, Allahın Səltənətindəki əbədi həyatdan məhrum olur (1 Kor. 6:9).

İtaətkarlıqda gəzmək, sadəcə Allahın iradəsini yerinə yetirmək deyil, lakin Rəbbin konkret əmrlərini icra etməkdir. Məsələn, əgər Allah sənin ərinə dincəlməyi əmr edirsə, amma o, tabe olmur, bu itaətsizlikdir. Əgər Allah hər hansı bir işi kənara qoymağı əmr edirsə, ancaq sənin ərin öz bildiyini etməkdə davam edirsə, bu itaətsizlikdir. Əgər Allah ona köçməyi əmr edirsə, amma o, tabe olmursa, bu itaətsizlikdir.

Lakin, Allahın əmrlərini yerinə yetirən insan, öz evini daş üzərində qurur. O evin üzərinə sellər və qasırğalar hücum etsə də, o yıxılmayacaq (Mt. 7:24-27). Sən axı istəmirsən ki, sənin ərinin tikdiyi ev, onun itaətsizliyinə görə uçulsun. Sən öz ərinin üzərində müəllim və ya nəzarətçi deyilsən, lakin sən, Allahın cavabını alan kimi, ona görə dua edə bilərsən.

Əgər, heç nəyə baxmayaraq, sənin ərinin inadcıl əxlaqı sizin evin üzərinə bədbəxtçilik gətiribsə, bil ki, Allah sənin itaətkarlığını qiymətləndirir və sənin məhv olmağına imkan verməz. O, sənin üzərinə

Öz xeyir-dualarını tökəcək və sənin itkilərinin əvəzini ödəyəcək. Təkcə, sənin ərinin Allaha qulaq asmağı tərgitməməsi və Allahın iradəsi ilə hərəkət etməsi üçün həmişə gücə, cəsarətə, istəyə malik olması barədə dua etməyə davam et.

## *Dua*

***Ya Rəbb***, Sən Öz Sözündə demisən ki, kimlərin ki, ürəyində qanunsuzluq hökm sürür, onları eşitməyəcəksən (Zəbur 66:18). Mənim duamı eşit və mənə göstər ki, Sənin və ərimin qarşısında nədə təqsirkaram. Mənə göstər, onu kifayət qədər sevirəmmi, ona qarşı kin saxlayırammı, Sənin arvadlara əmr etdiyin kimi, ona elə xidmət edirəmmi. Ya Rəbb, mənə de, Sənə itaətkarammı və mənim həyatım Sənə məqbuldurmu. Mən günahlarımı Sənin qarşında iqrar edirəm və Səndən üzr istəyirəm.

Mən Səndən diləyirəm ki, Sən ona (ərin adı), Sənin əhdlərinə riayət edib və Sənin yolların ilə yeriyərək yaşamaq arzusunu bəxş edəsən. Ona Öz fikrini aç və Səndən olmayan hər şeyi onun həyatından uzaqlaşdır. Qoy onun hər bir fikri və hər bir hərəkəti Səninlə istiqamətlənsin. Onu xeyirxah işlərə sövq et, insanlar haqqında pis danışmağı ona qadağan et, hamı ilə səbirli və həlim olmağa və təvazökarlıq nümunəsi olmağa öyrət (Tit. 3:1-2). Ona özünü idarə qabiliyyəti və itaətkar olmağın vacibliyini başa düşməyi öyrət. Onu, onun salehliyi və «əlitəmizliyinə» (Zəbur 18:20) görə mükafatlandır. Ya Rəbb, ona Öz yolunu göstər, ona Sənin həqiqət yolun ilə yeriməyi öyrət, çünki Sən onun xilasının Allahısan (25:4-5).

Qoy o, Sənə izzət versin, çünki biz Səni izzətləndirəndə, bizim həyatımız məna ilə dolur və başqa şəklə dəyişilir və biz Sənin əmrlərinlə hərəkət edib və Sənə itaət etməyə Səndən güc alırıq. Mənim ərimə Sənin iradəni yerinə yetirmək istəyi ilə olan ürək ver və qoy o ürək, ancaq Sənin əmrlərinə tam itaətkarlıq nəticəsində gələn, sülhünlə dolsun.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
# SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Oğlum, təlimimi unutma, qoy qəlbin əmrlərimə bağlansın.
Onlar ömrünü uzadar, həyatına illər, firavanlıq artırar.
Qoy səni xeyirxahlıq və sədaqət tərk etməsin,
onları boynuna bağla, ürəyinin lövhəsinə yaz.

*Sül. Məs. 3:1-3*

Mənə «Ya Rəbb, ya Rəbb», — deyən hər kəs Səmavi Səltənətə girməyəcəkdir; ancaq göylərdə olan Atamın iradəsini yerinə yetirən oraya girəcəkdir.

*Mt. 7:21*

Kim ki qanunu eşitməmək üçün qulaqlarını bağlayır,
onun duaları iyrəncdir.

*Sül. Məs. 28:9*

…Sözümə qulaq asın. Onda Mən sizin Allahınız olacağam, siz də Mənim xalqım olacaqsınız. Hər barədə sizə əmr etdiyim yolla gedin ki, uğur qazanasınız.

*Yer. 7:23*

## 28 FƏSİL

# ONUN ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏSİ

Nə üçün, bəzi çox bacarıqlı və talantlı insanlar tez-tez «bağlı qapılara» və etirazlara rast olurlar, başqa az istedadlı olanlar isə öz həyatlarının bütün sahələrində uğur qazanırlar? Deyəsən bu, heç də ədalətli deyil. Əlbəttə ki, vaxt faktorunu unutmaq olmaz. Allahda hər şeyin öz vaxtı var; O bizi tədricən, Özü bizim üçün hazırladığına hazırlayır. Əgər, biz Allahın planını görüb və bu qızıl qaydanı yadda saxlayırıqsa, biz sakitcə Onun planlarının yerinə yetməsini gözləyə bilərik.

Bir vacib amili də yadda saxlamaq lazımdır — bizim özümüzü qiymətləndirməyimizi. Özünü alçaq qiymətləndirən adamı həmişə, onun hərəkətləri və başqa insanlar ilə münasibəti ilə əlaqədar şübhələr incidir. Onun öz-özlüyündə olan əminsizliyi, onun öz-özünə, dostlarına, iş yoldaşlarına və hətta tanış olmayan adamlara da təsir göstərir. Rədd edilmiş olmağa razılaşaraq, o belə də olur.

Həyat dalanlarından çıxış axtarışlarında Den ümidsizliyə düşdü: o bilmirdi ki, kimdir, nəyə qadirdir və ümumiyyətlə o, nəyəsə qadirdirmi? Həddindən artıq öz-özündə «qurdalanmaq» onun arvadı Sindi ilə münasibətini gərginləşdirdi. O, ərinə nə cür kömək etməyə

səy göstərsə də, o arvadına qulaq asmırdı, çünki, elə hesab edirdi ki, arvadı onun köməksizliyinə və vəziyyəti ayırd edə bilməməzliyinə gülür. Buna görə Den, arvadının bütün təkliflərini qəti surətdə inkar edirdi, arvadı isə öz tərəfindən, onu əmin etmək üçün öz uğursuz səylərini təkrar edirdi. Nə qədər ki Sindi öz ərinə aktiv təsir göstərməyə çalışırdı, bir o qədər də Den, ondan uzaqlaşırdı və nəhayət, tam çıxılmazlıq vəziyyətində tamamilə arvadından kənara çəkildi.

Aydındır ki, belə hallar boşanma ilə başa çata bilərdi, amma Sindi başa düşdü ki, əri ilə döyüşməməlidir, ona görə dua etməlidir. O, Rəbbdən ona Den ilə nə baş verdiyini göstərməsini, səmimi kömək etmək arzusuna baxmayaraq, ərinin ona münasibətdə düşmənçiliyinin səbəbini açmasını diləyirdi. Allah ona göstərdi ki, onların nifaqının səbəbi, Denin, həyatı boyu uğursuz olan öz atasından miras aldığı, keyfiyyətsizlik kompleksindədir. Ancaq bu azarın mənbəyi necə olsa da, Sindi inanırdı ki, Allah, onun ərini dəyişdirməyə qadirdir.

O, qərara gəldi ki, Allah, Deni buxovlayan zəncirləri qırıb və onun ərini Ona məqbul olan vəziyyətə dəyişənə qədər, dua etsin. O, Allahdan diləyirdi ki, onun Allahın oğlu olduğunu başa düşməyə ona kömək etsin. O, həmçinin Rəbbdən diləyirdi ki, onun sözlərini, əri tənqid yox, ruhlandırma kimi qəbul edə bilməsi üçün, ona Den ilə bədəndə deyil, ruhda danışmağı öyrətsin.

Sindi öz dualarına ilk cavabları bir neçə aydan sonra aldı, amma bu əhəmiyyətli dəyişikliklər idi. Den arvadında öz ittifaqçısını gördü. Onlar razılığa gəldilər və bir yerdə fəaliyyət göstərmək üçün, mübarizəni dayandırdılar. O, tez-tez kilsəyə getməyə başladı və Müqəddəs Kəlamı tez-tez oxuyaraq onu dərindən anlamağı öyrəndi. Tədricən o, özünü Allahın sevimli övladlarından biri kimi gördü və özünə daha «təkamülün uğursuz bəhrəsi» kimi baxmırdı. Onun, özünü qiymətləndirməsi yuxarı qalxdıqca, bir o qədər Den öz həqiqi statusunu aydın başa düşürdü, bir o qədər o, öz gözündə dəyərli

olurdu. Təəccüblü deyildir ki, onun qarşısında yeni imkan qapıları açılmağa başladı. O, hiss etdi ki, onun uzun müddət arzuladığı, uğur və nüfuz ona gəlir.

Əgər sənin ərin öz münasibətini özünə qarşı dəyişməlidirsə, səbirli ol. Uzun illər boyu qurulmuş stereotipləri bir hərəkətlə sındırmaq mümkün deyil. Ancaq sən, sənin ərinə, Allahın həqiqətini eşitməyə mane olmaq məqsədi ilə, yalan fikirləri qəbul etməyə vadar edən düşməni məhv etməyə qadir Olan Allahın köməyinə arxalana bilərsən. Sən görəcəksən ki, vəsadət etdikcə, Allah sənə, ərinin problemlərinin konkret səbəblərini göstərəcək. Yəni sən dua etdikcə, O sənə necə dua etmək lazım olduğunu öyrədəcək.

Mən əminəm ki, kişinin həyatında orta yaş həddində krizis vəziyyətinin baş verməsinin qarşısını bu, konkret dua ilə almaq olar. Kişi 50 yaşına çatdıqda, uzun illər boyu onun qəlbində yığılmış bütün «şlaklar» zəhərli axın ilə axmağa başlayır, elə bil ki, onları əvvəllər saxlayan, gözlə görünməyən damba, yaşlaşdıqca tamam zəifləyib. Əgər o dağılsa, bu axın onun özünü çox uzağa apara bilər. Bu ağır zamanda onun yıxılmayıb, dura bilməsi — onun Rəbbdə möhkəmlənə bilməsindən, özündə Onun surətini görə bilməsindən aslıdır.

Allah bizi ilk növbədə Ona müraciət etməyə — Onu axtarmağa, Onun əmrlərinə riayət etməyə, Onu birinci yerə, öz şəxsi ambisiyalarımızı isə ikinci yerə qoymağa çağırır. Biz Allah ilə birləşəndə, O, həyatımızı idarə etməyə başlayır: O, yol göstərir, bizə isə ancaq, Onun ardınca getmək qalır. Biz Ona baxanda, Onun izzətinin şəfəqləri bizdə əks edir və Onun surəti bizdə möhürlənir. Biz bütün ürəyimizlə Allaha xidmət edəndə isə, öz-özümüzü itiririk və o zaman həqiqi azadlıq əldə edirik. Biz belə azadlığı öz ərlərimizə arzulayırıq.

Sənin ərin Allahın təbiətini anlamayana qədər, özünü həqiqətin işığında görə bilməz. Duada dilə ki, sənin ərinə onun özü haqqında həqiqət açılsın.

# Dua

***Ya Rəbb***, mən dua edirəm ki, o (ərin adı), Sənin surətində yaradıldığını görsün. Ona Sənin gözündə öz dəyərliliyini anlamağa və Sənin tələblərinə uyğun olmağa kömək et. Qoy o, Sənin onu mükafatlandırdığın talantları görsün və onları layiqincə qiymətləndirsin. Qoy, o, özünü Sənin gözlərinlə görsün və anlasın ki, «onu Allahdan bir az aşağı yaratdın, izzət və əzəmət tacını onun başına qoydun, əllərinin işləri üzərində onu hökmdar etdin. Hər şeyi onun ayağının altına qoydun» (Zəbur 8:5-6). Qoy, ona əks pıçıldayan, bütün səslər sussun; qoy, ona, onun uğurunun zəmanəti onun yox, Sənin kamilliyin olmasını deyən, Sənin səsini eşitmək üçün qulaqları açılsın.

Ona göstər ki, o, «Allahın surəti və izzətidir» (1 Kor. 11:7), o, «Onda dolğunluğa malikdir. O, hər cür rəyasət və hakimiyyətin Başçısıdır» (Kol. 2:10). Ona göstər ki, Sən onu rədd yox, qəbul edirsən və qoy, bu bilik onun qəlbinə sülh və təhlükəsizlik hissi gətirsin. Onun qəlbini şübhələr kölə etməməyinə görə, onu artıq öz-özünü təhlil etmədən azad et. Qoy o, Səni necə varsan elə görə bilsin və qoy onun qəlbi öz üzərində Məsihin nişanəsini daşısın.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Çünki O, kimləri əvvəlcədən tanımışdısa, onları da
Öz Oğlunun surətinə uymalarını qabaqcadan müəyyən
etmişdir ki, O, çoxlu qardaş arasında ilk doğulan olsun.

*Rom. 8:29*

Biz hamımız isə, açıq üzlə Rəbbin cəlalını aynada
imiş kimi seyr edərək, cəlaldan cəlala keçib,
Onunla eyni surətdə dəyişdirilirik. Bu cəlal da Rəbbin
Ruhundan gəlir.

*2 Kor. 3:18*

Bir-birinizə yalan danışmayın, çünki köhnə mənliyinizdən
və onun əməllərindən soyundunuz və yeni mənliyi geydiniz.
Yeni mənliyiniz onu Yaradanın surətinə bənzər...

*Kol. 3:9-10*

Çünki kəlamı eşidib onu icra etməyən, güzgüdə öz sifətinin
cizgilərini seyr edən adama bənzəyir: o öz-özünə baxır,
kənara çəkilir və dərhal necə olduğunu unudur.
Lakin kim kamil qanuna, azadlıq qanununa diqqətlə baxıb
ona bağlı qalarsa və unutqan dinləyici deyil, icraedicidirsə,
öz əməlində xoşbəxt olacaqdır.

*Yaq. 1:23-25*

Qalx, işıqlan, çünki nurun gəldi,
Rəbbin izzəti üzərinə gəldi!

*Yeş. 60:1*

# 29 FƏSİL

# ONUN İMANI

Mənim üçün heç nəyə inanmadığını sübut edən adama qulaq asmaq, həmişə gülməlidir. Mən bilirəm ki, bu düz deyil. Bütün insanlar imanla yaşayır, təkcə hamıda iman müxtəlifdir. Həkimə müraciət edəndə, siz onun tərəfindən qoyulan diaqnozun dəqiqliyində əmin olmaq istəyirsiniz; aptekdə resepti təqdim edəndə, siz orada yazılana etibar edirsiniz; restoranda nahar edərkən, sizə xidmət edən adamlara və onların sizi zəhərləməyəcəklərinə etibar edirsiniz (doğrudur, bəzi restoranlara digərlərindən çox etibar etmək olur). Hər kəs nəyəsə inanır; Allah hər kəsə müəyyən «iman həcmi verib» (Rom. 12:3).

Biz, nəyə inanmağı, özümüz seçirik. Bəzi insanlar özlərinə inanırlar, digərləri hakimiyyətə inanırlar, üçüncüləri — pisliyə, dördüncüləri hər hansı başqa bir şeyə: elmə, qəzetlərə, fədakar əməyə, başqa insanlara, bəziləri isə — Allaha inanırlar. Mənə tanış olan insanlardan təkcə bir qadın heç nəyə inanmırdı, amma o, ağıldan məhrum olduğu üçün, öz günlərini psixiatriya xəstəxanasında başa vurdu. İnamsız yaşamaq mümkün deyil.

İnamsız həmçinin ölmək mümkün deyil. Bu həyatın o biri tayına keçəndən sonra bizim gələcəyimiz, bizim imanımızdan asılıdır. Əgər

siz İsaya inanırsınızsa, öz gələcəyinizdən ötrü rahat ola bilərsiniz, çünki «...İsanı ölülərdən Dirildənin Ruhu... o zaman Məsihi ölülərdən Dirildən, sizin də fani bədənlərinizə, sizdə yaşayan Öz ruhu ilə həyat verəcəkdir» (Rom. 8:11). Başqa sözlə, əgər İsanı ölülərdən diriltmiş Ruh, səndə yaşayırsa, O, Məsihi diriltdiyi kimi, səni də eləcə dirildəcək. Öz gələcəyimizdə əminlik bizim indiki həyat tərzimizi təyin edir; gələcək əbədi həyatda əminlik bizə yer üzündəki həyatımızda əminlik verir.

Necə heyranedici fikir! İsa korlara şəfa verərək onlara deyirdi: «Sizə imanınıza görə olsun» (Mt. 9:29). Səndə, Allaha imanına yenidən baxmaq istəyi yaranırmı? Əgər hə, onda bu yaxşıdır, çünki belə halda biz öz həyatımızın sonuna az-çox təsir etmək bacarığındayıq. Bizim həyatımız təsadüf iradəsinə təqdim edilə bilməz; bizim gələcəyimiz bizim imanımızla təyin olunur.

Vaxtaşırı hər birimizi şübhələr üstələyir. Hətta İsa soruşurdu, nə üçün Ata Allah Onu tərk etdi. Bu o demək deyildir ki, O, Allahın varlığına və ya Onun, Ona köməyə gələ bilmək bacarığına şübhə edirdi. O, sadəcə tərk ediləcəyini gözləmirdi. Adətən biz, Allahın varlığına və ya Onun bizə kömək edə bilmək bacarığına şübhə etmirik, lakin Onun, dərhal bizim həyatımıza qarışmaq istəməyinə biz şübhə edə bilərik. Əlbəttə, O, çox məşğuldur ki, mənim problemlərimlə məşğul olsun, — deyə biz fikirləşirik. Ancaq əslində bu belə deyil.

Sənin ərini şübhələr üstələyirmi? Əgər hə, onda onun imanının möhkəmlənməsi üçün sənin duaların, onun həyatında əsil çevriliş edə bilər. Hətta, əgər o, Rəbbi tanımırsa, sən dua edə bilərsən ki, onun ürəyində iman yaransın və onun qəlbi rahatlansın. Sənin ərinin həyatında elə bir şey yoxdur ki, onu, Allaha iman etmək ilə üstələmək olmasın. İsa dedi ki, Ona iman edən hər imanlının «içindən həyat bəxş edən sular axacaq» (Yəh. 7:38). Təkcə bu kifayət edər ki, istənilən köhnə ağrını, həyəcanı, qorxunu, apatiyanı, ümidsizliyi, qəmginliyi, şübhəni «yuyasan». Beləliklə, gəlin dua edək.

# Dua

***Ya Rəbb***, Səndən diləyirəm, onun (ərin adı), Sənə imanını elə bu gün möhkəmləndir. Ona, Sənin Sözünə, Sənin vədlərinə, Sənin yollarına və Sənin qüdrətinə daha çox inanmağa, kömək et. Qoy, o, Səninlə danışmağa və Sənin səsini eşitməyə susasın. Ona, təkcə Səndən nə isə diləmək yox, həmçinin Sənin hüzurundan həzz almağı da öyrət. Qoy, o, Səni axtarsın, qoy hər şeydə Sənə etibar etsin, Sənin ardınca getsin, Səni birinci yerə qoysun və bütün öz işlərində Səni görsün. Ya Rəbb, Sən dedin ki, «iman — eşitməkdən, eşitmək isə — Allahın kəlamını yaymaqla olur» (Rom. 10:17). Onun qəlbini Öz sözünlə elə doydur ki, Səninlə istənilən çətinliklərə qalib gələ biləcəyinə inansın (Mt. 19:26). Ona, möhkəm əminlik ver ki, Sən vəd verdiyini yerinə yetirəcəksən (Rom. 4:21). Qoy onun imanı onun qalxanı olsun; qoy o, iman, onun həyatında elə hərəkət etsin ki, o dağları tərpədə bilsin. Sənin Sözündə deyilib: «...saleh adam imanla yaşayacaqdır» (Rom. 1:17). Mən dua edirəm ki, onun imanla dolu həyatı, Sənə məqbul olsun. Qoy o, şübhə etməsin ki, «xeyirxahlığın böyükdür! Bunu Səndən qorxanlar üçün saxladın. Bütün bəşər övladları qarşısında Sənə pənah gətirənlərə xeyirxahlıq etdin» (Zəbur 31:19).

## MÜQƏDDƏS KITAB AYƏLƏRI SIZIN DUANI DAHA FƏAL EDƏ BILƏN AYƏLƏR

Amma qoy imanla diləsin, heç şübhə etməsin.
Çünki şübhə edən, küləyin qaldırdığı və təlatümə gətirdiyi dəniz dalğasına bənzər. Qoy belə bir adam düşünməsin ki, Rəbbdən bir şey alacaqdır. Mütərəddid adam etdiyi heç bir şeydən sabit deyil.

*Yaq. 1:6–8*

…imandan olmayan hər şey günahdır.

*Rom. 14:23*

…Sizdə bir xardal toxumu qədər iman olarsa və siz bu dağa: «Buradan oraya köç», — desəniz, o köçər və sizin üçün mümkün olmayan heç bir şey olmaz.

*Mt. 17:20*

Və artıq mən yaşamıram, Məsih məndə yaşayır.
İndi bədənlə yaşamağıma gəlincə, məni sevib, uğrumda Özünü fəda edən Allahın Oğluna imanla yaşayıram.

*Qal. 2:20*

Beləliklə, imanla saleh sayıldığımız üçün, Rəbbimiz İsa Məsihin vasitəsi ilə Allah qarşısında bizim sülhümüz var.

*Rom. 5:1*

## 30 FƏSİL

# ONUN GƏLƏCƏYİ

İnsan, öz mövcud olmasının mənasını anlayıb və məqsədini görməlidir. Belə olmadıqda, biz, itmiş kimi, həyatda məqsədsiz gəzirik, həyat bizə boş gəlir və biz yavaş-yavaş ölürük. «İlahi söz nazil olmayanda xalqda hərc-mərclik olar...» (Sül. Məs. 29:18).

Öz gələcəyini anlamaq, o demək deyil ki, öz həyatında qarşıda gələn hadisələri təfsilatilə bilmək. Burada, ən çox ehtimal edilir ki, sən, öz təyinatını anlayırsan və sənin gələcəyinin gözəl olduğuna inanırsan.

Ancaq, bütün insanlar gələcəyin belə görüntüsünə malik deyildilər. Demək olar ki, ona malik olmayanlar yavaş-yavaş ölürlər. Amma hətta, ona malik olanlar da, vaxtaşırı onu itirirlər. Hətta, ruhani yetkin adam da yorulur, ümidsizləşir, Allahdan uzaqlaşır, səmti itirir, özünü və öz gələcəyini anlaya bilmir. O, öz həyatının həqiqi məqsədini gözünün önündən itirib, qarışıqlıq və ümidsizliyə bata bilər. Ümidi itirərək, özü haqqında həqiqəti unudaraq və öz vəziyyətini artıq düzgün başa düşməyərək, insan öz gələcəyi haqqında yalana inanmağa başlayır. «Xalqım biliksizlikdən məhv oldu...» (Huşə 4:6).

Allah bizə yalançı səslərə qulaq asmamağı əmr edir, çünki onlar «Rəbbin ağzından çıxanları deyil, özlərinin uydurduqları görüntüləri söyləyirlər» (Yer. 23:16). Gələcək haqqında, ümidi və sevinci olmayan hər hansı bir fikir — Allahdan deyil (Yer. 29:11). Amma Allah, itirilmiş ümidi yenidən dirildib, sərf edilmiş arzuları qaytara bilər. Onun gücü kifayət edər ki, yalana və pərişanlığa qalib gələsən və vəd edilmiş gələcəkdə əmin olasan. Bu məqsədə çatmaq vasitəsi — duadır.

Ərim mənə dedi ki, mənim dualarımın təsirini ən aşkar, bizim Los-Ancelesdən Neşvillə köçən vaxtlarda hiss edirdi. O zamanlar, bizim üçün əziz olan adamlardan ayrılıb və hər şeyi yenidən başlamaq, bizə çox çətin idi. Ortaya çox şey qoyulmuşdu, mən hələ o zamanlar, bizim Allaha çox etibar etməyi öyrəndiyimizi demirəm. Biz, sonra bizimlə nə olacağını bilmirdik, lakin biz əmin idik ki, Allahın əmri ilə fəaliyyət göstəririk və inanırdıq ki, Onun idarəçiliyi altında biz təhlükəsizlikdə olacağıq. Mən Maykla görə dua edirdim ki, o, Allahın ona verdiyi gələcəyə ümidi itirməsin. Əlverişsiz vəziyyətlərə görə, o, fərasətlilikdən məhrum olanda, o, etiraf etdiyi kimi, mənim dualarım ona yenidən fərasət əldə etməyə kömək edirdi.

Biz yadda saxlamalıyıq ki, Ata Allah Öz vəsiyyətnaməsini tərtib edib və Öz varını, Öz uşaqlarının arasında düz bölüşdürüb. Hər nə Ona məxsusdursa, bizə də məxsusdur, çünki biz «Allahın varisləriyik; …Məsihin həmvarisləriyik» (Rom. 8:17). Mən bu vəsiyyətnamənin surətini oxumuşam və bilirəm ki, biz hətta özümüzə təsəvvür edə bilmirik ki, Allah bizim üçün nə qoruyur: «…Allahın Onu sevənlər üçün hazırladığı şeyləri nə göz görmüş, nə qulaq eşitmiş və nə də insanın ürəyi düşünmüşdür» (1 Kor. 2:9). O söz verir ki, «kamillərə yaxşı şeylər irs qalar» (Sül. Məs. 28:10); O, bizə təkcə bu həyatda vacib olan şeyləri verməyi vəd vermir, ancaq deyir ki, öləndən sonra göylərin mirasının ən qiymətli hissəsi bizi gözləyir. Orada, haradakı biz, Rəbb ilə birlikdə olacağıq, bizim nə ehtiyaclarımız, nə də qayğılı arzularımız olacaq.

Əgər sənin ərinin diqqəti gündəlik qayğılara qapılıbsa, əgər o, öz gələcəyini görmürsə, sənin duaların ona gözlərini göylərə qaldırmağa kömək edər. Onlar ona açacaq ki, onun gələcəyi Allahda bağlanıb, onun həyatı isə bu gələcəyə yoldur. «Məgər bilmirsinizmi ki, qaçış meydanında yarıçıların hamısı qaçar, amma tək bir nəfər mükafat alar? Elə qaçın ki, mükafat qazanasınız» (1 Kor. 9:24). Məgər sən istəyirsən ki, sənin ərin həyat yolu ilə gedərkən öz xüsusi düşüncələrinə əsaslanaraq, nəticədə, yolun sonunda öz mükafatından məhrum olsun? Xeyr, sən istəyirsən ki, o, hər şeyə Allahın gözləri ilə baxsın.

Allah istəmir ki, biz öz gələcəyimizi bilək, amma, O istəyir ki, biz Onu tanıyaq. O istəyir ki, biz Ona, bizi addım-addım gələcəyə aparmağa etibar edək. Bizə Allahın əlini görmək üçün isə, yeni addım atmamışdan qabaq, Onun hüzurunu axtarmaq vacibdir. «…Rəbbi axtaranlar bunu dərk edir» (Sül. Məs. 28:5). Onun cavablarını eşitmək üçün biz bacardıqca Ona yaxın olmalıyıq. Rəbb, bizim həyatımızı məna ilə doldurur, buna görə dua et ki, sənin ərin öz nəzərini Ona yönəltsin və Ondan cavab gözləsin, çünki Allah bizimlə olanda biz öz gələcəyimizdə əmin oluruq.

## *Dua*

***Ya Rəbb***, Səndən diləyirəm: ona (ərin adı), öz təyinatını düzgün başa düşməyə kömək et. Ona, Sənin ona ancaq yaxşılıq arzuladığını, ona «ümidli bir gələcək» vermək istədiyini görməyə kömək et (Yer. 29:11). Ona, Öz fikrini aç, müdriklik və fərasət ver ki, o, hər şeydə Sənə məqbul olaraq, hər bir xeyirli işdə səmərə verərək və Səni dərk etməkdə böyüyərək, həyatda Səninlə birlikdə getməyə layiq olsun (Kol. 1:9-10). Qoy Müqəddəs Ruh onu aparsın və onu hər

bir şübhə və qorxudan azad etsin. Onu gündəlik Səndə möhkəmlənməyi öyrət ki, o, «insanlar üçün qeyri-mümkün olan işlərin Allah üçün mümkün» (Lk. 18:27) olduğunu bilərək, bütün öz xəyal və arzularını Sənə açsın. Ona Öz məqsədlərini aç və ona elə yaşamağı öyrət ki, həyatı gələcəyə yol olsun.

Mən dua edirəm ki, o, öz həyatının bütün günlərində Sənə səylə xidmət etsin. Ona öz həyatının məqsədini görməyə kömək et və ona gələcəyə «can lövbəri kimi möhkəm və mətin» olan ümid ver (İbr. 6:19). Ona, «onun ürəyinin arzusunu» (Zəbur 21:2) və «Sənin adından qorxanlara təyin etdiyin payı» (Zəbur 61:5) ver. Onu Öz evində ək ki, o Sənin həyətində göyərsin, qocalanda da bar versin və təravətli, yamyaşıl qalsın (Zəbur 92:13-14). Ona bu yeri tərk etmək vaxtı gələndə isə, Səninlə birləşsin, qoy onun əbədi həyata imanı bu keçidi rahat və ağrısız etsin ki, o, sevinc və sülh ilə müşayiət edilsin. O günə qədər isə qoy, mənim ərim əmin olsun ki, Sənin onun üçün hazırladığın gələcək gözəldir.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## SİZİN DUANI DAHA FƏAL EDƏ BİLƏN AYƏLƏR

Çünki sizin barənizdə olan fikirlərimi Özüm bilirəm»
Rəbb belə bəyan edir. «Mən sizin pisliyiniz deyil,
salamatlığınız barədə düşünürəm ki, sizə ümidli bir
gələcək verim.

*Yer. 29:11*

Kamil adama bax, əməlisaleh insana nəzər yetir,
gələcək sülhsevən adama bəxş ediləcək.
Amma bütün asilər birlikdə yox olacaq,
pislərin kökü kəsiləcək.

*Zəbur 37:37-38*

Onlar Rəbbin evində əkilib, onlar Allahımızın
həyətində göyərir. Qocalanda da bar verəcəklər,
təravətli, yamyaşıl qalacaqlar, belə deyəcəklər:
«Rəbb haqdır, O mənim qayamdır,
Onda haqsızlıq yoxdur».

*Zəbur 92:13-15*

Rəbbdən bir arzum, bir istəyim var:
bütün ömrüm boyu Rəbbin evində yaşayım,
məbədində Rəbbin camalına baxım,
Ona pərəstiş edim.

*Zəbur 27:4*

Gələcəyin üçün ümid var...

*Yer. 31:17*